# ERMƏNİSTANDA AZƏRBAYCAN MƏNŞƏLİ TOPONİMLƏRİN İZAHLI LÜĞƏTİ-II-

http://budaqbudaqov.com/index.php?option=com_content&view=article&id=38:ermnstanda-azrbaycan-mnl-toponmlrn-zahli-luet-2&catid=77:ermnstanda-azrbaycan-mnl-toponmlrn-zahl&Itemid=78

B-E-Budaqov-N-G-Memmedov

BABABELLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus r-nunda) kənd adı. XIX əsrin II yarısından sonra adı çəkilmir. Babaya (pirə? şəxsə?) məxsus el, oba mənasındadır.

BABA BULAQ - Gorus r-nunda bulaq adı.

BABA YAQUBLU - Yelizavetpol quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus r-nunda) kənd adı. 1825-ci ildə yaranmışdır [20, 164]. XX əsrin əvvəllərində kənd dağılmışdır. Babayaqublu tirəsinin adındandır.

BABALIQAYALI - Yelizavetpol quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus r-nunda) kənd adı [133]. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağılmışdır. "Babalı kəndi yaxınlığında Qayalı kəndi" mənasındadır. Səlcuq oğuzlarının Kayı (Qayı) tayfasının adındandır. (Bax: Qayalı)

BABAQIŞLAĞI - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23, 121).

BABAKAR - Boz-Abdal dağ silsiləsində bir dağın adı. Əsli - Babaqar. Azərbaycan dilindəki baba (pir mənasında) və türk dillərindəki qar "alınmaz (sıldırım mənasında) qaya" (108, 107), ya da, bəlkə bəzilərində ərəbcə qar -"mağara" sözlərindən ibarətdir. Azərbaycanda və Ermənistanda bir sıra dağ adlarında qar, kar sözü iştirak edir. Erməni tədqiqatçıları bu sözü erməni dilində kar -"daş" sözü hesab edirlər. Bu tamamilə səhvdir. Azərbaycanda Buzduxqar (Kəlbəcər r-nu), Kəçələkar (yenə orada), Qoşqar (Kiçik Qafqaz), Qoşnaqar (Gədəbəy r-nu), Qoşunqar (Oğuz r-nu), Ləzqiqar (Şamxor r-nu), Lölükqar (Daşkəsən r-nu), Çinqar (Xanlar r-nu), Çoxqar (Şəki r-nu), Şıxqar (Kəlbəcər r-nu), Hinqar (İsmayıllı r-nu), Gürcüstanda Borçalı bölgəsindəki Əyriqar, Yastıqar, Qutankar, Qazaxıstandakı Zanqar (108, 112), Talqar (108, 205), Türkmənistandakı Qızılqar (Ataniyazov, Göstərilən lüğəti, s. 127) və b. göstərir ki, bu dağ adlarının heç biri erməni dili əsasında yaranmamışdır (bax: 79, 100).

BABAKİŞİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında (indi Ermənistanın Abaran r-nunda) kənd adı [133]. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. (6, 156). Sonralar azərbaycanlılar qayıtmışlar. 1922-ci ildə qovulmuş əhalinin az hissəsi geri qayıdaraq ermənilərlə qarışıq yaşamışdır. Lakin 1931-ci ilədək azərbaycanlılar sıxışdırılıb çıxarılmışdır [20, 94]. 1948-ci ildə kənd ermənicə Bujakan adlandırılmışdır. Babakişi şəxs (mülkədar) adındandır.

BABAKİŞİ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [136, 60]. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi sıxışdırılıb çıxarılmışdır. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi [136, 60]. 1948-ci ildə kənd ermənicə Aqavnadzor adlandırılmışdır. Babakişi şəxs adındandır.

BABALAR - Rəvan əyalətinin Qarni nahiyəsində kənd adı [169, 211].

BABALI - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 40].

BABA ÇƏRÇUR - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı. Mənbədə kəndin Dəllər kəndi yaxınlığında yerləşdiyi qeyd olunur [23, 36]. Digər adı Məhəmmədkənddir (yenə orada). Əsli Baba-Carçar. (Bax: Çarcar)

BABAXANLI - İrəvan xanlığının Şörəyəl mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Mənbədə Babaxana kimidir [150, 116]. Babaxan kəndin əsasını qoymuş əmirin adıdır. Kəndin digər adı Bozçaludur [170, 80]. XV əsrdə qızılbaşların Bozçalu tayfasının [16] məskunlaşması nəticəsində yaranmışdır. Babaxan bu tayfanın əmirlərindən biri olmuşdur [150, 116].

BABACAN - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [136, 60]. Tam adı Babacandərəsidir (yenə orada). Mənbədə Qırxbulaq nahiyəsində kənd adı kimi qeyd olunur və onun həm də Ozan və Baxçacıq adlandığı göstərilir [23, 82]. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Kənd "Babacan dərəsi"ndə yaranmışdır. Dərə mülkədar Babacana aid olmuşdur.

BABACAN - Ermənistanda Debed çayının sağ qolunun adı (60, 88). Babacan dərəsinin adı ilə adlanmışdır.

BABACUR - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Mənbədə kəndin adı Baba Cələcur kimidir [170, 3]. Mənbədə kəndin həm də "Məhəmməd kəndi" adlandığı qeyd olunur (yenə orada). Toponim Baba (ehtimal ki, şəxs adı) və mənası məlum olmayan "Cələcur" sözündən ibarətdir.

BABUR - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 41].

BABURLU - İrəvan xanlığının Talin mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra ermənilər yerləşdirilmişdir. Sonralar əhalinin bir hissəsi geri qayıtmış-dır. 1914-1915-ci illərdə azərbaycanlılar qovulmuşlar. (9, 159). 1947-ci ildə kənd ermənicə Bartraşen adlandırılmışdır. Baburlu tayfasının adını əks etdirir. XII-XIII əsrlərdə Anadolu yarımadasında oğuz tayfaları əsasında yaranmış yeni tayfalardan (Qaraman, Taraklu, İnal, Bahadurlu, Goran, Bayburlu, yaxud Baburlu) biri Baburlu idi [Bu barədə bax: 36, 95].

BAĞAMLI - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra adı çəkilmir. Ehtimal ki, kəndin əsasını qoymuş elin adıdır.

BAĞANIS - Noyemberyan r-nunda kənd adı. Türk dillərindəki bakanas -"çayın keçmiş delta axını", "çayın qədim məcrası (axını)" (126, 67-68) sözündəndir.

BAQABURC - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı (60, 68).

BAQASUN - Göycə bölgəsində Qelam dağ silsiləsinin cənub-qərb yamacında zirvə adı. Başqa adı Bağarsuqdur (60, 68).

BAQARAN - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. XIX əsrin ortalarında kənd dağılmışdır. Baqavan (qədim fars dilindəki baqa -"allah" və van "yer" sözlərindən) adının ermənicə tələffüz formasıdır. Aqin r-nunda hünd. 1656 m. olan Baqaran dağının adındandır

BAQIRSAQ - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı [133]. Əsli - Bağır-Saq. Bağır şəxs adından və türk dillərindəki saq - "içməli su" sözündəndir. (Bax: Anqar-Saq)

BAQDAD - İrəvan xanlığının Şirakel mahalında kənd adı [159]. Mənbədə Bağdadcıq kimidir [23, 131]. Digər adı Kuləxi (yenə orada). 1914-cü ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır. [170, 95]. Digər adı - Mirbəyi [170, 135]. Bağdad dağının adındandır. 1914-cü ildən xaraba kənddir (6, 157). (Bax: Bağdad dağı)

BAĞDAD - Şirak vadisinin şərqində, Böyük Kəpənəkçi kəndinin yaxınlığında dağ adı (6, 192).

BAĞDADDOLUTAXT - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133].

BAĞIRBABA - Şirakel nahiyəsində dağ adı. Hünd. 3268 m.

BAĞIRBƏYLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus r-nunda) kənd adı [133]. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Kəndin əsasını qoymuş nəslin adıdır.

BAĞIRLI - İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [170, 20]. Mənbədə bu kəndin "Şeyikli əşirətindən" (yəni tayfasından) yarandığı qeyd olunur (yenə orada).

BADAL - Oktemberyan r-nunda kənd adı. XX əsrin 30-cu illərində kəndin əhalisi tədriclə qovulmuş, ermənilər yerləşdirilmiş və ermənicə Exeqnut adlandırılmışdır. Əsli Bədəldir. Ehtimal ki, şəxs adındandır.

BADALI - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. Yerli tələffüz şəkli - Bədili. 1920-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Yexnazut adlandırılmışdır. Mənbədə İrəvan xanlığının Göycə nahiyəsində Bədəli və Bədəlli adlı iki kəndin adı qeyd olunmuşdur [170, 12]. XIX əsrdə Şimali Qafqazda Ter əyalətinin Xasavyurt dairəsindəki Bada-Yurt (kənd adı), həmin əyalətin Kızılyar dairəsindəki Bata-Yort (kənd adı) [133], Azərbaycanda Yelizavetpol quberniyasındakı Badakənd, Badaçay, Badasu [133], Cavad qəzasındakı Badibad, Naxçıvandakı Batabat, Talış-Lənkəran bölgəsindəki Badalan [133] toponimləri ilə mənaca eynidir. XIX əsrdə Qazax qəzasındakı Bayta (qışlaq adı), Borçalı qəzasındakı Baytalı (qışlaq adı) [133] toponimləri də bu sıraya aid edilə bilər. Musa Kalankatlının "Alban tarixi"ndə V əsrə aid hadisə ilə əlaqədar olaraq Albaniyada Saz-Baday (saz "qamışlıq" deməkdir) kənd adı çəkilmişdir ("Alban tarixi", I kitab, 33-cü fəsil).

BADAMKƏNDQIŞLAĞI - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 123].

BAZARKƏND - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) xaraba kənd adı [133]. XIX əsrin ortalarında dağılmışdır. Cənubi Qafqazda da çoxlu toponimdə "bazar" sözü iştirak edir (Bax: Qarqabazar). Lakin bu toponimdə bazar sözü ehtimal ki, "alış-veriş yeri" mənasındadır.

BAZARÇAY - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında çay adı. Gorusçay, Lizikçay və Uzçay qollarından ibarətdir. Mənbəyini Sisyan dağlarından götürüb Bərgüşadçaya qarışır (uz. 179 km). Ehtimal ki, qədim türk mənşəli Bazar tayfasının adını əks etdirir (Bazar tayfası barədə bax: 77). XIX əsrdə Lənkəran qəzasındakı Bazarçay hidronimi [133] ilə mənaca eynidir.

BAZARÇAYI - Mənbədə Rəvan əyalətinin Bazarçay nahiyəsində (169, 156), 1727-ci ildə İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [23, 150]. 1727-ci ilə aid mənbədə deyilir ki, kənddə heç kim yaşamır ((32, 236).

BAZARCIQ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1590-cı ildən məlumdur [169, 237]. 1878-ci ildə kəndin Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi. 1946-cı ildə kənd ermənicə Arik adlandırılmışdır. Gətirilmə addır. Qars əyalətinin Kaqızman dairəsində Bazarcik [133] kəndindən gəlmiş ailələrin məskunlaşması nəticəsində yaranmışdır.

BAZARCIQ - İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [23, 113].

BAZARCIQ - Rəvan əyalətinin Acaqala nahiyəsində kənd adı [169, 196].

BAZİKİT - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133]. Türk dillərindəki baz - "sıldırım dağ" və igid sözlərindən ibarətdir. Ermənicə kənd Bazeikit adlandırılmışdır (60, 69).

BAZUM - Ermənistanda Pəmbək çökəkliyi ilə Lori yaylağı arasındakı dağ belinin adı (60, 69). Qədim türk mənşəli baz (bayz) "sıldırım dağ" sözündəndir.

BAZUMTAR - Bazum dağ belindəki dağ zirvəsinin adı (60, 69). Bazum və qədim türk dillərindəki tor -"yüksək dağ örüşü" sözlərindən ibarətdir.

BAYAN - İrəvan xanlığının Karnibasar mahalında kənd adı. XIX əsrin ortalarında kənd dağılmışdır. Qədim türk mənşəli Bayan tayfasının adını əks etdirir. Uyğurlarda, qırğızlarda və türkmənlərdə indi də Bayan tayfası vardır [bax: 77]. Azərbaycandakı Bayan kəndinin adı (Daşkəsən r-nu) Cənubi Azərbaycandakı çoxlu Bayan kənd adı [Bax: 145, 32] ilə mənşəcə eynidir. Digər adı Basin-eli olmuşdur. Basin er.əv. VII əsrdə gəlmiş sakların bir qolunun adıdır. Onların əsas hissəsi Türkiyənin şərqində, Arazın yuxarı axınında və Şimali Azərbaycan ərazisində (Dağlıq Qarabağda) yerləşmişdir. Türkiyənin şərqində bu elin adını ilk dəfə er.əv. V əsrdə Ksenefont çəkmişdir. VII əsrə aid mənbədə isə Artsakda bir mahal Rot-Pasian adlanırdı. XI əsrə aid ermənicə mənbədə Şərqi Türkiyədə Basean kimidir (107, 22). "Kitabi-Dədə Qorqud"da adı çəkilən Pasunik toponimi də məhz Türkiyənin şərqində pasianların ərazisinin adıdır (bax: Q.Qeybullayev. Azərbaycanlıların etnik tarixinə dair. Bakı, 1994, s.55).

BAYANDUR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) kənd adı [133]. XIX əsrin ortalarında Azərbaycan türklərindən ibarət əhalisi çıxarılmış və ermənilər yerləşdirilmişdir.

1886-cı ilə aid məlumata görə əhalisi erməni idi. 1959-cu ildə kənd ermənicə Vaqatur adlandırılmışdır. Oğuzların Bayandur tayfasının adındandır. Türkiyədə Bayandur adlı 53 kənd var (34, 414-415).

BAYANDUR - İrəvan əyalətinin Şurəgəl nahiyəsində kənd adı [23, 131]. Bayandur tayfasının adındandır. 1918-ci ildə əhali qovulduqdan sonra kənd dağılmışdır (6, 157).

BAYANDUR - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 43]. Bayandur tayfasının adındandır.

BAYATDAĞI - Pəmbək dağ silsiləsində dağ adı. Səlcuq oğuzlarının Bayat tayfasının adını əks etdirir.

BAYAT BULAQ - Pəmbək dağ silsiləsində mineral bulaq adı.

BAYATLAR - Pəmbək bölgəsində qışlaq adı (6, 157). 1940-cı ildə fərmanla ləğv edilib.

BAYBURT - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1728-ci ildən məlumdur [170, 9]. 1949-cu ildə əhalisinin bir hissəsi Azərbaycana qovulmuşdur. Gətirilmə addır. Bayburt Anadoluda, Ərzincan yaxınlığında qədim qala adıdır. V əsr erməni mənbəyində Baybert kimidir [Moisey Xorenasi, II, 37]. XI əsrə aid mənbədə Baberddir [142, 100]. "Kitabi-Dədə Qorqud" eposunda və XIII əsrə aid mənbədə Bayburd kimidir [144, 268]. Orta əsrlərdə Bayburt Anadoluda həm şəhər-qalanın, həm də Əmirhacılı və Oğulbəyli qollarından ibarət türk mənşəli tayfanın adı idi [34, 188]. XV əsrdə Qızılbaş tayfalarından biri Bayburtlu adlanırdı [15, 25]. XIX əsrdə Qars əyalətinin Qars dairəsində və Tiflis quberniyasının Borçalı qəzasında Bayburt kəndləri vardı (133). Toponim türk dillərindəki bay - "böyük", "varlı" və sami mənşəli akkad dilinə mənsub birtu - "şah qarnizonunun yerləşdiyi qala" (erməni dilindəki bert, berd "qala" sözü də birtu sözündəndir) sözlərindən ibarətdir.

BAYBURT - İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [23, 48].

BAYBUCAN - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) dağ adı [133]. XIX əsrdə Dağıstan əyalətinin Qaytaq Tabasaran dairəsindəki Buçançay, Tiflis quberniyasının Tioneti qəzasındakı Bucançay, Borçalı qəzasındakı Bucan-Ər dağı [133] toponimləri ilə mənaca eynidir. "Kitabi-Dədə Qorqud" eposunda Bay Becan şəxs adı ilə səsləşir. Oronimin bay komponenti toponimlərdə "böyük", "varlı" mənalarındadır. Naxçıvandakı Babəki (əsli - Bay-bəki, yəni "Bay təpəsi") kənd adı və Bay-Sal dağ adı, Qax r-nundakı Axvay (əsli Aq-Bay) dağ adı və s. toponimlərdə bu söz vardır.

BAYDAQ (BƏYDAĞ) - Yelizavetpol quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı [133]. 1918-ci ildə azərbaycanlı əhali qovulmuş və İrandan gəlmə ermənilər yerləşdirilmişdir. 1959-cu ildə Qafan şəhəri ilə birləşmişdir. XIX əsrdə Dağıstan əyalətinin Samur dairəsində Böyük Badak kənd [133] adı ilə eynidir. Mənası məlum deyil.

BAYDARÇAY - Quqark r-nunda çay adı.

BAYRAMQIŞLAQ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 127]. "Günbəzli də adlanır" (yenə orada).

BAYRAMƏLİQIŞLAQ - İrəvan xanlığının Qarnibasar mahalında (Aştarak r-nu) kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Əsli Bayramlı-qışlaqdır. Qızılbaşların Bayramlı tayfasının [15] adını əks etdirir. (Bax: Bayramlı)

BAYRAMƏLİKƏND - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır [159]. Əsli Bayramlıdır. 1930-cu ildə ləğv edilmişdir. Qızılbaşların Bayramlı tayfasının məskunlaşması nəticəsində yaranmışdır. (Bax: Bayramlı)

BAYRAMKƏNDİ - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı [159]. Digər adı Kara-Taşdır. Bayram adlı şəxsin (mülkədarın) "Kara-taş" adlı yerdə saldığı kənddir.

BAYRAMLI - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Digər adı Əliqışlağıdır [20, 103]. Qızılbaşların Bayramlı tayfasının [15, 6] məskunlaşması nəticəsində yaranmışdır.

BAYSIZ - Talin r-nunda kənd adı. 1897-ci ildə kənddə Türkiyədən gəlmə yezid kürdləri yerləşmişlər (6, 157).

BAYTAR - Amasiya r-nunda kənd adı. Başqa adı - Ağkilsə. 1920-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuşdur. 1920-ci ildən sonra əhalinin bir hissəsi geri qayıtmış və yenidən məskunlaşmışdır. 1948-ci ildə əhali Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. Azərbaycanda Baydar (Qax r-nu) kəndinin adı ilə mənşəcə eynidir. Qədim türk tayfalarından Baydar elinin adını əks etdirir [bax: 77]. Monqollarda, Krım tatarlarında, başqırd-larda və qazaxlarda Baydar adlı tayfa vardır (bax: 78, 68).

BAZURMƏZRƏ - Rəvan əyalətinin Sisyan nahiyəsində məzrə adı [169, 362]. Türk dillərindəki bazırık -"kurqan" [126, 64] və məzrə - "əkin yeri" sözündəndir.

BAKUGÖL - İrəvan quberniyasının Eçmiadzin qəzasında Alagöz dağında gölün adı. Uz. 150 m., eni 145 m. 3200 m. yüksəklikdədir. Baku Ələyəz dağının zirvələrindən birinin adıdır (hünd. 3128 m). Qədim türk dillərindəki baku - "təpə", baqu "cərgə təpələr" [93, 83] və azərbaycanca göl sözlərindən ibarətdir. "Təpəlik yerdə göl" mənasındadır. XX əsrin 30-cu illərində fərmanla ermənicə Baqu-Liç adlandırılmışdır. Mənbədə adı çəkilən Bakı (qədim forması Baku) şəhərinin (bax: 86) adı ilə mənaca eynidir. XIX əsrdə Şimali Qafqazda Dağıstan əyalətinin Teymurxan-Şura dairəsindəki Baku-tala, Kuban əyalətinin Eysk dairəsindəki Bakay-Aci-Aul, Teymurxan-Şura dairəsindəki Bakay-Kiçiklik (dağ burnu) [133] toponimləri ilə sıra təşkil edir. Ehtimal ki, Zəngəzurda əhalisi azərbaycanlılardan ibarət Vaqazin kəndinin adı da Bakay və türk dillərindəki sin "dağ beli" sözlərindəndir. Bir mənbədə qeyd olunur ki, Alban çarı Vaçaqan (bu, III Vaçaqandır) 500-cü ildə Bakını qızı Varsenikə bağışlamışdır (Ефрикян. Иллюстрированный географический словарь. Том I, Венеция, 1903-1905, с.362).

BALA - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 91].

BALABAN - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 42]. "Kiçik Alban kəndi" mənasındadır.

BALABARANİ - Rəvan əyalətinin Avnik nahiyəsində kənd adı [169, 257]. "Kiçik Barani kəndi" mənasındadır (Bax: Barana)

BALAQARAQOYUNLU - Basarkeçər r-nunda kənd adı. Digər adı Kiçik Qaraqoyunludur. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd ləğv edilmişdir. Qaraqoyunlu tayfasının adını əks etdirir. (Bax: Qaraqoyunlu)

BALA ZAĞA - Ararat r-nunda kənd adı. XX əsrin əvvəllərində ləğv edilmihdir.

BALAKƏND - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (Noemberyan r-nu) kənd adı. XX əsrin 30-cu illərində kəndin əhalisi Azərbaycana köçürüldükdən sonra ermənilər yerləşmişdir. 1957-ci ildə kənd ermənicə Dovex adlandırılmışdır. "Kiçik kənd" mənasındadır.

BALAMƏZRƏ - Basarkeçər (Vardenis) r-nunda kənd adı. 1988-ci ildə kəndin əhalisi Azərbacana qovulmuşdur. Ərəb dilindəki məzrə - "düzən yerdə suvarıla bilən əkin yeri" sözündəndir. Lakin məzrə əsasında yaranmış kənd də Məzrə adlanırdı. "Kiçik Məzrə kəndi" mənasındadır.

BALA TÜKLÜ TƏPƏ - Noemberyan r-nunda təpə adı.

BALAŞLU - İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [170, 28].

BALAŞLI NƏCİLİ - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 75].

BALAXATAP - Göycə mahalında kənd adı [150, 361]. Kəndin adı türk dillərindəki balık - "şəhər" və Azərbaycan dilindəki tap -"təpə", "yüksəklik" (bax: Tap) sözlərindən ibarətdir. (Bax: Bələk)

BALDIRĞAN QIŞLAĞI - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 123].

BALDIRĞANLI - Quqark r-nunda kənd adı. XIX əsrin sonlarında kənd dağılmış və əhalisi həmin rayondakı Karvansara kəndinə köçmüşdür. Oradakı Baldırqanlı dağının [133] adındandır.

BALDIRĞANLI - Şəmşəddin (Berd) r-nunda qışlaq adı. 1930-cu ildə ləğv edilmişdir.

BALDIRĞANLIQ - Gorus r-nunda dağ adı.

BALDIRĞANLIDAĞ - Qafan r-nunda dağ adı.

BAL-YOL - İrəvan quberniyasının Eçmiadzin qəzasında xaraba kənd adı (133, 30).

BALK - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı. Musa Kalankatlının "Alban tarixi"ndə Albaniyanın Sisakan əyalətində mahal adı kimi qeyd olunmuşdur ("Alban tarixi", III kitab, 17-ci fəsil). X əsrdə Eçalan da adlanmışdır. Ehtimal ki, qədim türk dillərindəki balık -"şəhər" [51, 80] sözündəndir. (Bax: Bələk)

BALI - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (170, 53). Gətiril-mə addır. Şərqi Türkiyədə Balu (57, 489) mahalından gəlmə ailələrin məskun-laşması nəticəsində yaranmışdır. 1581-ci ilə aid mənbədə Şərqi Anadoluda Kərədə ilə Balu arasında Koroğlunun (Rövşənin) dəstə başında fəaliyyət göstərməsi qeyd olunur (36, 192). Həmin vilayətdə Tokat-Sivaş yolu üzərində Çamlıbel dağı yerləşir (36, 193).

BALIQLI - Amasiya r-nunda kənd adı. 1991-ci ildən - Zorakert. 1988-ci ildə əhalisi Azərbaycana köçürülmüşdür. XIII əsrə aid mənbədə Balak [129], 1728-ci ilə aid arxiv sənədində İrəvan əyalətinin Dərələyəz nahiyəsində Balaklı kimi qeyd olunmuşdur [90, 19]. Ehtimal ki, gətirilmə addır. XIX əsrdə Qars əyalətinin Qars dairəsində və Kaqızman dairəsində Balıqlı adlı üç kənd vardı [133]. Balıqlı kənd adı qədim türk mənşəli Balkalı tayfasının (noqaylarda, özbəklərdə, qazaxlarda və qaraqalpaqlarda bu tayfa barədə bax: "Onomastika Kirqizii", I Frunze, 1985 s.93) adındandır.

BALIQLI - Göycə gölünə şimal-qərbdən tökülən bir çayın adı (60, 77). XX əsrin 30-cu illərində çay ermənicə Dzıknaqet adlandırılmışdır.Çayın adı ondakı balığın bolluğu ilə əlaqədardır.

BALIQÇAY - İrəvan quberniyasının Novobayazid qəzasında (Dilican r-nu) çay adı (133,30).

BALIQÇI ŞAHVERDİ VİRANI - Rəvan əyalətinin İrəvan qəzasında kənd adı (169, 65).

BALLIQAYA - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus rayonunda) kənd adı [133]. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Oradakı "Ballı qaya"nın adındandır. Qayanın adı bal arısı yuvalarının olması ilə bağlıdır. XIX əsrdə Zəngəzurda yaşamış Safulu tayfasının qışlaqlarından (bax: Acıbac) birinin adıdır (103, 166).

BALLIQAYA - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında dağ adı [133]. Ermənicə Meqrakar adlandırılmışdır [20, 164].

BALLICA - Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 61].

BALLICA - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 80].

BALLICA - İrəvan əyalətinin Abadan nahiyəsində Astadingil kəndinə məxsus məzrənin adı [23, 113].

BALTADƏRƏSİ - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (Dilican r-nunda) kənd adı [133]. XIX əsrin 40-cı illərinin sonlarında əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir. Türk mənşəli Balta tayfasının adını əks etdirir (bu tayfa barədə bax: 77).

BALTAÇAY - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (Dilican r-nunda) kənd adı [133]. 1959-cu ildə Dilican qəsəbəsinə birləşdirilmişdir. Balta tayfasının adındandır. (Bax: Baltadərəsi)

BAR - Mənbədə Göycə mahalında kənd adı [150, 360]. Ehtimal ki, türk dillərindəki bair -"təpə" [126, 64] sözündəndir.

BARABLI - Rəvan əyalətinin Abnik nahiyəsində kənd adı [169, 255]. Fars dilindəki baryab -"suvarılan ərazidə əkin yeri" (145, 169) sözündəndir.

BARABLI - İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [170, 7].

BARANA - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Noemberyan r-nunda) kənd adı [133]. Mənbədə İrəvan əyalətinin Sürməli nahiyəsində Barani kəndi qeyd olunur [170, 16]. İncəsu çayının adı ilə əlaqədar olaraq İncəsu da adlanmışdır. 1938-ci ildə ermənicə Noemberyan adlandırılmışdır. Qaraqoyunluların Barani tayfasının [15, 18] adını əks etdirir. Azərbaycandakı Boranikəndin (Salyan r-nu) adı ilə mənşəcə eynidir. (Şərqi Anadoluda Barana mahalı barədə bax: 90, 77)

BARANİ - İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [23, 63].

BARAT - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. Mənbədə "Barat qışlağı" kimidir [169, 271]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır [159]. 1806-cı ildə Rus-İran müharibəsi illərində Gürcüstandan İrəvan xanlığına 400 ailə - azərbaycanlı köçüb gəlmişdir. İrəvan xanı Hüseynqulu xan onları Zəngiçayın sağ sahilində sərhəd boyu yerləşdirmiş və nəticədə, Məklər, Mürsəlli, Baratı, Karvansaray, Yaycı, Qarakeşiş, Ardışlı və Qara Murad kəndləri yaranmışdır (Акты Кавказской археологической комиссии, IV, II, 305). Barat dağının adındandır.

BARAT - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 31].

BARATİ - Rəvan əyalətinin Abnik nahiyəsində məzrə (əkin yeri) adı [169, 257]. "Barat adlı şəxsə mənsub (əkin yeri)" mənasındadır.

BARATLI - İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [23, 47].

BARAXLI - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (Noemberyan r-nunda) kənd adı [133]. XIX əsrin 30-cu illərində rus ailələrinin tikdirdiyi baraklar (taxtadan tikilmiş müvəqqəti bina, ev) əsasında yaranmışdır. Yaxınlıqdakı Ləmbəli və Qarabulaq kəndlərindən azər-baycanlılar, ermənilər və gürcülər məskunlaşmışlar [20, 328]. 1988-ci ildə kəndin azərbaycanlılardan ibarət əhalisi qovulmuşdur.

BARBARA - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 31).

BARDAQ - Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 191]. Mənbədə kəndin həm də Tutmacili adlandığı göstərilir (yenə orada).

BARDAQLI - Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 193].

BARDAQLI - Rəvan əyalətinin Abnik nahiyəsində kənd adı [169, 254]. Mənbədə kəndin həm də Qulac adlandığı qeyd olunur (yenə orada).

BARDUQ - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 41].

BARIABAD - Krasnoselsk r-nunda kənd adı. XX əsrin 50-ci illərində əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. Azərbaycan dilindəki barı - (hasar, qala divarı) və abad “kənd” sözlərindən ibarətdir.

BARITLI - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 121].

BARIŞA - Rəvan əyalətinin Zar nahiyəsində kənd adı [169, 328]. Mənbədə kəndin həm də Qaragöz adlandığı qeyd olunur [169, 328].

BARSUQ (PORSUQ) - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 120].

BARTAZ - Meğri dağ belində bir zirvənin adı (60, 69). Azərbaycan dilindəki barı -“hasar”, “qala divarı” və türk dillərindəki tas - “qaya” sözlərindən ibarətdir.

BASARKEÇƏR - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133]. Mənbədə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd kimi qeyd olunmuşdur [23, 61]. 1930-cu ildən rayon və onun mərkəzinin adı idi. 1969-cu ildə Vardenis adlandırılmışdır. 1988-ci ildə şəhərin əhalisi Azərbaycana qovulmuşdur. Basarkeçər yaşayış məntəqəsinin adı kimi 1728-ci ildən məlumdur [170, 16]. Basarkeçər adının İrəvan əyaləti kəndlərinin 1590-cı ilə aid siyahısında çəkilməməsi onun 1590-1720-ci illər arasında yarandığını göstərir. Məhz buna görə də toponimin XIV əsrdə Əmir Teymurun (Teymurləngin) buranı "basıb keçməsi" ilə əlaqədar olaraq yaranması haqqındakı xalq etimologiyası həqiqətə uyğun deyildir. XVIII əsrin ortalarına aid ermənicə mənbədə Sürməli mahalında Ağbazar və Qarabazar adlı kənd adları qeyd olunmuşdur [150, 116]. Ehtimal ki, topopnimin ilkin forması Bazar-Keçər olmuşdur. 1590-cı ildə Rəvan əyalətinin Sisyan nahiyəsində Köçəri adlı kənd qeyd olunur [169, 364]. Ehtimal ki, Basarkeçər toponimi də məhz ""Bazar" adlı yerdə Köçər kəndi" mənasındadır. Köçər isə qədim türk tayfalarından birinin adıdır (Bax: Köçərli).

BASARKEÇƏRİ-DAŞT - Basarkeçər (Vardenis) r-nunda çöl adı.

BASTAM - Göycə mahalında kənd adı [150, 360].

BATAR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı [133]. XX əsrin əvvəllərində kənd dağılmışdır. Əsli Baydardır. Türk mənşəli Baydar tayfasının (bax: 78) adını əks etdirir. Azərbaycanda Baydarlı (Zaqatala r-nu) kənd adı ilə mənşəcə eynidir. (Bax:Baytar)

BATAKAL - Göycə mahalında kənd adı [150, 361]. Mənbədə kəndin gölün içərisindəki Qaravəngə (ermənicə Sevvanka) məxsus olması göstərilir (yenə orada). Battaqgöl adının ermənicə təhrifidir.

BATAXLI - Şəmşəddin (Berd) r-nunda qışlaq adı. 1930-cu ildə ləğv edilmişdir.

BATMIŞ - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 40].

BATRINC - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 37].

BAXIŞ QIŞLAĞI - İrəvan əyalətinin İqdır nahiyəsində qışlaq adı [23, 68]. "Başqa adı Əminəli qışlağı" (yenə orada).

BAXÇALAR - Baqramyan r-nunda kənd adı. 1968-ci ildə kənd ermənicə Baqaran adlandırılmışdır.

BAXÇALI - İrəvan quberniyasının Aleksandropol qəzasında (Amasiya r-nunda) kənd adı [133]. Güllübulaq kəndinin yaylaq yerində yaranmışdır. Qazax elinin Qarapapaq tayfasından ibarət əhalisi 1921-ci ildə Türkiyəyə köçdükdən sonra kənd dağıdılmışdır. (6, 158) Əsli Baxşalıdır. Ehtimal ki, şəxs adındandır.

BAXÇACIQ - İrəvan xanlığının Vedibasar mahalında (Ararat r-nunda) kənd adı. 1590-cı ilə [169, 218] və 1728-ci ilə [170, 15] aid mənbələrdə adı çəkilir. 1828-1832-ci illərdə kəndin Azərbaycan türklərindən ibarət əhalisi qovulmuşdur. Bir neçə ildən sonra onun bir hissəsi geri qayıdaraq yenidən məskunlaşmışdır. 1949-cu ildə kəndin əhalisi Azərbaycana köçürülmüş və kənd ləğv olunmuşdur. Kənd oradakı Baxçacuq dağının adını əks etdirir.

BAXÇACIQ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [159]. XX əsrin əvvəllərində kənd dağılmışdır. Oradakı Baxçacıq dağının adındandır.

BAXÇACIQ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. Mənbədə İrəvan əyalətinin Qırxbulaq nahiyəsindəki kənd kimi qeyd olunur [23, 82]. Digər adı Ozandır (yenə orada). "Xəlifəli kəndinin yaxınlığında yerləşir" (yenə orada). "Kəndin başqa adı Babacandır" (yenə orada). 1919-cu ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

BAXÇACIQ - İrəvan əyalətinin Dərələyəz nahiyəsində (Yeğeqnadzor r-nunda) kənd adı [32, 275]. Mənbədə kənddə cəmi 3 ailəli kişinin və 1 subay oğlanın yaşadığı qeyd olunmuşdur (yenə orada).

BAXÇACIQ - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. 1828-1832-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159].

BAXÇACIQ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. Mənbədə İrəvan əyalətinin Karbi nahiyəsində kənd kimi qeyd olunur [23, 90]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1935-ci ildə kənd ermənicə Partiçak adlandırılmışdır.

BAHARLI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı [133]. Başqa adı Şəfibəylidir (103, 170) 1917-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır [20, 182]. Azərbaycanlı əhali 1922-ci ildən sonra qonşu Vaqudi kəndində yerləşmişdir. Qaraqoyunluların Baharlı tayfasının (34, 158) adını əks etdirir [15].

BAHARLI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Qafan r-nunda) kənd adı [133]. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Qaraqoyunluların Baharlı tayfasının adını əks etdirir.

BACOĞLU - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133]. 1918-ci ildə qazaxların Qarapapaq tayfasından ibarət əhalisi qovulmuş və 1915-1918-ci illərdə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Sonra əhalinin bir hissəsi geri qayıtmışdır. 1930-cu ildə əhali başqa azərbaycanlı kəndlərinə köçmüşdür (6, 158). Bundan sonra orada ermənilər yerləşmişlər. 1935-ci ildə kənd ermənicə Haykavan adlandırılmışdır. XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsindəki Becukli kəndi, Qars əyalətinin Oltin dairəsindəki Becukli kəndi və Quba qəzasındakı Bıjqulu dağ adları [133] ilə eynidir. Əhalinin yer dəyişməsi ilə əlaqədar olaraq gətirilmə addır. Mənası məlum deyil.

BACOĞLUTAPI - Amasiya r-nunda təpə adı.

BAŞ ABDALLAR - Abovyan r-nunda kənd adı. 1905-1906-cı illərdə ləğv edilmişdir.

BAŞ ABARAN - İrəvan xanlığında mahal adı [159]. Mahal 1590-cı ildən məlumdur [169, 235]. Baş Abaran kəndinin adı ilə adlanmışdır. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən (İrandan və Türkiyədən) gəlmə ermənilər yerləşdirilmişdir. XVIII əsrin əvvəllərində adı çəkilir [150, 365]. Türk mənşəli Abaran tayfasının adını əks etdirir. (Bax: Abaran)

BAŞ ALI - İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 14].

BAŞBULAQ - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 41].

BAŞ QARAGƏDİK - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Gorus r-nunda) kənd adı [133]. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır. Qaragədik kəndin yerləşdiyi yerin adıdır.

BAŞ QARNİ (BAŞ GƏRNİ) - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1828-1832-ci illərdə kəndin Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. 1935-ci ildən Qarni r-nun, sonra Abovyan r-nun mərkəzi idi. Qarni oradakı qədim qalanın adıdır. V əsrə aid məlumata görə onu Ermənistanda çarlıq edən Parfiya hakimi Tiridad tikdirmişdi (Moisey Xorenasi, II kitab, X fəsil). Qarni həm də oradakı çayın adıdır. Mənası məlum deyil. (Bax: Qarni)

BAŞQA ÇƏRİKNİ - Rəvan əyalətinin Zəbil nahiyəsində kənd adı [169, 332].

BAŞ QIŞLAQ - İrəvan xanlığının Saatlı mahalında kənd adı [159]. XIX əsrin I yarısından sonra kəndin adı çəkilmir.

BAŞ DƏM - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 41].

BAŞ YURD - Rəvan əyalətində yaylaq adı. "Burada Axarbəyli adamları yaylayır" [169, 66].

BAŞ ZEBİL - Rəvan əyalətinin Zebil nahiyəsində kənd adı [169, 330]. Bu kəndin adı ilə əyalətin nahiyələrindən biri Zebil adlanırdı (bax: Zebil). Zebil adının mənası məlum deyil.

BAŞ KEYTİ - İrəvan xanlığının Göycə mahalında kənd adı [159]. XIX əsrin I yarısından sonra adı çəkilmir. Əsli - Baş Kəti. (Bax: Aşağı Keyti)

BAŞKƏND - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133]. 1728-ci ildən məlumdur [23, 48]. 1946-cı ildə Baş Qyux (ermənicə qyux "kənd" deməkdir) adlandırılmışdır.

BAŞKƏND - Abovyan r-nunda kənd adı. 1828-ci ildə İrandan gəlmə ermənilər də yerləşdirilmişdir və beləliklə kəndin əhalisi qarışıq olmuşdur. 1918-1920-ci illərdə azərbaycanlılar qovulmuşlar. 1922-ci ildə onların az hissəsi qayıtmış, lakin 1949-cu ildə yenidən Azərbaycana köçürülmüşdür. 1946-cı ildə kənd ermənicə Akunk adlandırılmışdır.

BAŞKƏND - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında (Yeğeqnadzor r-nunda) kənd adı [133]. 1728-ci ildən məlumdur [23, 126]. XIX əsrin 70-ci illərində Azərbaycan türkləri sıxışdırılıb çıxarılmışlar. 1886-cı ildə kəndin əhalisi erməni idi. 1946-cı ildə kənd ermənicə Vernaşen adlandırılmışdır.

BAŞKƏND - İrəvan əyalətinin Şurəgəl nahiyəsində kənd adı [23, 128]. XIX əsrin 70-ci illərində əhali qovulmuşdur. 1946-cı ildə kənd ermənicə Saralanc adlandırılmışdır.

BAŞKƏND - Kamo r-nunda kənd. 1946-cı ildə ermənicə kənd Qexarkunik adlandırılmışdır.

BAŞKƏND - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan mahalında) kənd adı [133]. 1828-ci ildə İrandan gəlmə ermənilər də yerləşmiş və əhali qarışıq yaşamışdır. 1918-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuşdur. 1946-cı ildə kənd ermənicə Barsravan adlandırılmışdır.

BAŞKƏND - İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [170, 7].

BAŞ KÖY - Qukasyan r-nunda kənd adı. 1946-cı ildən Başqyuq adlandırılmışdır.

BAŞ KÖY - Artik r-nunda kənd adı. 1946-cı ildən Saralanğ adlandırılmışdır.

BAŞ GÖY - İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 114]. Mənbədə kənddə 4 ailənin yaşadığı göstərilir [32, 295].

BAŞ GÖZƏLDƏRƏ - İrəvan xanlığının Göycə mahalında (Martuni r-nunda) kənd adı. 1905-1906-cı illərdə ləğv edilmişdir. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalinin qovulması ilə kənd dağılmışdır. Kənd "Gözəldərə" dərəsinin adını əks etdirir.

BAŞIBÖYÜK - İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [170, 7]. Mənbədə kənd həm də Candar adlanmışdır [170, 78]. Candar türk mənşəli bir tayfanın adıdır. (Bax: Candar)

BAŞNƏLİ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1728-ci ildən məlumdur [23, 99]. Mənbədə kəndin həm də Candar adlandığı qeyd olunmuşdur (yenə orada). 1918-ci ildə azərbaycanlılar qovulmuşlar. 1949-cu ildə kənd ermənicə Baqramyan adlandırılmışdır. Basineli (yəni Basin tayfası) adının fonetik şəklidir.

BAŞ MƏRCİVAN - İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [23, 64]. "Mübarək kimi də tanınır" (yenə orada). (Bax: Açıq Mərcivan)

BAŞ SİNAK - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. XIX əsrin I yarısından sonra adı çəkilmir.

BAŞSIZ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. Mənbədə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı kimi qeyd olunur [23, 90]. Əsli Baş Sisdir. 1590-cı ilə aid mənbədə Başsız [169, 92], 1727-ci ilə aid mənbədə isə kəndin adı Baş Sis kimidir [170, 20]. Sis - Kiçik Asiyanın cənubunda Kiligiya əyalətində şəhər və mahal adıdır [137, 275]. Cis və Masis orta əsrlərdə Türkiyənin cənubunda Qaraman əyalətində iki qalanın adı olmuşdur [160, 275]. (Cis əyaləti haqqında habelə bax: 146, 370]. Mənbələrdə ilk dəfə XVI əsrdən məlumdur [107, 202]. Kənd Sisdən gəlmiş türklərin məskunlaşması nəticəsində yaranmışdır. XVII əsrə aid erməni mənbəyinə görə Sis həm də Kozan adlanmışdır [150, 120]. Azərbaycanda XIX əsrdə Qarabağda yaşamış Quzanlı tayfasının adı da məhz Kozan mahalının adı ilə bağlıdır (bu elin adı Ağdam r-nunda Quzanlı kəndinin adında əksini tapmışdır). (Bax: Qulaqsız)

BAŞ HACI - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı. 1919-cu ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Hacı şəxs (mülkədar) adından ibarətdir.

BAŞ ŞORCA - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133]. 1919-cu ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır. (Bax: Şorca)

BEQLUDAĞ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 34]. Geniş areala malik türk mənşəli toponimdir. XIX əsrdə Şimali Qafqazda Dağıstan əyalətinin Dargin dairəsindəki Beqala-Moxi ("Beqlidağ" mənasında-dır), Batumi əyalətindəki Beqleti və Beqlevan (133, 34), Tiflis quberniyasının Qori qəzasındakı Beqleti ("Beqli yeri" mənasındadır), Borçalı qəzasındakı Böyük Beqlər və Kiçik Beqlər (133. 35), Azərbaycanda Şamaxı qəzasındakı Beklə (kənd adı), Ərəş qəzasındakı Beqlər kənd (133, 35), Nuxa (Şəki) qəzasındakı Bekli (kənd adı) [133] toponimləri ilə eynidir. Ehtimal ki, türk dillərindəki bekle -"möhkəmləndirilmiş yer", "qala", "qüvvətli" [147, II, 117-120] sözündəndir. (Bax: Bıqlı)

BEZADBULAĞI -  İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 4]. "Behzadbulağı" adından təhrifdir.

BEDQUS -  Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 59]. Ölü kənd adıdır.

BEZİKİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı. Orta əsrlərdə Ermənistanda yaşamış   Paziki tayfasının [135, 48] adını əks etdirir. İranda XIX əsrdə Zəngənə adlı kürd mənşəli tayfanın da bir qolu Bazuki adlanırdı. (Bax: Baziki)

BEZMİNDAQ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan mahalında) dağ adı [133]. Dağın adı türk dillərindəkiki bayz - "baz" "sıldırım" (bax: Boz Abdal) və menqi "buzlaq", "daimi qar" [126, 368] sözlərindən ibarət olmaqla "Zirvəsi daim qar olan sıldırım" mənasını verir.

BEKƏND - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1967-ci ildə kənd ermənicə Mets Parni adlandırılmışdır. Əsli Böyük Bəkənddir. Bəykənd adından təhrifdir. (Bax: Bəykənd)

BEKƏND - Artik r-nunda kənd adı. Əsli - Kiçik Bekənd. 1878-ci ildə əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir (6, 159) 1967-ci ildə kənd Anuşavan adlandırılmışdır.

BEYBUTABAD - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra kəndin adı mənbələrdə çəkilmir. Beybut şəxs adından və abad  -"kənd" sözündən ibarətdir.

BEYRƏKKƏND - İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [170, 15]. (Bax: Böyrək)

BEYRƏKTABİ  - İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 14]. "Beyrək (kəndinə) tabe məntəqə" mənasındadır.

BEYTİVAN - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 133]. Ərəbcə beyt  -"ev", "məbəd" (145, 33) və avan  - "kənd" sözlərindən ibarətdir.

BEYTİ MURAD - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 129]. "Digər adı Qütbi qışlağı" (yenə orada). Ərəbcə beyt - "ev" və Murad şəxs adından ibarətdir.

BELİŞEN  - Göycə mahalında kənd adı [150, 360].

BENİS - İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [23, 150]. Həmin mənbədə deyilir ki, kənddə 7 xristian ailəsi yaşayır [32, 234].

BENİS - İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı [23, 105]. Benus forması da var (yenə orada).

BERANKE  -  İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 43].

BERDADAQ  -  Yeğeqnadzor r-nunda  xaraba kənd adı.

BERDATEQ  -  Quqark r-nunda qala adı.

BERDİZ  - İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [23, 131]. Lakin Mənbədə Berli kimidir [32, 254].

BERDİZ - İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [23, 150].

BERDİXARABA - Kamo r-nunda xaraba kənd adı.

BERİ (BEYRİ) - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. XIX əsrin sonlarından sonra kəndin adı mənbələrdə çəkilmir. Buryat-monqol dillərindəki bayra -"gəliş yeri", "dayanacaq", "düşərgə" (Вах: Кузмина Г.Г. Словарь географических терминов и других слов, встречающиеся в бурятских географических названиях. М. 1969, с.13.) sözündəndir.

BEXIXUT - Qafan r-nunda dağ zirvəsinin adı. (60-70). Naməlum mənalı Bexi və monqolca xut - "dağ" sözlərindən ibarətdir.

BEÇƏ - Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 193].

BECAZİN - Artaşat r-nunda kənd adı. Başqa adı Becazludur (60, 70). 1831-ci ildə kənddə İrandan gəlmə ermənilər də yerləşdirildikdən sonra əhali qarışıq yaşamışdır. 1918-ci ildə kəndin əhalisinin azərbaycanlı yaşayan hissəsi qovulmuşdur. 1945-ci ildə kənd ermənicə Vostan adlandırılmışdır. XIX əsrdə Şimali Qafqazda Kuban əyalətinin Bədəlpaşa dairəsindəki Becasin dağ adı [133] ilə quruluşca eyni olsa da, mənası məlum deyil.

BECİNİ - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. Mənbədə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində Beçni kəndi qeyd olunmuşdur [23, 36]. Hələ orta əsrlərdə əhalisi qarışıq olmuşdur. 1828-1829-cu illərdə xaricdən gəlmə ermənilər hesabına kənddə ermənilərin sayı artmışdı [159]. 1918-ci ildə Azərbaycan türkləri qovulmuşdur. Kənd oradakı qədim Becini qalasının [46, 192] adı ilə adlanmışdır. Qalanın adı 1225-ci ildə Sultan Cəlaləddinlə əlaqədar hadisələrdə çəkilmişdir (Raşid ad-din. I. 2, s. 242-243). Qala isə qədim türk mənşəli Peçene (Peçeneq) tayfasının adındandır. Peçeneqlər eranın əvvəllərində şimaldan kəngərlərlə birlikdə, ehtimal ki, hunların tərkibində gələrək Şərqi Anadoluda, indiki Ermənistan və Albaniyanın Arsak əyalətində məskunlaşmışlar. Erməni mənbələrində Şərqi Anadoluda Bznunik (ərəb mənbələrində Bacunays), Becini, Albaniyada VII-X əsrlərdə Becans, Pazkank və s. toponimlər bu etnonimi əks etdirir. 1588-ci ilə aid məlumata görə Zəyəmçayın bir qolu Bacançay adlanırdı [167]. XIX əsrdə Tiflis quberniyasının Siqnax qəzasında Becani və Kutais quberniyasının Şaropan qəzasında iki Bjeanevi kənd adı [133] ilə Becini eyni etnonimin fonetik formalarıdır.

BEŞ AQAL - İrəvan quberniyasının Eçmiadzin qəzasında göl adı (133, 38).

BEŞBARMAQ - Gorus r-nunda qışlaq adı. 1930-u ildə ləğv edilmişdir.

BƏBİRLİ - İrəvan əyalətin Şirakel nahiyəsinə Göyərçinli kəndinin başqa adı [23, 130]. (Bax: Göyərçinli)

BƏBİRLİ YERİ - Gorus r-nunda yurd adı.

BƏDİRXAN - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 52].

BƏDƏL - Oktemberyan r-nunda kənd adı. 1946-cı ildə kənd ermənicə Yexeqnut adlandırılmışdır. Monqol dilindəki buudal - "düşərgə", "dayanacaq" (Монгольско-русский словарь, М. 1957, с. 90). sözündəndir.

BƏDƏLLİ - İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı [23, 55].

BƏDİRDAŞ - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 95].

BƏDİRXANLI QIŞLAĞI - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 123].

BƏZƏKLİ - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. Sonralar kənddə ermənilər yerləşdirilmiş və ermənicə Bartsradir adlandırılmışdır (60, 70). Bəzəkli dağının adındandır.

BƏZƏKLİ - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı [133].

BƏZİRGANAQILI - Rəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [169, 276]. Bəzirgan - "tacir" sözündəndir. XVIII əsrə aid ermənicə mənbədə Şərqi Türkiyənin Bayazid mahalında Bəzirganҫay toponimi qeyd olunur [150, 116].

BƏZİRXANA - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133]. 1590-cı ildən məlumdur [169, 190]. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (6, 159). 1935-ci ildə kənd ermənicə Tsitankov adlandırılmışdır. Azərbaycan dilində keçmişdə zəyərək bitkisindən alınan və çıraqda yandırılan yağa "bəzir" deyilirdi. Bu yağ kətan yağı da adlanırdı. Bəzirxana "bəzir yağı istehsal olunan yer" mənasındadır. Mənbədə Sisyan nahiyəsinin Dulus, Pirnaqut, Dəstəgird və b. kəndlərində bəzirxanaların olduğu qeyd olunmuşdur [32, s. 241, 242, 243]. Azərbaycanın Qax r-nundakı Vəzirçal dağının, Tərtərçayın sol qolu Bəzirxana çayının (bax: 27), XIX əsrdə Tiflis quberniyasının Axalsix qəzasındakı Bəzirxana [133] kəndinin adları eyni mənadadır.

BƏZİRXANA - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. XIX əsrin sonlarından sonra adı çəkilmir. "Çıraqda yandırmaq üçün bəzir yağı istehsal olunan yer, bina" mənasındadır.

BƏZLİ AĞCAKƏND - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Gorus r-nunda) kənd adı [133]. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır.

BƏYBALI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

BƏYDAŞ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı [133]. XIX əsrdə Zəngəzur qəzasında yaşamış Sarallı tayfasının qışlaqlarından (Aqqaya, Almalıq, Ayadi, Baydaş, Qarakəsən, yaxud Turabxanlı, Gərd, Zor, Girmik, Mollalı, Sisnak, Fərəc, Xəştab və Ximic) biridir (103, 164). Əsli Baydaşdır. 1918-ci ildə kənd İrsəvəng kəndilə birləşdikdən və əhalisi Gödəkliyə köçdükdən [20, 136] sonra dağılmışdır.

BƏKDAŞ - Qafan r-nunda kənd adı. 1991-ci ildən Xordzor adlandırılmışdır.

BƏYDƏRƏ - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır. "Bəyə məxsus dərə" mənasındadır.

BƏYDİLİ - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 4]. Səlcuq oğuzlarının Bəydili tayfasının adını əks etdirir [16]. Türkiyədə Bəydili adlı 23 kənd vardır (34, 410-411).

BƏYZAMAN - Rəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [169, 270]. Bəyzaman kəndin əsasını qoymuş şəxsin (mülkədarın) adıdır.

BƏYKƏND - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 126]. 1945-ci ildə kənd ermənicə Mete Parni adlandırılmışdır. (Bax: Bekənd)

BƏYCİ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra adı çəkilmir. XIX əsrdə Şimali Qafqazda Stavropol quberniyasının Açikulak dairəsində Bayçitübə kənd adı ilə [133] mənaca eynidir.

BƏYCİAVAZLI - İrəvan xanlığının Karbibasar mahalında kənd adı [159]. XIX əsrin 30-cu illərindən azərbaycanlılar sıxışdırılıb çıxarılmış və 1945-ci ildə ermənicə Vostan adlandırılmışdır. Mənbədə Bəycivazlı kimidir [170, 23]. Yerli tələffüz forması: Bəyciyəzli.

BƏRCİVAZLI - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 75].

BƏGİN - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 28].

BƏLQƏR - İrəvan quberniyasının Novobayazid qəzasında (Abaran r-nunda) kənd adı [133]. 1950-ci ildə ermənicə Şenavan adlandırılmışdır. XVII əsrin əvvəllərinə aid mənbədə Bulxər kimidir [150, 365]. Qədim türk mənşəli Bulqar tayfasının adını əks etdirir. "Kitabi-Dədə Qorqud" eposunda Belqar tayfasının adı çəkilir [52, 13-18]. Bulqarlar indiki Ermənistan ərazisində er.əv. II əsrdə məskunlaşmışdılar [bax: 79].

BƏLƏK - Rəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [169, 361]. Mənbədə kənddə bir azərbaycanlı (Məhəmməd Hüseyn Xanəli oğlu) və iki xristian ailənin (xristian albanlar nəzərdə tutulmalıdır) yaşadığı göstərilir [32, 249]. XIX əsrə aid ədəbiyyatda Balk kimidir. Qədim türk dillərindəki balık - "şəhər" sözündəndir. (Bax: Balk)

BƏMƏTUM - İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 14].

BƏNDƏMURAD - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. XIX əsrdə rusların gəlib yerləşməsi ilə əlaqədar olaraq Aleksandrabad adlandırılmışdı. Əsli Bəndi-Muraddır (yəni "Murad bəndi"). Kənd Murad adlı şəxsin çay üzərində suvarma məqsədilə tikdirdiyi bənd ətrafında yaranmışdır.

BƏNDOVAN - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133]. Mənbədə Şirakel nahiyəsində Bəndəvan kimidir [23, 133]. XIX əsrin ortalarında ermənilər məskunlaşdıqdan sonra azərbaycanlılar sıxışdırılıb çıxarılmışdır. Azərbaycan dilində (əsli farsca) bənd - "axan suyun qarşısını kəsmək üçün tikilmiş sədd" sözündəndir. XIX əsrdə suvarma kanallarına nəzarət edən adam bənduvançı adlanırdı. Azərbaycandakı Bəndovan (Qaradağ r-nu) kənd adı ilə mənaca eynidir.

BƏNƏVŞƏPUŞT - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Meqri r-nunda) kənd adı [133]. 1918-ci ildə kəndin Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Bənəvşə (şəxs adı) və farsca puşta - "təpə" sözündəndir.

BƏRDİNLİ - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 40].

BƏRYABAD - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanda) kənd adı [133]. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. XIXI əsrdə Batum əyalətinin Artvin dairəsindəki Beri kənd xarabalığı, Zəngəzurdakı Pəri Çınqılı dağı, İrəvan quberniyasının Sürməli qəzasındakı Pərili dağı və Beri kəndi, həmin quberniyanın İrəvan qəzasındakı Pərili kəndi [133] toponimləri ilə mənaca eynidir. Əsli Beyrəbaddır. Monqolca bayra -"düşərgə", "gəliş yeri", "dayanacaq" (bax: Beri) və abad -"kənd" sözlərindən ibarətdir. (Bax: Beri)

BƏRGÜŞAD - İrəvan xanlığının Sərdarabad mahalında kənd adı [159]. Ucar r-nunda Bərgüşad kəndinin adı kimi, XVI əsrdə Qızılbaş tayfalarından olan Bərgüşad tayfasının adını əks etdirir. Orta əsrlərdə Zəngəzurda yaşamış Sofulu tayfası ilə bərabər mənşəcə Naxçıvanın Kənkər tayfa birləşməsinə mənsubdur (103, 12). Tayfa orta əsrlərdə Zəngəzurun Bərgüşad mahalının adı ilə adlanmışdır. Mahalın adı mənbələrdə ilk dəfə XIV əsrdən çəkilir. Bərgüşad həm də Qubadlı və Zəngilan rayonlarından axan çayın (yuxarı axınında Bazarçay) adıdır. Çay dağın adı ilə adlanmışdır. Dağın adı qədim türk dilində berik -"möhkəmləndirilmiş" [93, 95] və şat -"qayalı yüksəklik", "dağ beli", "çoxlu dərəsi olan alçaq sıra dağlar", "vadilərin birləşdiyi yer" [126, 608-609] sözlərindəndir. Ermənicə bəzi toponimlərdə şat (əsli farscadan olan şəhr - "ədalət", "mahal" sözü ilə bağlıdır) sözü ilə əlaqəsi yoxdur.

BƏRKLI - Talin r-nunda dağ adı (60, 70). Monqol dilindəki börük "parçalanmış daşlı yüksəklik" sözündəndir. (Bax: Bork) Toponimin türk dillərindəki bayrak -"bitkili qobu", "yarğan" sözündən (126, 65) ibarət ola bilməsi də mümkündür.

BƏSRİ - Rəvan əyalətinin Abaran nahiyəsində kənd adı. Digər adı Çayxıkənddir [169, 235].

BƏHƏNLƏR - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 135]. "Başqa adı Qoşayataq" (yenə orada).

BƏHLULQAYA - Ermənistanın Əzizbəyov r-nunda dağ zirvəsinin adı (60, 69). XX əsrin 30-cu illərində dağ ermənicə Balukar adlandırılmışdır.

BƏHLULKƏND - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 63].

BƏHLULKƏND - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhali qovulmuş və kənd dağıdılmışdır. Mənbədə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində Bəhlulkəndi kimidir [170, 64]. Bəhlul şəxs (mülkədar) adındandır.

BƏHRAM QIŞLAĞI - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 123].

BƏHRİLU - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır.

BƏXTİYAR - Quqark r-nunda kənd adı. XIX əsrin ortalarından sonra kəndin adı çəkilmir.

BİBİS - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (İcevan r-nunda) kənd adı [133]. 1978-ci ildə kənd ermənicə Bernaberd adlandırılmışdır. XIX əsrə aid rus dilli ədəbiyyatda Pipis kimidir.

BİDNİ - XVIII əsrin ortalarında İrəvan əyalətinin Göycə mahalında kənd adı [150, 361].

BİLƏK - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. 1828-1832-ci illərdə kənddə ermənilər də yerləşmiş və əhali qarışıq olmuşdur. 1918-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuşdur. 1728-ci ilə aid arxiv sənədində Bələk kimidir [170, 160]. XIX əsrdə Şimali Qafqazda Ter əyalətinin Qara Noqay dairəsindəki Bilax-Su toponimləri [133] ilə mənaca eynidir. Ehtimal ki, türk dillərindəki bələk, bəlik - "təpə" [143, IV, 1, 1609] sözündəndir.

BİNA QARAGƏDİK - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Gorus r-nunda) kənd adı [133]. 1918-ci ildə kənd dağıdılmışdır. "Qaragədik adlı yerdə binə (maldarların qışlaqda müvəqqəti yaşayış yeri)" mənasındadır.

BİNNƏT - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. XX əsrin əvvəllərində kənd dağılmışdır. Binnət (Bünyad) şəxs adındandır.

BİRƏK - İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [32, 311]. Mənbədə qeyd olunur ki, kənddə heç kim yaşamır, qonşu kənddən gələnlər əkib-biçirlər (yenə orada). Beyrək adının təhrifidir. (Bax: Beyrəkkənd)

BİRƏLİ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. 1948-ci ildə kəndin əhalisi Azərbaycana köçürülmüş və ermənilər yerləşdirilmişdir. 1968-ci ildə kənd ermənicə Lancsar adlandırılmışdır. XIX əsrdə Batum əyalətinin Artvin dairəsindəki, həmin əyalətin Batum dairəsindəki, Tiflis quberniyasının Qori qəzasındakı, Kutais quberniyasının Raçin qəzasındakı Birili toponimləri, Şimali Qafqazın Vladiqafqaz əyalətindəki Bira-Jenq, Baki quberniyasının Cavad qəzasındakı Bir-Alambek, Ter əyalətindəki Bir Ağqan, Zəngəzur qəzasındakı Birulu toponimləri [133, 39-43] ilə mənşəcə eynidir. Bu toponimlərin bəziləri Altay-türk dilərində birə - "kiçik çay" [126, 85] sözündəndir. Məsələn, Amur çayının Böyük Birə və Kiçik Birə qolları vardır (yenə orada). Naxçıvanda (Şərur r-nunda) bir çay Birəliçay adlanır. Lakin XIX əsrdə İrəvan quberniyasında Aşağı Pirili və Yuxarı Pirili, hazırda Azərbaycanda Böyük Pirəli və Kiçik Pirəli (Qəbələ r-nu) kənd adları, ehtimal ki, tayfa adından ibarətdir. 1593-ci ilə aid mənbədə "Gəncə sancağının Ahiştabad aranında" (yəni qışlağında) Peyrəlu tayfasının yaşaması qeyd olunmuşdur [167, 268].

BİNTƏ - Rəvan əyalətinin Zar nahiyəsində kənd adı [169, 236]. Azərbaycan dilindəki binə (qışlaqda maldarların yaşadığı yer) və farsca deh -"kənd" sözlərindəndir.

BİRİNCİ BAYANDUR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Gorus r-nunda) kənd adı [133, 34]. 1918-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Sonra kənd Vaqatur adlandırılmışdır. (Bax: Bayandur)

BİRİNCİLİ AYLANLI (BİRİNCİ AYLANLI) - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Gorus r-nunda) kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. (Bax: Aylanlı)

BİRİNCİ BƏHLUL - Talin r-nunda kənd. Əsl adı - Birinci Bəhlulkənd. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır (6, 159).

BİRİNCİ QULUBƏK - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd. 1919-cu ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır.

BİRİNCİ QAYA XARABA - Abovyan r-nunda xaraba kənd adı. (Bax: Qayaxaraba kəndi)

BİRİNCİ QILINC YATAQ - Talin r-nunda kənd adı. 1946-cı ildən Suser adlandırılmışdır.

BİRİNCİ ƏRHACI - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. 1919-cu ilin əvvəlində əhalisi qovulmuş və kənd dağıdılmışdır. Ərhacı toponimi türk dillərindəki arkaç -"dağın gün düşməyən hissəsi" sözünün təhrif formasıdır. (Bax: Ərkəci)

BİRİNCİ TƏZƏKƏND - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133,135]. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. XX əsrin əvvəllərində dağılmışdır.

BİRİNCİ ÇATQIRAN - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. 1832-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşmişdir. XX əsrin əvvəllərindən sonra adı çəkilmir. Yerli tələffüz forması - Cadqıran ( bax: Çatıqıran)

BİTLİ - İrəvan xanlığının Abaran mahalında kənd adı [159]. XIX əsrin əvvəllərindən sonra mənbələrdə bu kəndin adı çəkilmir. XIX əsrdə Kutais quberniyasındakı Bit-Nağalı (133, 39), Şimali Qafqazda Ter əyalətinin Nalçik dairəsindəki Bituktəpə (133, 39), Azərbaycanda Yelizavetpol quberniyasındakı (Tovuz r-nunda) Bit-Tılı (Bitdili) [133, 39] və Fitdaq (İsmayıllı r-nu), Zaqatala r-nundakı Bitdili çay adı və s. toponimlərlə eynidir. Mənası məlum deyil.

BİTLİCƏ - İrəvan quberniyasının İrəvan qəzasında (indi Artaşat r-nunda) kənd adı [133, 39]. 1945-ci ildə ermənicə Barteraşen adlandırılmışdır.

BİÇƏNƏK - İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [170, 164]. Erkən orta əsrlərdə Albaniyada və indiki Ermənistan ərazisində yaşamış qədim türk mənşəli Peçeneq tayfasının adını əks etdirir. (Bax: Becini)

BİCAN - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 43].

BIQLI - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [136, 33]. Mənbədə Bıyıqlı kimidir [169, 194]. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuşdur. Sonra əhalinin az hissəsi geri qayıtmışsa da, XX əsrin 20-ci illərinin sonlarında kənd dağılmışdır. XIX əsrdə Qars əyalətindəki Beqli Əhməd [133, 34] və Beqlu Hüseyn Saraçlu (yenə orada) kənd adları ilə mənaca eynidir. Ehtimal ki, əsli Biqali olmaq etibarilə əhalinin hərəkəti ilə əlaqədar olaraq Anadoludan gətirilmə addır. Türkiyədə Mərmərə dənizinə tökülən bir çay da Biqa (qədimdə Qranik, Makedoniyalı İsgəndərin İran ordusu ilə er. əv. 334-cü ildə ilk döyüşü bu çayın kənarında baş vermişdir) adlanır. Rusiyada Donetsk çayının hövzəsində bir çayın Bık adlandığı məlumdur. (Плетнева С.А. Половтсы. М. 1990, s. 162). 1364-cü ildə Türkiyə hökmdarı Sultan Muradın Anadoluda Biqa qalasını tutması məlumdur [160, 81]. Türk dillərindəki bəklik [pəklik] -"qala" [126, 432] sözünün fonetik formasıdır. Qeyd edilməlidir ki, Bağlı adlı kənd erkən orta əsrlərdə Albaniyada Artsak əyalətində vardı ("Alban tarixi", I kitab, 18-ci fəsil). (Bax: Beqlu dağ və Aşağı Bağlı)

BIX - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Qafan r-nunda) kənd adı [133, 46]. XIX əsrin əvvəllərindən kəndin əhalisi azərbaycanlılardan və ermənilərdən ibarət olmuşdur. 1918-ci ildə azərbaycanlılar qovulmuşlar. XIX əsrdə Şimali Qafqazın Ter əyalətindəki Bık dağı (133, 46) və Bıkova (əsli Bıkoba) kəndi (yenə orada), Azərbaycanda Qax r-nunda Zərnə kəndindəki Fıqlar obası toponimləri ilə mənşəcə eynidir. Ehtimal ki, türk dillərində buk "meşə sahəsi", "cəngəllik" [93, 131] sözündəndir. Altayda buk "çayın axarı boyu dağlar arası vadi" mənasındadır (70, 13).

BYURAKAN - İrəvan əyalətinin Karbi nahiyəsində Pireken kəndinin adı. Çox güman ki, Byurakan Burkan adından təhrifdir.

BOĞAZKƏSƏN - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 40]. Mənbədə adı İrəvan əyalətinin Şirakel nahiyəsində çəkilir [23, 126]. 1914-cü ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən gəlmiş ermənilər yerləşdirilmişdir. 1935-ci ildə kənd ermənicə Dzorakap adlandırılmışdır. Coğrafi adlarda boğaz sözü "insan boğazı formalı yer", "dar yer", "dar keçid" mənasını kəsb edir. Azərbaycandakı Qızılboğaz dağ adında (Laçın r-nu), Türkmənistanda Qaraboğazgöl və b. toponimlərdə boğaz sözü bu mənadadır. Toponimin "kəsən" hissəsi isə türk dillərində gəzən "dağ belində batıq yer", "gəz", kəsən isə "daş çıxarılan yer", "karxana" deməkdir. Cəbrayıl r-nunda Daşkəsən (hünd. 60 m olan bu təpədə keçmişdə daş karxanası vardı), Qəbələ r-nunda Daşkəsən (Qəbələ qalasından şərqdə, Yengicə kəndinin cənub-şərqində Camal meşəsində daş karxanası olan yer), Daşkəsən r-nun mərkəzi olan Daşkəsən (bu toponimdə daş "filiz" mənasındadır), Culfa r-nunda Kəsən-daş (Kiçik dağ) və b. toponimləri buna misal göstərmək olar. 1621-ci ilə aid mənbədə İrəvan əyalətində Mantaş-Kəsən [150, 27], 1727-ci ilə aid sənəddə isə Dağlıq Qarabağın Dizak mahalında Taşkəsən adlı kənd [171] adları qeyd olunur. Lakin başqa türk dillərində kəsən (əsli kəzən) həm də "çökək yer", "aşağı yer", "dağ belinin çuxuru", "aşırım", "dağ çökəki" mənalarındadır [126]. Sözün bu mənası, məsələn. Ağkəsən (Qax r-nu) dağ adında əksini tapmışdır. Qazaxıstanda Kara Kəzən, Qızıl Gəzən və s. toponimlər vardır [126]. XIX əsrdə Tiflis quberniyasının Borçalı qəzasındakı Boğazkəsən kəndinin (133, 40) və XIX əsrdə Qars əyalətinin Qars dairəsindəki Darboğaz [133, 75] dağının adları ilə mənaca eynidir. Bosfor boğazının Avropa sahilində Sultan I Bəyazid tərəfindən tikilmiş və həm də Gözəlcəhisar adlanmış Boğazkəsən qalasının adı ilə [160, 124] əlaqəsi yoxdur, ona görə ki, bu ad boğazdan hər hansı bir xarici gəminin qarşısını kəsməyin mümkün olması ilə bağlı idi.

BOĞAZKƏSƏN - İrəvan quberniyasının Aleksandropol qəzasında xaraba kənd adı [133, 40].

BOĞARLU - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı [133]. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Ehtimal ki, Baharlı adının təhrifidir. (Bax: Baharlı k.)

BOĞUTLU - Talin r-nunda kənd adı. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi Türkiyəyə köçdükdən sonra xaricdən gəlmə ermənilər yerləşmişdir (6, 159). 1950-ci ildə kənd ermənicə Arteni adlandırılmışdır. Əsli Buğutludur. Buğutlu dağının adındandır. (Bax: Böyük Buğutlu dağı)

BOZ ABDAL - İrəvan quberniyasının Aleksandropol qəzasında (indi Quqark r-nunda) kənd adı [133]. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşmişdir (6, 160). 1978-ci ildə kənd ermənicə Bartsum adlandırılmışdır. Yerli tələffüz forması Buzovdaldır. Təhrif

olunduğuna və guya pis səsləndiyinə görə yerli əhali içərisində Buzovdərə adlandırılmışdır. Boz Abdal dağının adındandır. (Bax: Boz Abdal dağı)

BOZ ABDAL (BOZ AVDAL) - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ silsiləsinin adı [133]. XIX əsrin ortalarında Tiflis quberniyasının Borçalı qəzasında da bir dağ Bezabdal adlanırdı [99, 367]. Yerli tələffüz forması Baz-Avdaldır. Azərbaycanda və Ermənistanda toponimlərdə "boz" sözü iki mənadadır. 1. Bir sıra coğrafi adlarda bu söz "bozqır yer", "torpağın süxuru boz rəngə çalan yer", "bitkisiz (yaxud seyrək bitkili)", "çılpaq, meşəsiz", "əkilməyən yer" bildirir. 2. Qaya və dağ adlarındakı "boz" sözü Altay dillərindəki bayts, bayz, bays (Azərbaycan dilində "baz" ) "sıldırım qaya", "dik qaya", "ətəyində, dar dərədə çay axan dağ" [126, 65] sözünün təhrifidir. Lakin çox hallarda boz sözü danışıqda "baz" , "bez", "vaz" formalarında tələffüz edildiyinə görə onun mənalarını müəyyən etmək olmur. "Sıldırım qaya" mənasında bu söz ilk dəfə Babəkin Bəzz qalasının (Cənubi Azərbaycanın Qaradağ mahalı) adından məlumdur. Şimali Azərbaycan ərazisində Teyvaz, Canbaz, Lehvaz, Kəpəz və b. toponimlərdə "baz" , "vaz" sözləri də məhz Bəzz (əsli Bayz) qalasının adındakı mənanı ifadə edir. Beləliklə, Boz Abdal dağının adı ya "Abdal qayası", ya da " boz süxurlu Abdal dağı" mənasındadır. Oronimdəki "Abdal" komponenti isə ya Abdal şəxs adından (yaxud dərviş mənasında), ya da hunların Abdal tayfasının adından ibarətdir. XIX əsrdə Gürcüstanın Borçalı qəzasındakı Boz Abdal (digər adı Todardağ) dağı, Qars əyalətinin Kaqızman dairəsindəki Vays-Kom kəndi və Vayz-Kom qışlağı [133, 47], Ordubad r-nundakı Nəsirvaz kəndi, Dağlıq Qarabağdakı Canbaz (qədim türk dillərində çanq -"sıldırım dağ yarğanı" "əlçatmazdaq" - 126, 626 sözündən) dağı və Mavas dağı, Qasım İsmayılov r-nundakı Sarvaztəpə dağı, Qubadlı r-nundakı Bezmintəpə dağı, Şamaxı r-nundakı Dostu-Bazı və Osman-Bazı dağ adları və s. bu sözdən yaranmışdır. Fərmanla bu dağın adı ermənicə Bazum adlandırılmışdır. Görünür ermənilər dağ adlarında "baz" sözünün türkcə olduğunu bilmirlər. (Bax: Darabaz)

BOZBURUN - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 41]. 1920-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Bozburun dağının adındandır.

BOZBURUN - İrəvan quberniyasının İrəvan qəzasında (Talin r-nunda) dağ adı [133]. Rəng bildirən boz (torpağın süxurunun boz rəngə çalması) və burun -"burun formalı dağ çıxıntısı" (Abşeronda Ağburun, Siyəzən r-nunda Qızılburun, Beyləqan r-nunda Daşburun və b.) sözlərindən ibarətdir.

BOZQALA - Amasiya r-nunda kənd adı. 1920-ci ildə kəndin Azərbaycan türklərindən ibarət əhalisi qovulmuşdur. 1922-ci ildə az hissəsi geri qayıtmışdır. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd dağılmışdır. 1946-cı ildə ləğv edilmişdir. Şindilər də adlanmışdır. Kənd yaxınlıqdakı "Boz qala"nın (başqa adı "Koroğlu qalası") adını əks etdirir. (6, 160).

BOZDAŞLI - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 125]. "Başqa adı Suluçay" (yenə orada).

BOZDOĞAN - İrəvan quberniyasının Aleksandropol qəzasında (indi Ani r-nunda) kənd adı [133, 41]. Mənbədə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı kimi qeyd olunmuşdur [23, 96]. 1850-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşmişlər. (6, 160) 1935-ci ildə kənd ermənicə Sarakap adlandırılmışdır. XIII əsrdə Anadolunun cənub-qərbində yaşamış türk mənşəli Bozdağan (Boztuqan) tayfasının [34, 202] adını əks etdirir. Orta əsrlərdə Anadolunun

Qoçhasar bölgəsində yaşayan bir el də Bozdoğan adlanırdı [34, 188]. Orta əsrlərdə Şərqi Türkiyədə Bozdoğan kəndi məlumdur [150, 117].

BOZDAR - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı (133, 41).

BOZYOXUŞ - İrəvan quberniyasının Aleksandropol qəzasında (indi Qukasyan r-nunda) kəndin adı [133, 41]. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi Türkiyəyə köçdükdən sonra (6, 160) Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi. 1946-cı ildə kənd ermənicə Müsaelyan adlandırılmışdır. Bozyoxuş aşırımının adındandır.

BOZYOXUŞ - İrəvan quberniyasının Novobayazid qəzasında çay adı [133, 41]. Türk dillərindəki bayz - "baz" "sıldırım qaya" və yoxuş sözlərindəndir.

BOZKAHA - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Gorus r-nunda) kənd adı. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Türk dillərindəki bayz "sıldırım qaya" (bax: Boz Abdal) və kaha (mağara, zağa) sözlərindən ibarətdir. "Mağara olan qaya" mənasındadır.

BOZKƏND - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 41] Bozikənd də adlanmışdır (133, 41). Digər adı Həmzəçiməndir. XIX əsrin ortalarında Azərbaycan türkləri kənddən qovulmuş və ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid məlumata görə əhalisi erməni idi. 1978-ci ildə kənd ermənicə Markohavit adlandırılmışdır. Türk dillərindəki bayz - (Azərbaycan dilində baz) "sıldırım qaya" (bax: Boz Abdal) və kənd sözlərindən ibarətdir. Azərbaycanda Osmanbazı və Dostubazı toponimləri ilə mənaca eynidir.

BOZKƏND - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) kənd adı [133]. Digər adı Dərəkənd. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1922-ci ildən sonra geri qayıtmış ailələr kəndə buraxılmamış, Aqudi və b. qonşu kəndlərdə yerləşdirilmişlər [20, 182]. Bozikənd (bax) toponimi ilə mənaca eynidir.

BOZKOSA - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 41]. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır.

BOZKÖY - Quqark rayonunda kənd adı. 1915-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və gəlmə ermənilər yerləşdirilmişdir (6,160). 1978-ci ildə ermənicə Markovit adlandırılmışdır. Əsli Buzaköydür. Monqol dilindəki busa -"maldar elin dayanacaq yeri", "düşərgə" və türkcə köy -"kənd" sözlərindən ibarətdir. Başqa adı Həmzəçəmən olmuşdur.

BOZ GÜNNÜB - Vedibasar mahalında dağ adı (bax:Günnüb).

BOZNƏLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı. Digər adı Ağkörpülü. "Basin eli" adından təhrifdir. Qədim türk mənşəli Basin tayfasının adını əsk etdirir. Ehtimal ki, əhalinin hərəkəti ilə əlaqədar olaraq Anadolunun Basin mahalında Akkörpü elinə mənsub ailələrin məskunlaşması nəticəsində yaranmışdır. (Bax: Başnəli)

BOZTƏPƏ - İrəvan quberniyasının İrəvan qəzasında dağın adı (133, 41).

BOZTƏPƏ - İrəvan quberniyasının Sürməli qəzasında kutan adı (133, 41).

BOZÇALI - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı (23,101). "Başqa adı - Babaxanlı" (yenə orada). Qızılbaşların Bozcalı tayfasının 24,193) adındandır. Orta əsrlərdə Anadolu bayatlarının bir qolu Bazca adlanırdı (34,175).

BONÇUQLU - İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [170, 101]. Abaran kəndindən yaranmış məntəqə adıdır.

BONCUQTƏPƏ - İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [23, 69].

BORDAĞI - Quqark r-nunda dağ adı.

BORALAN BULAQBAŞI KƏNDİ - Rəvan əyalətinin Aralıq nahiyəsində kənd adı. Digər adı - Xeyrəddin qışlağı [169, 268].

BORDİ - Mənbədə Rəvan əyalətinin Sisəcan nahiyəsində kənd adı [134, 162]. Buradi adının ermənicə yazılışıdır. Fars dilindəki bur - "əkilməmiş yer", "boşaldılmış yer" (145, 45) və deh -"kənd" sözlərindən ibarətdir.

BORK - İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [170, 17]. Monqolca beruk -"parçalanmış daşlı yüksəklik" sözündəndir.

BORNƏK - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 42]. Qızılbaşların Purnək tayfasının adındandır. Əsli Purnəkdir. Kənd mənşəcə ağqoyunluların Pürnək tayfasının məskunlaşması nəticəsində yaranmışdır.

BOSTANTALA - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (İcəvan r-nunda) kənd adı. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd ləğv edilmişdir.

BOSTANÇI - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı. Bostantala da adlanmışdır. 1878-ci ildə kəndin Azərbaycan türklərindən ibarət əhalisi olan qarapapaxlar Türkiyəyə köçdükdən sonra kənd dağılmışdır (6, 160). Türkiyədə orta əsrlərdə Sultan qvardiyasının əsgərinə "bostançı" deyilirdi [143, IV, 2, 1680]. Qədim türk tayfalarından birinin boston adlanması məlumdur (bax: 77). Azərbaycandakı Bostançı (Xaçmaz r-nu) kənd adı ilə mənşəcə eynidir.

BOŞADIR - İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [23, 59]. "Başqa adı Daylaqan- " (yenə orada).

BÖYRƏK - İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [23, 64]. Əsli Bəyrəkdir. (Bax: Beyrəkkənd)

BÖYRÜDƏLİK - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 78]. "Böyrü (böyür tərəfi) deşikli qaya" mənasındadır.

BÖYÜVƏ - İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [23, 46].

BÖYÜK ARMUDLU - Oktemberyan r-nunda kənd adı. 1946-cı ildə Tandzut adlandırılmışdır. (Bax: Armudlu kəndi)

BÖYÜKAĞA - İrəvan xanlığının Göycə mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır (yenə orada).

BÖYÜK AĞAMƏK QIŞLAĞI - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 122].

BÖYÜK AĞVİRAN - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı. "Cərəcur kəndinin yaxınlığında yerləşən Böyük Ağviran kəndi" mənasındadır [23, 36].

BÖYÜK AQDAĞ - Göycə bölgəsində Qelam (ermənicə Qeğam) dağ tirəsinin zirvələrindən birinin adı (60, 96). XX əsrin 30-cu illərində ermənicə Spitaksar adlandırılmışdır. Zirvəsi daim qarla örtülü olduğuna görə belə adlanmışdır.

BÖYÜK AYASLI - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [23, 49]. "Kəndin başqa adı Quşçudur" (yenə orada). (Bax Ayaslı)

BÖYÜK AYRIM - Tiflis quberniyasının Borçalı qəzasında (Tumanyan r-nunda) kənd adı. 1935-ci ildə Ayrım adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Orta əsrlərdə türk mənşəli Ayrum tayfasının adını əks etdirir. (Bax: Ayrım kəndi)

BÖYÜK ARIQVƏLİ - Artik r-nunda kənd adı. 1920-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş, Türkiyədən və İrandan gəlmə ermənilər yerləşdirilmişdir. 1935-ci ildə kənd ermənicə Mets Mantaş adlandırılmışdır. (Bax: Arıqvəli k.)

BÖYÜK BAĞ - Vedi r-nunun Cığındərə bölgəsində kənd adı. Oradakı Qaraqoyunlu kəndinə məxsus ərik bağlarının adını əks etdirir. Sonra Qayaqoyunlu kəndi ilə birləşmişdir.

BÖYÜK BEKƏND - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 36]. 1878-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1967-ci ildə kənd ermənicə Mets Parni adlandırılmışdır.

BÖYÜK BUĞUTLU - İrəvan quberniyasının İrəvan qəzasında Pəmbək dağ silsiləsinin bir zirvəsinin adı [133]. Qədim türk dillərində buğut "erkək geyik (maral)" deməkdir. Dağın adı da orada buğutların yaşaması ilə əlaqədardır.

BÖYÜK VEDİ - İrəvan xanlığının Vedibasar mahalında (Ararat r-nunda) kənd adı. 1590-cı ildən məlumdur [169, 214]. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və 1915-1918-ci illərdə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1922-ci ilədək Vedi r-nunun mərkəzi olmuşdur. 1946-cı ildə rayon Vedi, 1968-ci ildə Ararat adlandırılmışdır. 1951-ci ildə Vedinin azərbaycanlı ailələri Azərbaycana köçürülmüşdür. Ərəb dilindəki vadi sözündəndir. (Bax: Vedi-Ulya)

BÖYÜK QARABAĞ - İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı [23, 52]. Kəngər -peçeneqlərin Qarabağ tayfasının adını əks etdirir.

BÖYÜK QARAQOYUNLU - İrəvan quberniyasının Novobayazid qəzasında (Basarkeçər r-nunda) kənd adı (133, 115). Yellicə Qaraqoyunlu və Yengicə Qaraqoyunlu da adlanmışdır. 1919-cu ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuşdur. 1922-ci ildə onun az hissəsi geri qayıtmışdır. 1935-ci ildə kənd Əzizbəyov adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

BÖYÜK QARAKİLSƏ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 135]. "Qarabulaq kəndinin yaxınlığında yerləşən Böyük Qarakilsə kəndi" (yenə orada).

BÖYÜK QARAKİLSƏ - Quqark r-nunda kənd adı. 1935-ci ilə qədər Böyük Qarakilsə rayonunun, 1935-ci ildən Kirovakan rayonunun, sonra isə Quqark rayonunun mərkəzi olmuşdur. 1935-ci ildə Kirovakan, sonra Quqark adlandırılmışdır. 1828-1832-ci illərdə gəlmə ermənilər də kənddə yerləşdirildikdən sonra əhali qarışıq olmuşdur. 1886-cı ilə aid məlumatda kəndin əhalisinin türklərdən və ermənilərdən ibarət olması göstərilir [136]. 1988-ci ildə şəhərin azərbaycanlı əhalisi Azərbaycana qovulmuşdur. 1990-cı ildə məntəqə erməncə Vanadzor adlandırılmışdır.

BÖYÜK QIZILQULLA - Talin r-nunda kənd adı. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır [159].

BÖYÜK QULUBƏYLİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə yezid kürdləri yerləşdirilmişdir.

BÖYÜK QUŞÇU - İrəvan əyalətini Maku nahiyəsində kənd adı (23, 41).

BÖYÜK DAYƏ - İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı (23, 56).

BÖYÜK DƏVƏLİ - Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı [169, 220].

BÖYÜK DƏLLƏR - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. 1828-1832-ci illərdə kənddə ermənilər də məskunlaşmışdır. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi türklərdən və ermənilərdən ibarət idi [136]. XX əsrin 20-ci illərində Azərbaycan türkləri tədricən sıxışdırılmış və kənd erməncə Mets Sepasar adlandırılmışdır. XVII əsrin əvvəllərinə aid erməni mənbəyində Kotak (Dərəçiçək) mahalında Dolular kimi qeyd olunmuşdur [150, 362]. XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində Dəlilər [133], Azərbaycanda Ağsu, Saatlı və Şamaxı rayonlarında, Gürcüstanın Dmanisi r-nunda Dəllər kənd adları ilə mənşəcə eynidir. Teləlvalər adının fonetik formasıdır. Qədim türk mənşəli Tele tayfasının adını əsk etdirir [bax: 78]. V əsrdə 100 min alaçıqdan ibarət Tele tayfası İrtış çayını keçərək qərbə doğru hərəkət etmiş və Cənub-Şərqi Avropa çöllərinə gəlmişdir. Burada onlar qıpçaqlara qarışmışlar. Ehtimal ki, qıpçaqların tərkibində erkən orta əsrlərdə Cənubi Qafqaza gəlib məskunlaşmışlar (81, 78).

BÖYÜK DÜZ - Spitak r-nunda dağ adı.

BÖYÜK DÜZKƏND - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 132]. Səlcuq oğuzlarının Bükdüz tayfasının adındandır. Türkiyədə 23 Büqdüz adlı kənd vardır (34, 424).

BÖYÜK YENİCƏ - İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [170, 15].

BÖYÜK YOXUM - Abovyan r-nunda dağ adı.

BÖYÜK ZEYVƏ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1828-1832-ci illərdə kənddə xaricdən gəlmə ermənilər də yerləşdirilmişdir. 1918-ci illərdə kəndin azərbaycanlı əhalisi qovulmuşdur. 1978-ci ildə kənd erməncə Artaşen adlandırılmışdır. Ərəb dilindəki zaviyə "künc", "bucaq", "hücrə", "ibadətgah" sözündəndir.

BÖYÜK ƏRDƏNƏ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 134].

BÖYÜK KARBİ - İrəvan xanlığının mahallarından biri olmuş Karbibasarın mərkəzinin adı. 1828-1832-ci illərdə kəndin Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir [159]. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi [136]. Hələ orta əsrlərdə bu kənd digər məntəqə yarandığına görə (bax: Karbi) Böyük Karbi adlandırılmışdır. İndiki Ermənistan ərazisindəki qədim türk mənşəli toponimlərdəndir. Orta əsr türk, fars və erməni mənbələrində toponimin Qərbi, Gərbi, Karbi və Karpi formaları qeyd olunmuşdur. Karpi (yaxud Karbi) əvvəlcə oradakı qədim qalanın adıdır. Mənbədə 1386-cı ilə aid hadisələrdə "Qərbi (Gərbi) qalası"nın adı çəkilir və onun yiyəsinin türk Şeyx Həsən olduğu göstərilir [33, 7]. XIII əsrə aid mənbədə Ərməniyə ilə yanaşı Karbi mahalının da adı çəkilmişdir [144, 270]. 1621-ci ilə aid sənəddə Karpi kimidir [135, 166]. XVII əsr erməni müəllifi Arakel Təbrizli toponimi Karbi formasında yazmışdır [57, 89]. XIX əsrdə Tiflis quberniyasının Qori qəzasındakı Karbi kənd adı (Gürcüstanda Karbi kənd adı 1348-ci ildən məlumdur - bax: Qruzinskie dokumentı IX-XV vv. M. 1882. s. 86), həmin quberniyanın Axalsix qəzasındakı Qarpiçay, Dağıstan əyalətinin Qaytaq-Tabasaran dairəsindəki Karbu kənd adı, Stavropol əyalətindəki Karpay-Atı - Suba kənd adı, Dağıstan əyalətinin Teymurxan-Şura dairəsindəki Karpey qışlaq adı [133, 122] və Azərbaycanın Zaqatala dairəsindəki Mülküm-Karpi kənd (133, 181) toponimləri ilə dil mənsubiyyətinə və mənasına görə eynidir. Erməni tarixçilərindən birinin yazdığına görə Karbinin ermənicə adı Araqatson olmuşdur [135, 90]. Bütün bunlar göstərir ki, toponim türk mənşəlidir. Bəzi türk dillərində (o cümlədən çuvaş dilində) kar, qar "möhkəmləndirilmiş yer", "qala" mənasındadır [126, 254]. Ehtimal ki, Karbi və Parbi toponimlərinin sonluğunu təşkil edən bi (pi) sözü "məskən" mənasına malik olmaqla (qədim türk dillərində ep - "dayanacaq" mənasındadır - 141, I, 513-514), Quba rayonundakı Yerfi, XIX əsrdə Yelizavetpol qəzasındakı Bozfi [133] adlarındakı "fi" sözü ilə eynidir. XIX əsrdə İrəvan quberniyasında və Gürcüstanda mövcud olmuş Körpəli və Körpülü kənd adları (133, 130) da mənşəcə məhz "Karpili" adının təhriflərindən ibarətdir.

BÖYÜK KƏPƏNƏK - Ani r-nunda kənd adı. 1918-ci ildə kəndin Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1935-ci ildə kənd ermənicə Musaelyan adlandırılmışdır. Qədim türk mənşəli peçeneqlərin Kəpənək tayfasının adındandır.

BÖYÜK KƏPƏNƏKÇİ - Qukasyan r-nunda kənd adı. 1878-ci ildə kəndin Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. (6, 161) 1935-ci ildə kənd Mets-Mantaş adlandırılmışdır. Peçeneqlərin Kapan tayfasının adındandır. (Bax:Kəpənək)

BÖYÜK KƏTİ - Axuryan r-nunda kənd adı. 1946-cı ildə Axuryan adlandırılmışdır. Yerli əhali içərisində Keyti də adlanmışdır. XIX əsrdə İrəvan quberniyasının Novobayazid qəzasındakı Keyti (digər adı Şorçala) kəndi, həmin qəzadakı və Azərbaycanın Cavanşir qəzasındakı Kətidağ, Qars əyalətinin Qağızman dairəsindəki Kətitəpə, Batum əyalətinin Batum dairəsindəki Kədikənd, Kutaisi quberniyasının Şoropan qəzasındakı Kedis-Tava dağı, həmin quberniyanın Raçin qəzasındakı Kedis-Ubani kəndi, Dağıstan əyalətinin Andi dairəsindəki Keydi kənd adları [133] ilə mənaca eynidir. (Bax: Keyti)

BÖYÜK KÜZNÜT - XVIII əsrin ortalarında İrəvan əyalətinin ermənicə Qeqarkuni (indiki Göycə mahalı) nahiyəsində kənd adı [150, 360]. Türk dillərindəki küz - "payız otlağı" sözündəndir.

BÖYÜK GİLAN - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [23, 102].

BÖYÜK GİLYANAR - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 62]. Yerli tələffüz forması Gülünardır. 1949-cu ildə Azərbaycan türklərindən ibarət əhalisi Azərbaycana köçürülmüş və yerinə Ermənistanın Martuni r-nun Sarnaxpur kəndindən ermənilər yerləşdirilmişdir [20, 222]. (Bax: Gilyanar)

BÖYÜK MƏZRƏ - İrəvan quberniyası Novobayazid qəzasında (sonra Basarkeçər rayonunda) kənd adı [136, 34]. 1915-1918-ci illərdə Türkiyədən gəlmə ermənilər də kənddə yerləşdikdən sonra əhali qarışıq olmuşdur. 1988-ci ildə Azərbaycanlı əhalisi qovulmuşdur. Digər adı - Qalaağalı [20, 280]. Qalaağalı kəndinə məxsus məzrədə (əkin yerində) XIX əsrin əvvəllərində yaranmışdır. XIX əsrin ortalarında kəndin maldarlarının "Ağdaş" və "Hacı Qurban dərəsi" adlı yaylaq yerləri vardı [136, 34].

BÖYÜK MƏSUMLU - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [23, 49].

BÖYÜK ORTAKƏNDİ - İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [23, 150]. "Başqa adı Ortagir" (yenə orada).

BÖYÜK ÖRDƏK - İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı [23, 55].

BÖYÜK ÖRDƏKLİ - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. Mənbədə Böyük Ördək kimidir [23, 55]. XIX əsrin ortalarından sonra mənbələrdə çəkilmir.

BÖYÜK SARIYAL - Axuryan r-nunda kənd adı. 1940-cı ildə kənd ermənicə Mets Sarnar adlandırılmışdır. Azərbaycan dilindəki rəng bildirən sarı və yal (dağın yalı) sözlərindən ibarətdir.

BÖYÜK SARIYAR - İrəvan quberniyasının Aleksandropol qəzsında (indi Qukasyan r-nunda) kənd adı (133, 219). Azərbaycan dilindəki rəng bildirən sarı və yar -"yarğan" sözlərindən ibarətdir. (Bax: Sarıyar)

BÖYÜK TƏPƏKÖY - İrəvan quberniyasının Dərələyəz qəzasında (Amasiya r-nunda) kənd adı [133]. 1950-ci ildə Kiçik Təpəköy kəndi ilə birləşmişdir. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. 1990-cı ildə kənd ermənicə Daştavayr adlandırıl-mışdır. Kənd 2027 m. yüksəklikdə dağlıq ərazidə yerləşir. Azərbaycan dilindəki təpə və osmanlı türkü dilindəki köy - "kənd" sözlərindən ibarətdir.

BÖYÜK TÜKLÜTƏPƏ - Noemberyan r-nunda təpə adı.

BÖYÜK XANA - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 40].

BÖYÜK XIRDAKAR - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 122]. Azərbaycan dilindəki xırda (kiçik, balaca) və ərəbcə qar -"mağara", "zağa" ya da türk dillərindəki qar -"alınmaz qaya"(108, 107) sözlərindən ibarətdir. Qeyd etmək lazımdır ki, Azərbaycanda və Ermənistanda bir sıra dağ adlarının ikinci hissəsi "qar", "kar" sözündən ibarətdir. Erməni tədqiqatçıları bu sözü ermənicə kar -"daş", "qəmbər" sözü hesab edərək bu dağ adlarını guya keçmişdə ermənilərin oralarda yaşadıqlarını göstərən fakt kimi götürürlər. Lakin bu tamamilə səhv fikirdir. "Qar" sözü həm də Şərqi İran dillərində (əfqan, tacik, yaqnab dillərində) "dağ" mənasındadır. Ola bilsin ki, türk tayfalarının qərbə hərəkəti ilə bu söz də gətirilmişdir. Azərbaycandakı Babaqar (Tovuz r-nu), Buzduqqar (Kəlbəcər r-nu), Keçələkar (Kəlbəcər r-nu), Qoşnakar (Gədəbəy r-nu), Çimqar (Xanlar r-nu), Hinqar (İsmayıllı r-nu), Çoxqar (Şəki r-nu), Keşunqar (Oğuz r-nu) və b. dağ adlarının birinci hissəsi tamamilə türkcədir (bax: 79, 100). Qazaxıstanda Kalkaqar, Sunkar (108, 115, 198) və b. dağ adları da bu sıraya aiddir. (Bax: Babakar)

BÖYÜK HAXİS - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd dağılmışdır. (Bax: Axıs)

BÖYÜK CAMIŞLİ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 80]. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi Türkiyəyə köçdükdən sonra (6, 160) Türkiyədən gəlmə yezid kürdləri orada yerləşdirilmişdir. 1938-ci ildə kənd ermənicə Araqats adlandırılmışdır. Ehtimal ki, gətirilmə addır. XIX əsrdə Qars əyalətinin Qars dairəsində Camışlı və həmin əyalətin Kaqızman dairəsində Camış-Taş kəndləri vardı [133]. (Bax: Camışlı)

BÖYÜK CƏMŞİDLİ - Ararat r-nunda kənd adı. 1828-1832-ci illərdə kənddə ermənilər də yerləşdikdən sonra əhali qarışıq yaşamışdır [159]. XX əsrin 30-cu illərində kənd Cəmşidli-Mets adlandırılmışdır.

BÖYÜK ŞƏHRİYAR - Oktemberyan r-nunda kənd adı. 1828-1830-cu illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid məlumata görə əhalisi erməni idi. XX əsrin 30-cu illərində kənd Şəhriyar-Mets, 1950-ci ildə Nalbandyan adlandırılmışdır. (Bax: Şəhriyar)

BÖYÜK ŞİŞTƏPƏ - Qızılqoç (Qukasyan) r-nunda kənd adı. 1921-ci ildə kəndin əhalisi Türkiyəyə köçdükdən sonra ermənilər yerləşdirilmişdir. 1946-cı ildə Mets Sepasar adlandırılmışdır (6, 161).

BÖYÜK ŞÖLLÜ - Zəngibasar (Masis) r-nunda kənd adı. 1988-ci ildə azərbaycanlı əhalisi qovulmuşdur.

BÖRKÜDƏLİK - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 26]. Mənbədə onun Xəlil adlı şəxsə (mülkədara) məxsus olması göstərilir (yenə orada). Əsli "Bögrü (böyrü) dəlik"dir. Kənd yaxınlıqdakı təbii deşikli qayanın adı ilə adlanmışdır.

BUĞADAQ - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı [133, 43]. "Buğa (erkək maral) yaşayan dağ" mənasındadır. Azərbaycandakı Buğadaş (Şuşa r-nu) dağının adı ilə mənaca eynidir. (Bax: Böyük Buğutlu)

BUĞAVAR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Meğri r-nunda) kənd adı (133, 43). 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Buğa (erkək maral) sözündəndir.

BUĞAKAR - Yelizavetpol quberniyasının Zəngəzur qəzasında (Meğri r-nunda) qışlaq adı [133]. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar kənd dağılmışdır [20, 170]. Azərbaycan dilindəki buğa və qar -"alınmız (sıldırım) qaya" (108, 107)" sözlərindən ibarətdir. (Bax: Babakar və Böyük Xırdakar k.)

BUĞAMLU - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 43]. XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir. Ehtimal ki, tayfa adıdır.

BUĞATƏPƏ - Şirak dağ belinin bir zirvəsinin adı (60, 101). XX əsrin 30 -cu illərində dağ ermənicə Sulasar adlandırılmışdır. Dağın adı orada keçmişdə buğa maralın olması ilə əlaqədardır.

BUĞACIQ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı [133]. 1906-cı ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Orta əsrlərdə Suriyada

(Şamda) Buka mahalında [72] yaşamış Şamlı tayfasının gətirdiyi addır. Şabadın (bax) kəndindən yaranmış obadır [103, 170].

BUĞDATƏPƏ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133]. XIX əsrin 30-cu illərində Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. XVII əsrin əvvəllərində Göycə gölünün içərisindəki Qaravəng (ermənicə Sevvank) monastırına məxsus kəndlərdən olmuşdur [150, 361].

BUĞDATƏPƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133, 41]. Göycə bölgəsində Qelam (Qeğam) dağ belinin şimal yamacında zirvədir. 1728-ci ilə aid mənbədə "Buğda-i-təpə" kimi çəkilir [170, 12]. Gədəbəy r-nundakı Buğdadağ-Su toponimi ilə mənaca eynidir.

BUĞDAŞIN - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 41]. 1947-ci ildə kənd ermənicə Baqravan adlandırılmışdır. Tiflis quberniyasının Axalkalaki qəzasında Buğdaşın (göl adı) [133] toponimi ilə mənaca eynidir.

BUDAQBƏY QIŞLAĞI - İrəvan əyalətinin Karbi nahiyəsində qışlaq adı [23, 85]. Tərnəqut kəndinə məxsus qışlağın adıdır (yenə orada).

BUDAR - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 120].

BUZAVƏND - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [23, 49]. "Başqa adı Əbdülhacı" (yenə orada).

BUZAVƏND AXUNDLU - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. Əsli Bozavənd-Axundludur. XIX əsrin ortalarından sonra adı çəkilmir. Mənbədə Qarnibasarda yalnız Bozavənd-Zirzir (Abdulhacı) kəndinin adı qeyd olunur [170, 9]. Qızılbaşların Bozavənd tayfasının adını əks etdirir. Azərbaycandakı Bozavənd kəndinin adı ilə mənşəcə eynidir. "Axunda (İrəvan xanlığının axunduna) məxsus Bozavənd ailələri" mənasındadır.

BUZAVƏND QULAMƏLİ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. Əsli Bozavənd Qulaməli. XIX əsrin ortalarından sonra adı çəkilmir. "Qulaməliyə (mülkədar adıdır) məxsus Bozavənd ailələri" mənasındadır.

BUZAVƏND KƏBİR - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [170, 79]. Mənbədə kəndin həm də Ağcaqışlaq adlandığı qeyd olunur (yenə orada).

BUZAVƏND GÖDƏK - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [170, 81]. Mənbədə kəndin həm də İnas adlandığı qeyd olunur (yenə orada).

BUZXANA - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [170, 79]. Mənbədə kəndin həm də Ağcaqışlaq adlandığı qeyd olunur (yenə orada). Ehtimal ki, monqol dilindəki busa -"dayanacaq" "düşərgə" sözündəndir.

BULAQBAŞI - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1590-cı ildən məlumdur [167, 270]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır.

BULAQLAR - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında (indiki Əzizbəyov (Vayk) r-nunda) xaraba kənd adı (133, 45).

BULAQLAR - İrəvan quberniyasının Şərur Dərələyəz qəzasında (indiki Əzizbəyov (Vayk) r-nunda) kənd adı [133, 45]. Digər adı Bolbulaqdır. Həqiqətən çoxlu bulağı olan yerdir. 1949-cu ildə əhalisi Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir.

BULAQLI - Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 192].

BULAQLI - Masis r-nunda kənd adı. Digər adı Həbilkənddir. 1940-cı ildə Kalinin adlandırılmışdır.

BULXEYİR - Abaran r-nunda kənd adı. 1590-cı ildən məlumdur [169, 237]. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq Azərbaycan türklərindən ibarət əhalisi sıxışdırılıb çıxarılmış və ermənilər yerləşdirilmişdir. 1950-ci ildə kənd ermənicə Şenavan adlandırılmışdır. 1728-ci ilə aid mənbədə Abdulxeyir kimidir [170, 11]. Abdul (Əbil) şəxs adından və kair (xair) "yumşaq (boş) torpaq", "çaybasar (çaylaq)" [126, 241] sözündən ibarətdir. Altayda Tuva dilində xayır "şoran yer", "mal-qaranın sürüldüyü şoranlıq" deməkdir (Словарь географических терминов Западной Сибири. Л., 1970, s.76). Gürcüstanda XIX əsrdə Kutaisi quberniyasının Ozurqet qəzasında Buluxauri (133, 45) kəndinin, Azərbaycanda Ağbətxeyir (rəng bildirən ağ, və türk dilərindəki bət - "üz", "səth" və kair sözlərindən) dağınan adları ilə mənaca eynidir. (Bax: Əmirxeyir)

BUNDUK - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133, 45].

BUNUNİS - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kəndin adı. İlk dəfə 1468-ci ildən məlumdur [134, 168]. Mənbədə Pulnis kimi qeyd olunmuşdur [103, 164]. Görünür ki, bunlar müxtəlif kənd adlarıdır. Bununis fars dilindəki bune - "ev", "bina", "yer" (145, 42) və ərəbcə naus (əsli yunanca - naos) "məbəd", Sasanilər dövründə zərdüşt ölülərinin qəbirləri üzərində tikilən tikinti" (V.V. Bartold, II, I, s. 212) sözlərindən ibarətdir.

BUNUT - İrəvan xanlığının Vedibasar mahalında kənd adı. Digər adı Qaratorpaqdır. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Azərbaycanda Bunut kənd adı ilə mənşəcə eynidir.

BUNUT - Vedi r-nunun Vağındərə bölgəsində, Vedi çayının mənbəyində, Topdağın ətəyində kənd adı. Yerli əhali içərisində Bunut Qaratorpaq da adlanmışdır. Azərbaycanın Qəbələ r-nundakı Bunut kəndinin adı ilə eynidir. 1918-1920-ci illərdə ermənilər tərəfindən dağıdılmışdır.

BURDALAQ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. 1728-ci ilə aid mənbədən məlumdur [170, 87]. Ehtimal ki, Burdalan təhrifdir. Türkmənlərdə Yersari türk tayfasının üç qolundan (Burdalan, Kərki və Çarcu) [58, 140] biri olan Burdalan elinin adındandır.

BURDUN - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır (yenə orada). Türk dillərindəki bor, bur -"boz" və ton - "təpə" [126, 557] sözlərindən ibarətdir.

BURNƏK - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 42]. Əsli Purnəkdir. XVI əsrdə Qızılbaş tayfalarından birinin adıdır. Mənşəcə ağqoyunluların Purnək tayfasının (34, 160) adındandır. (Bax: Bornək)

BURUNQOT - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan rayonunda) kənd adı. XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir. Azərbaycan dilindəki burun (dağ burnu) və qot (qut) sözlərindən ibarətdir. Türk dillərində qut "qala"(L.Z.Budaqov. II, 144) ya da monqolca xot "düşərgə", "dayanacaq" sözlərindəndir. Toponimin "qut" komponenti Azərbaycanda və Ermənistanda çoxlu coğrafi adlarda əksini tapmışdır. Dağlıq Qarabağda Ataqut (1727-ci ildən məlumdur), Kürdəmir r-nunda Ataqut, Ağdərə r-nunda Tuq-Kot (ermənilər 1828-ci ildə orada yerləşdikdən sonra Txkot adlandırmışlar) və Xoşaqut kəndləri vardır. Orta əsrlərdə Şərqi Anadoludakı Xut əyalətinin (onun adı ilə Laçın r-nunda Xut-Zabuq kəndi vardır) adı da bu sıraya aiddir.

BURUNLU - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Toponim yerin coğrafi quruluşu (orada dağ burnunun olması) ilə əlaqədardır.

BURKAN - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 40]. "Əhalisi Dümbülü camaatındandır" (yenə orada).

BURCƏLİLƏR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Burcəlilər kəndin əsasını qoymuş nəslin adıdır.

BUCAQ - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 93].

BÜKÜLHƏSƏN - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 41).

BÜLBÜLABAD - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 7]. Mənbədə kəndin Xəlfəkəndindən yaranmış məntəqə olması qeyd edilir (yenə orada).

BÜLBÜLÖLƏN - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. Digər qədim adı Kahadır [20, 354]. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Əsli Bülbül Olandır. "Bülbül olan (yer)" mənasındadır. İranda Bülbülabad, Kəlate-bolbol kənd adları məlumdur [145, 42]. Azərbaycanda və Ermənistanda bir sıra türk mənşəli toponimlərdə "ölən" (ölmək felindən), "olan" (olmaq felindən) və "alan" (almaq felindən) sözləri danışıqda bəzi hallarda təhrifə uğramışdır. Məsələn, Dəvəölən (Dağlıq Qarabağda Çaqazur kəndinin şimalında hünd. 1659 m. olan dağ) adında həqiqətən ölən (heyvanın qayadan yıxılıb ölməsi) sözü olduğu halda, Gülalan (Xaçmaz r-nu) kənd adı isə "Göl olan (yer)", Naftalan "neft olan (yer)", Qoçalan çay adı (Qəbələ r-nu) "Qoçu alıb aparan (çay)" mənalarındadır. (Bax: Təkəolan)

BÜLLUR - İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [23, 67].

VAQUDİ - Yelizavetpol quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı (133, 47). 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Lor, Axlatyan, Bukunis kəndlərindən ermənilər oraya köçürülmüşdür [20, 182]. Sonra əhali qarışıq yaşamışdır. 1988-ci ildə kəndin azərbaycanlılardan ibarət hissəsi Azərbaycana qovulmuşdur. Kəndin digər adı Böyükdüz olmuşdur ki, bu da Səlcuq oğuzlarının Bükdüz tayfasının adını əks etdirir. 1468-ci ilə aid mənbədə Vaqadi kimidir [134, 167]. Orta əsrlərdə Albaniyanın qədim Tatev monastırına mənsub kənd olmuşdur. Ehtimal ki, İran dillərindəki baqa -"od allahı" və deh -"kənd" sözlərindən ibarət olmaqla "Odpərəstlər kəndi" mənasındadır.

VAZQIR - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 3]. Əsli Bozqırdır. Azərbaycan dilindəki rəng bildirən boz və türk dillərindəki qır - "alçaq", "yüksəklik" sözlərindən ibarətdir.

VANEVAN - İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı (23, 61).

VARQA - İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [23, 150]. "Başqa adı Talıbabad" (yenə orada). (Bax: Vərqa)

VARDENİK - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133]. 1949-cu ildə əhalisi Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. Fars dilindəki varde -"qala", "qüllə" (125, 584) sözündəndir.

VARZOR - İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı [23, 115]. Mənbədə kəndin Mustafa Bəkir oğluna məxsus olduğu göstərilir (yenə orada).

VARZİNƏK MƏZRƏSİ - İrəvan əyalətinin Dərəçiçək nahiyəsində məzrə (əkin yeri) adı [170, 12].

VARDENİS - İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı [170, 12]. "Çiçəkli" adının ermənicə tərcüməsidir.

VARTAYUB - İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [23, 59].

VARTANİS - İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 14]. XIX əsrin ortalarına aid məlumata görə (Сборник Сведений о Кавказе. Том VII, s.247) bu kənddə kürd mənşəli Milli tayfasına mənsub ailələr yaşayırdı.

VARTANOL - İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [32, 297]. "Vartan-oğul" adından təhrifdir.

VARTANAZOR - Yelizavetpol Gəncə quberniyasının Zəngəzur qəzasında (Meğri r-nunda) kənd adı [133, 49]. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Digər adı Ləkdir. Orta əsrlərdə Anadoludan gəlmiş türk mənşəli Lək tayfasının "Vartanazor" adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır [103, 150].

VARTAGÜL - İrəvan əyalətinin Dərələyəz mahalında kənd adı. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağılmışdır [159]. Azərbaycan dilindəki var -"yurd yeri" və türk dillərindəki taqil - "gilli, bitkisiz düzən yer" [126, 540-541] sözlərindən ibarətdir.

VARTANLI - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 49]. 1830-cu ildə Türkiyədən gəlmə ermənilər də kənddə yerləşdikdən sonra əhali qarışıq yaşamışdır. 1918-ci ildə kəndin Qarapapaq tayfasından ibarət əhalisi qovulmuşdur. 1950-ci ildə qonşu Vartanes erməni kəndi ilə birləşdirilmişdir [20, 315]. 1953-cü ildə kənd ermənicə Xindzrut, 1955-ci ildə Şaumyan adlandırılmışdır. Müq. et: XIX əsrdə Kars əyalətində Vartanlı, Azərbaycanda Oğuz rayonunda Vardanlı (133, 49).

VARTNAV - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 49)]. XIX əsrin sonlarından sonra adı çəkilmir. Dağıstan əyalətinin Qaytaq Tabasaran dairsində Varta-Til (133, 49) toponimində də olduğu kimi, fars dilindəki bərd -"daş" [145, 156] və nov sözlərindəndir.

VAHRAVAR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Meğri r-nunda) kənd adı [133]. Vahravar çayının adı ilə adlanmışdır. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd ləğv edilmişdir.

VA-HÜSEYNİ - İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 14].

VEDİ ULYA - İrəvan xanlığının Vedibasar mahalında kənd adı. Ərəbcə ulya "yuxarı" sözündən və Vedi toponimindən ibarətdir. XVII əsrin əvvəllərinə aid erməni mənbəyində Veti [91, 16]. 1728-ci ilə aid türk mənbəyində Vadi Kəbir və Vadi Saqir [170, 10] kimidir. XIX əsrdə Kutaisi quberniyasının Leçxum qəzasındakı Vedi kəndinin [133] adı ilə mənşəcə eynidir. (Bax: Böyük Vedi)

VEDİ SUFLA - İrəvan xanlığının Vedibasar mahalında kənd adı. Ərəb dilindəki sufla -"aşağı" və Vedi toponimindən ibarətdir.

VEDİÇAY - İrəvan quberniyasının İrəvan qəzasında kiçik çay adı [133, 50]. Vedi mahalının adındandır.

VEDİÇAY – Vedi r-nun ərazisindən axan çay. Digər adı Çığın sudur. Ərazisindən axdığı kəndlərin adları ilə Kalançay, Fərhadçay və Koravançay da adlanır.

VEDİBƏYLİ - Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 63].

VEYSƏLLU - İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 13]. Mənbədə kənddə cəmi üç müsəlman (azərbaycanlı) ailəsinin yaşadığı qeyd olunmuşdur [32, 267].

VERİNLİ - İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [23, 54].

VERS - XIX əsrdə Dərələyəz və Göycə mahalları arasında dağ adı (hünd. 3522 m.). (Aşıq Alının bir qoşmasından: "Əyricə, Versdağı, Xanget buxarı, Ağ sürülər Sarıyaldan yuxarı") danışıqda "y" səsinin "r" səsinə keçməsi ilə əlaqədar olaraq qədim türk dillərindəki "sıldırım", "ətəyindən çay axan dağ" mənasında vays sözündəndir. (Bax: Boz Abdal)

VƏZİRABAD - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində məzrə adı [170, 3]. Həmin mənbəyə görə: "Qışlaqi-Pirverdi kəndinə məxsusdur" (yenə orada).

VƏLƏDLİ - Rəvan əyalətinin Abaran nahiyəsində kənd adı [169, 238].

VƏLİAĞALI - Martuni r-nunda kənd adı. 1829-1830-cu illərdə Türkiyədən gəlmə ermənilər də yerləşmiş və ondan sonra kəndin əhalisi qarışıq olmuşdur [159]. 1918-ci ildə Azərbaycan türklərinin çoxu qovulmuşdur. 1946-cı ildə kənd ermənicə Dzoraquyq adlandırılmışdır. 1948-1949-cu illərdə azərbaycanlı əhalisi köçürülmüşdür. Ehtimal ki, Anadoludan gətirilmə addır. XIX əsrdə Qars əyalətinin Qars dairəsindəki Vəliağa adlı kənd xarabalığı və Vəliağa adlı çay vardı [133, 50]. Vəliağa mülkədar adıdır [150, 190]. XV-XVI əsrlərdə İrəvan əyalətində Məhəmməd ağa, Pirvəli ağa və Əhməd ağa mülkədar adları məlumdur [135, 157].

VƏLİDAĞ - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı [133, 50]. Ehtimal ki, ərəbcə vali (hakim) sözündəndir. Azərbaycanın Yardımlı r-nun Vəlidağ və Şərur r-nunun Vəlidağ dağ adları [2, 54] ilə mənaca eynidir.

VƏLİYASI - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra adı çəkilmir. Azərbaycan dilindəki beli (dağın beli) və yastı (yayla, Azərbaycanın Yasamal toponimində olduğu kimi) sözlərindən ibarətdir. Kənd "Vəliyası" yerinin adı ilə adlanmışdır.

VƏLİYASI - İrəvan xanlığının Sürməli mahalında kənd adı [159].

VƏLİKƏND - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (Şəmşədil r-nunda) kənd adı. 1939-cu ildə kənd ermənicə Tsaxkavan adlandırılmışdır. Vəli şəxs adından və kənd sözündən ibarətdir.

VƏLİKƏND - İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [23, 61].

VƏLİGAH - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (Şəmşədil r-nunda) kənd adı. 1939-cu ildə kənd ermənicə Tsaxkaşen adlandırılmışdır. Azərbaycan dilindəki beli (dağın beli) və kaha (mağara, zaha) sözlərindən ibarətdir. Həqiqətən də kəndin yaxınlığında qayada mağara vardır.

VƏLİGENALU - İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [170, 15].

VƏLİSURKİ - İrəvan quberniyasının İrəvan qəzasında qışlaq adı [133, 50]. Azərbaycan dilindəki beli (dağın beli) və türk dillərindəki soruq - "şoran", "duzlaq", "dağlarda şor göl" [126, 517] sözlərindən ibarətdir. Soruq (suruq) sözü Azərbaycanda Türyançay dərəsi ilə Göyçay dərəsi arasındakı Surxayxan dağının zirvəsində, Ərəb-Kükəl kəndindən şimalda, Şiştəpədə yerləşən Surxab (soruq və qədim türkcə ep - "dayanacaq" - 147, 1, 513-514 - sözlərindən) qalasının (Musa Kalankatlının "Alban tarixi"ndə ermənicə təhrif forması Sirxarn) və Qafan r-nundakı Sirkə-Tas kənd adı ilə mənaca eynidir. (Bax: Əli Sürgü k. )

VƏLİXAN QIŞLAĞI - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 122].

VƏLİCAN - İrəvan xanlığının Sürməli mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Ehtimal ki, qızılbaşların Ustaclı tayfasının əmiri Vəlican bəy Türkimana (1514-cü ildə Çaldıran döyüşündə öldürülmüşdür) məxsus ailələrin məskunlaşması nəticəsində yaranmışdır.

VƏLİCAN - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

VƏNG - Rəvan əyalətinin Abnik nahiyəsində kənd adı [169, 258].

VƏNGİQOVAQ - İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [170, 99]. "Qovalıqda yerləşən vəng (kilsə) " mənasındadır.

VƏNGTAĞI - Rəvan əyalətinin Zebil nahiyəsində kənd adı [169, 332].

VƏNG-XARABA - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 48).

VƏRQA - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 40]. "Əhalisi Dümbili əşirətindəndir" (yenə orada).

VƏRMƏZİYAR - İrəvan xanlığının Zəngibasar mahalında (Eçmiadzin r-nu) kənd adı [159]. XIX əsrin ortalarında ermənilər yerləşərək Azərbaycan türklərini sıxışdırmışlar. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi. 1946-cı ildə kənd ermənicə Arevşat adlandırılmışdır. İran dillərindəki var -"qala", "möhkəmləndirilmiş kənd" (bax: 68) sözündən və Məzyar şəxs adından ibarətdir. Naxçıvanda Vərməziyar kənd adı ilə mənşəcə eynidir.

VƏRTƏNƏZİR - Meğri r-nunda kənd adı. İndi Vartinizor adlanır.

VİRABDAQ - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı [133, 51]. Xor-Virab (ermənicə xor "çuxur", "zindan" deməkdir, lakin erməni dilindəki hor sözünün əvvəlinə "h" səsi artırıldıqda qədim türk sözüdür) monastırının adındandır.

VİRANABDAL - Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 64].

VİRS - İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [23, 61]. "Kəndin başqa adı Dərbənddir" (yenə orada). "Kitabi-Dədə Qorqud" eposunda adı çəkilən iki Dərbənddən biri ilə lokalizə oluna bilər.

QAB - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 133].

QABAQ-YAL - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında dağ adı (133, 106).

QABAQ GÜNEY - Spitak r-nunda yaylaq adı.

QABAQLU - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Meğri r-nunda) kənd adı [133, 106]. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Balqabaq formalı relyefi bildirən qabaq sözündəndir. XIX əsrin İrəvan quberniyasının Şərur-Dərələyəz və Novobayazid qəzalarındakı Qabaqlu, İrəvan qəzasındakı Qabaqlu dağı, Şərur-Dərələyəz qəzasındakı Kabaklu çayı və Qabaqyal dağı, Sürməli qəzasındakı Kabaxta (Qabaxtıdan təhrif), Qars əyalətindəki Qabaqtəpə, həmin əyalətin Kaqızman dairəsindəki Kabaxtəpə [133, 106] toponimlərindən biridir. Bundan başqa, 1588-ci ilə aid məlumata görə yayı Ermənistanda, qışı Qarabağda keçirən bir türk ulusu Qabaq adlanırdı [167, 200].

QABAQLU - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı (133, 106). Digər adı Cakidir. 1988-ci ildə əhalisi Ermənistana qovulmuşdur. (Bax: Qabaqlı)

QABAQLI GƏRDƏKDƏRƏ - İrəvan əyalətinin Qarni nahiyəsində məzrə adı [23, 100]. Gərdək evlənmiş oğlan üçün qurulan alaçıq deməkdir.

QABAQLU - İrəvan xanlığının Qırxbulaq mahalında [159], sonra Novobayazid qəzasında [136,60] kənd adı. 1948-ci ildə əhalisi Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. Digər adı Zardır [136, 60]. (Bax: Zar)

QABAQLUQ - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra adı mənbələrdə çəkilmir. Ehtimal ki, Qabaqlı adının fonetik formasıdır.

QABAQTƏPƏ - Talin r-nunda kənd adı. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. "Qabaq təpə" təpəsinin adındandır. Türk dillərindəki kabak -"yarğan", "çayın sıldırım sahili", "uzunsov maili yamaclı yüksəklik", "çayın hündür sahili" (126, 239) sözündəndir.

QABAQTƏPƏ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 136]. Dikburun da adlanır (yenə orada).

QABAQTƏPƏ - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı (133, 106).

QABAQTƏPƏ - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı (133, 106).

QABAQTƏPƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı (133, 106).

QABAQTƏPƏ - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı (133, 106).

QABANLI - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 137]. Ulaşıq da adlanır (yenə orada). Peçeneqlərin Kopan tayfasının adını əks etdirir. Azərbaycanda Qapanlı kənd adı ilə mənşəcə eynidir.

QABARƏLİ - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. 1830-cu ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Əsli Kabar elidir, yəni Kabar tayfası. Mənşəcə xəzərlərin Kabar (Kəbər) tayfasının adını əks etdirir (Bax: Kəbər Əli). Azərbaycanda Kəbirli və Kəlbəcər rayonunda Havarlı (Qabarlıdan təhrif) kənd adları ilə mənşəcə eynidir.

QABIRBULAQ - İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [23, 113]. "Başqa adı - Təkəcik" (yenə orada).

QAVAR - İrəvan xanlığının Göycə mahalında kənd adı [159]. Kabar etnoniminin təhrifi. Xəzərlərin Kabar (Kəbər) tayfasının adını əks etdirir. Yerli əhali içərisində tələffüz forması Kəvərdir (Bax: Kəvər). Azərbaycanda Kəbirli toponimi ilə mənşəcə eynidir.

QAQAUZ - Rəvan əyalətinin Karpi nahiyəsində kənd adı [169, 210]. Orta Asiyada türk dillərindəki kaka (əsli tacik dilində - qaxqa) "qala xarabalığı" sözündən və us (ehtimal ki, yunan dilində) şəkilçisindən ibarətdir. (Türkmənistanda Kaka toponimi barədə bax: S.Ataniyazov. Turkmenistanın qeoqrafik atlarının düşindirişli sözlüqi, s.175). Şərur-Dərələyəz qəzasında Kağa kənd adı ilə (Bax: Kağa) mənaca eynidir.

QADAYOLU - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nu) kənd adı [133]. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

QAYA - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 131]. Başqa adı Qaraxaçdır (yenə orada) (Bax: Qaraxaç). Səlcuq oğuzlarının Kayı (Qayı) tayfasının adındandır. Türkiyədə indi Kayı adlı 100 kənd vardır (34, 402-404).

QAYABAS - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. 1918-ci ilin əvvəllərində əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Azərbaycan dilindəki qaya və Altay dillərindəki bays (bayz) -"sıldırım" (bax: Boz-Abdal) sözlərindən ibarətdir.

QAYABAŞI - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 125]. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. "Qayanın başı (üstü)" mənasındadır.

QAYABƏYLİ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 126].

QAYADİBİ - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 120].

QAYAQIŞLAQ - İrəvan xanlığının Dərəkənd Parçenis mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra adı çəkilmir. Qeyd edilməlidir ki, Azərbaycan və Ermənistanda "qaya" sözündən düzəlmiş toponimlərdə müsbət relyef forması bildirən qaya sözü ilə Səlcuq oğuzlarının Kayı (Qayı) tayfasının [34, 228, 227] adını ayırd etmək çətin olur. Ona görə də bu toponimi həm "qayalıq yerdə qışlaq", həm də "Kayı tayfasına mənsub qışlaq" kimi izah etmək olar.

QAYALI - Ani r-nunda kənd adı. Mənbədə Sürməli nahiyəsindəki kənd kimi qeyd olunur [23, 63]. 1950-ci ildə kənd ermənicə Noribert adlandırılmışdır. 1950-ci ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür. Səlcuq oğuzlarının Kayı (Qayı) tayfasının (bu barədə bax: 36, 222, 227) adındandır. XVI əsrdə Anadoluda Kayı (Qayı) etnonimini əks etdirən 94 toponim vardı [34, 229].

QAYALI - İrəvan quberniyasının Dərələyəz qəzasında kənd adı [133, 125]. 1727-ci ildən məlumdur [32, 318]. Mənbədə kənddə cəmi bir müsəlman (azərbaycanlı) ailəsinin (Dostəli Xansuvar oğlunun) yaşadığı göstərilmişdir (yenə orada). 1918-ci ildə əhalisi qovulduqdan sonra kəndin əhalisi çox azalmış və XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq ləğv edilmişdir. Səlcuq oğuzlarının Kayı (Qayı) tayfasının adını əks etdirir.

QAYAXARABA - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı [159]. XIX əsrin ikinci yarısında kənd böyüyərək Birinci Qaya Xaraba (digər adı - Sultanağıl) və İkinci Qaya Xaraba (digər adı - Kafir qalası) kəndləri yaranmışdı [20, 264]. Hər iki kənddən 1918-ci ildə azərbaycanlılar qovulmuş və ermənilər yerləşdirilmişlər. Sonralar kənd ermənicə Tsuqaxpuyr adlandırılmışdır.

QAYQOCALI - Razdan r-nunda kənd adı. Əhalisi 1988-ci ildə Azərbaycana qovulmuşdur. Əsl adı Kayı Qocalıdır. Səlcuq oğuzlarının Kayı (Qayı) tayfasının məskunlaşması nəticəsində yaranmışdır. XIX əsrdə Borçalı qəzasındakı Qaya Qocalu kənd adı (133, 125) ilə eynidir.

QAYQULU DÜZKƏND - Qukasyan r-nunda kənd adı. Əhalisi 1878-ci ildə Türkiyəyə köçdükdən sonra ermənilər məskunlaşmışdır (6, 162). 1946-cı ildə kənd ermənicə Artaşen adlandırılmışdır. XVII əsrdən məlumdur [46, 209]. "Qayıqeli", yaxud "Qayıqoğlu"dan təhrifdir. Düzkənd yaxınlığında "Qayıqlı" deməkdir. Burada dörd Qayıqeli kəndi vardı. Düzkənd yaxınlığında yerləşməsinə görə belə adlanmışdır. Səlcuq oğuzlarının Kayıq (Qayıq) tayfasının məskunlaşması nəticəsində yaranmışdır.

QAYQULU QAZANÇI - İrəvan quberniyasının Aleksandropol qəzasında kəndin adı (133, 109). Əhalisi 1878-ci ildə qovulmuş və ermənilər məskunlaşmışlar (6, 162). Əsl adı "Qayıqeli-Qazançıdır". "Qazançı kəndinin yaxınlığındakı Qayıqeli" mənasındadır.

QAYQULU CİFTƏLİ - Ağbaba mahalında kənd adı. Əhalisi 1878-ci ildə qovulmuş və ermənilər məskunlaşmışlar (6, 162). 1946-cı ildə kənd ermənicə Dzoraxpuyr adlandırılmışdır. "Ciftəli kəndi yaxınlığında Qayıqeli kəndi" mənasındadır.

QAYNARCA - İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [170, 44]. Mənbədə kəndin Əbdürrəhman ad lı şəxsə məxsus olması qeyd edilir [170, 44].

QAYNARCA - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 84].

QAYÇI - İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı [23, 57]. "Kəndin başqa adı İmamquludur" (yenə orada). Həmin mənbədə başqa yerdə bu kəndin adı həm də Qapçı kimidir (yenə orada).

QAYÇI - Vedibasar mahalında orta əsrlərdə mövcud olmuş kəndin adı. Yerli əhali arasında Qançı da adlanmışdır. 1728-ci ilə aid mənbədə kəndin həm də İmamqulu adlandığı qeyd olunmuşdur.

QAZANBİL - Meğri r-nunda mağara adı.

QAZANLIQDƏRƏ - İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [170, 15].

QAZANGÖL - Yelizavetpol - (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Qafan r-nunda) göl adı (133, 107). XX əsrin 30-cu illərində göl Qazana-Liç adlandırılmışdır. Gölün adı onun qazan formalı olması ilə əlaqədardır.

QAZANGÖL DAĞI - Qafan r-nunda dağ adı.

QAZANÇI - İrəvan xanlığının Sürməli mahalında kənd adı [159]. 1728-ci ildən məlumdur [170, 15]. Əhalisi 1918-ci ildə qovulduqdan sonra kənd dağılmışdır. Mənşəcə qədim türk dilli bulqarların Kazan tayfasının məskunlaşması nəticəsində yaranmışdır (bax: 78).

QAZANÇI - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. Əhalisi 1829-1832-ci illərdə qovulmuş və kənd dağılmışdır. Kazan tayfasının adını əks etdirir.

QAZANÇI - İrəvan əyalətinin Şurəkəl nahiyəsində kənd adı [23, 130]. Kazan tayfasının adını əks etdirir.

QAZANÇI - Artik rayonunda kənd adı. 1728-ci ildən məlumdur [170, 15]. Əhalisi 1878-ci ildə qovulmuş və sonra ermənilər məskunlaşmışdır. 1946-cı ildə kənd ermənicə Meqraşen adlandırılmışdır. Kazan tayfasının adını əks etdirir.

QAZANÇI - İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [23, 67].

QAZANÇI - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı (133, 107).

QAZANÇI - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı (133, 108).

QAZANÇI - İrəvan quberniyasının İrəvan qəzasında xaraba kənd adı (133, 108).

QAZANÇILI - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 3]. Digər adı Yengicədir (yenə orada).

QAZANŞI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan mahalında) kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Qazançı toponiminin təhrif formasıdır. Kazan tayfasının adını əks etdirir. (Bax: Qazançı)

QAZARABAD - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı (133, 108). Qədim türk mənşəli Xəzər etnonimini əks etdirir.

QAZBİN - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

QAZYAN - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 4]. Qızılbaşların Qazian tayfasının adındandır.

QAZIBƏYLİ - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [23, 100]. "Kəndin başqa adı Yaxşıcandır " (yenə orada).

QAZIQIŞLAQ - İrəvan xanlığının Sürməli mahalında kənd adı [159]. XIX əsrin əvvəllərində əhalisi qarışıq kəndlərdən idi. 1886-cı ildə ermənilərin və azərbaycanlıların birgə yaşadıqları kəndlərdən idi [136].

QAZIKƏND - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 130]. "Başqa adı Saldaşınlıdır" (yenə orada).

QAZIBƏYLİ - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [170, 79]. Mənbədə kəndin həm də Yaxşıcanı adlandığı qeyd olunmuşdur (yenə orada).

QAZI YAQUB - İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı (23, 113).

QAZIGÜNEY MƏZRƏSİ - Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 60].

QALAARX - Oktemberyan r-nunda kənd adı. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

QALABƏY - İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 15]. Mənbədə qeyd olunur ki, kənddə heç kim yaşamır və qonşu kəndlərdən gələnlər əkib-biçirlər [32, 311].

QALABOYNU - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 121].

QALABÜRC - Böyük Vedi qəsəbəsində eni 359 m. ,uzunluğu 400 m., hündürlüyü 7-8 m. olan təpənin adı. Təpədə qədim qala xarabalıqları vardır.

QALAVAQ - İrəvan əyalətinin Göyçə nahiyəsində kənd adı [170, 12].

QALAQ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Gorus r-nunda) kənd adı. 1918-ci ildə kəndin əhalisi qoulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Vaqatur adlandırılmışdır.

QALAĞAN - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 41].

QALADİBİ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 110]. 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir.

QALADƏRƏSİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Gorus r-nunda) kənd adı [133]. 1918-ci ildə əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1935-ci ildə kənd ermənicə Kaladzor adlandırılmışdır.

QALAKƏND - İrəvan quberniyasının Dərələyəz qəzasında kənd adı [133]. XX əsrin əvvəllərində kənd dağılmışdır.

QALAKÖY - Rəvan əyalətinin Zebil nahiyəsində kənd adı [169, 331]. Mənbədə adı Zarzəmin nahiyəsində çəkilir [23, 120].

QALALI - Ani r-nunda kənd adı. 1947-ci ildə kənd ermənicə Norabert adlandırılmışdır. 1949-cu ildə əhalisi Azərbaycana köçürülmüşdür.

QALALI - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 110]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

QALAMAN - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra mənbələrdə adı çəkilmir.

QALA MİNAR - İrəvan quberniyasının Novobayazid qəzasında qala-dağ adı (133, 110).

QALASAR - İrəvan xanlığının Dərələyəz mahalında (Yexeqnadzor r-nu) kənd adı (habelə bax: 133, 110). 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Əsli Qalahasardır. Kəndin yaxınlığındakı tsiklopik

qalaçanın adındandır. Ermənistan ərazisində çoxlu miqdarda yaşayış-məntəqə adlarında er.əv. III-II minilliklərə aid olan tsiklopik tikintilərin xalq arasında ifadəsi olan "qalaca", "qalacıq", "hasar" sözləri vardır. Azərbaycanın Qazax, Qubadlı, Kəlbəcər, Tovuz, Xanlar, Şərur və b. rayonlarının ərazilərində də 120-yə qədər kobud yonulmuş, dördkünc formalı nəhəng daşlardan hörgü tikintiləri vardır. (Bax: Hisar)

QALAÇA - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı [159]. XIX əsrin əvvəllərində Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1978-ci ildə Berdovan adlandırılmışdır. Yaxınlıqdakı tsiklopik qalaçanın adındandır.

QALAÇA - İrəvan xanlığının Abaran mahalında kənd adı [159]. Mənbədə Qalacıq kimidir [150, 365]. Yaxınlıqdakı tsiklopik qalaçanın adındandır.

QALAÇA - İrəvan əyalətinin Şurəgəl nahiyəsində Yasaul (başqa adı Ağkilsə) kəndinə məxsus məzrənin adı [23, 132].

QALAÇA - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 136]. "Çaqçaq kəndinin yaxınlığında yerləşir" (yenə orada).

QALAÇA MƏZRƏ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [170, 139].

QALAÇA PARÇENİS - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 110]. "Qalaça yaxınlığındakı Parçenis" mənasındadır. (Bax: Parçenis)

QALATƏPƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında təpə adı (133, 110).

QALAÇA HORUM - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı (133, 110).

QALACIQ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında kənd adı [133, 110]. Başqa adı ikinci Qarakilsədir (103, 156). 1828-ci ildə əhalisi qovulmuş və İrandan gəlmə ermənilər yerləşdirilmişdi (yenə orada). XIX əsrin axırlarından sonra bu kəndin adı çəkilmir.

QALACIQ - Rəvan əyalətinin Abaran nahiyəsində kənd adı [169, 233]. Mənbədə kəndin həm də Ömərköy adlandığı qeyd olunur (yenə orada).

QALACIQ - Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 196].

QALACIQ - Rəvan əyalətinin Bazarçayı nahiyəsində kənd adı [169, 156]. Mənbədə kəndin həm də Purnazik adlandığı qeyd olunur [169, 156]. Mənbədə İrəvan əyalətinin Sisyan nahiyəsində qeyd olunur [23, 150].

QALACIQ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 137]. Digər adı Cahandardır (yenə orada). (Bax: Cahandar)

QALACIQ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 137]. Digər adı Təkamaldır (yenə orada).

QALACIQ - İrəvan əyalətinin Şirakel nahiyəsində Əfşan kəndinə məxsus məzrənin adı [23, 138].

QALACIQ - İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [23, 151].

QALACIQ - İrəvan əyalətinin Göyçə nahiyəsində kənd adı [23, 56].

QALACIQ - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [23, 102].

QALACIQ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 128]. "Başqa adı İgiələr" (yenə orada).

QALACIQ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 127]. "Əhalisi İrəmlu əşirətindəndir" (yenə orada).

QALACIQ - İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [170, 20].

QALACIQ - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 3]. "Keşişkənd yaxınlığında yerləşir" [23, 79].

QALACIQ - İrəvan əyalətinin Göyçə nahiyəsində kənd adı [23, 55].

QALACIQ - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 41].

QALAŞ - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı (159). (Bax: Kələş)

QALQALI - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 131]. "Başqa adı Əliqulu kəndidir" (yenə orada).

QALİBSUNCUQ MƏZRƏSİ - Rəvan əyalətinin Talin mahalında məzrə adı [169, 249].

QALTAXÇI - İrəvan xanlığının Pəmbək mahalında kənd adı [159]. 1830-cu ildə kəndin əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi. 1946-cı ildə kənd ermənicə Hartaqyuğ, 1978-ci ildə isə Berdavan adlandırılmışdır. Kənd orta əsrlərdə Anadoluda yaşamış Yerük tayfa birləşməsinin Kaltak tayfasının [34] məskunlaşması nəticəsində yaranmışdır. Başqa mənbəyə görə bu tayfanın adı Qaltax-Kobaş olmuşdur [95, 11].

QAMIŞQUT - Tiflis quberniyasının Borçalı qəzasında [99, 418] (Quqark r-nunda) kənd adı (133, 112). XIX əsrin ortalarında kənddə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1887-ci ilə aid məlumata görə kəndin əhalisi erməni idi [99, 418]. XX əsrin sonlarında azərbaycanlıların bir hissəsi geri qayıtmış və ermənilərlə qarışıq yaşamışdır. 1919-cu ildə kəndin Azərbaycanlı əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1935-ci ildə ermənicə kənd Yexeqnut adlandırılmışdır. Azərbaycan dilindəki qamış və monqolca xot -"düşərgə" və ya qut (bax: Burun-qot) sözlərindən ibarətdir.

QAMIŞ GÖL - Şəmşəddin (Berd) r-nunda qışlaq adı. 1930-cu ildə ləğv edilmişdir.

QAMIŞLI - Oktemberyan r-nunda kənd adı. 1978-ci ildən Zartonkdur.

QAMIŞLU - İrəvan xanlığında, Dərəkənd Parçenis mahalında kənd adı [159]. Mənbədə Rəvan əyalətinin Sürməli nahiyəsində Qamışlı kəndi qeyd olunur [169, 192]. 1918-ci ildə kənddən əhali qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1978-ci ildə kənd ermənicə Tsartonk adlandırılmışdır. 1728-ci ilə aid məlumatda Kamişli kimidir [170, 17]. Həmin mənbədə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində Kamişlu kəndinin də adı çəkilir [170, 37]. Toponimin mənşəyi haqqında üç fikir mövcuddur: 1.Toponim orta əsrlərdə Şərqi Türkiyənin Kamis mahalından [150, 115] gəlmiş ailələrin özləri ilə gətirdikləri addır. 2. Toponim Cənubi Azərbaycanın Komus əyalətindən gəlmiş ailələrin

özləri ilə gətirdikləri addır. 3. Qızılbaşların Qaradaqlı tayfasının Komuşlu (Komuşçu) tirəsinin adını əks etdirir.

QAMIŞLU - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 112]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

QAMIŞLU - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 112).

QAMIŞLI ÇUXUR - Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı [169, 226].

QAM-XUT - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı  (133, 112).

QANLI - Basarkeçər r-nunda kənd adı. Digər adı - Qanlı-Allahverdi [20, 282]. 1946-cı ildə Qamışlı adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Əsli Kanqlıdır. Səlcuq oğuzlarının Kanqlı tayfasının adı ilə əlaqədardır. Qafqazda "qanlı" sözü ilə bağlı çoxlu toponimdə bu söz iki mənadadır: 1.Boğulma, döyüş-savaş və s. bağlı hadisələrlə əlaqədar ölüm (qan tökülməsi); 2.Qanlı (əsli Kanqlı) tayfasının məskunlaşması. "Kitabi-Dədə Qorqud" eposunda Qanlı Qoca [52, 18], Azərbaycanda Qanlıkənd, Bozalqanlı, Qaraqanlı və b. kəndlərin adlarında əksini tapmışdır [80, 75]. XIX əsrdə Qafqazda iki Kanqlu kəndi vardı [133, 115]. Erkən orta əsrlərdə Orta Asiyada yaşamış Kanqlı tayfası 1218-ci ildə monqollar tərəfindən tabe edilmiş və qərbə doğru istiqamət götürmüşdür [65, V, 294]. Masallı r-nun Böyük Kolatan kəndi ərazisindəki Kanqlı qalası toponimi (Tofiq Əzizov,  "Kanqlı qalası", "Qala" qəzeti, 15.1.1991) ilə mənşəcə eynidir. (Kanqlı tayfası barədə bax: К.Шанийазов. К вопросу расселения и родственных делений Канглы. "Этнографичнское изучение быта и культуры узбеков". Ташкент, 1972).QANLI  GƏDİK  -  Qafan r-nunda aşırım adı.

QANLIGÖL - İrəvan quberniyasının Novobayazid qəzasında göl adı [133]. Göldə bədbəxt hadisənin (ehtimal ki, adamın boğulması) baş verməsi ilə əlaqədardır.

QANLIGÖL  -  Vedi r-nunda göl adı. Uzunluğu 50 m. , eni 30 m. olan göl Kolanılı və Məngül kəndlərinin arasında yerləşir.

QANLICA - Axuryan r-nunda kənd adı. 1946-cı ildə ermənicə Marmaşen adlandırılmışdır. Qanlı (Kanqlı) tayfasının adını əks etdirir. "Kiçik Qanlı (kəndi)" mənasındadır.

QANLICA - Yexeqnadzor r-nunda kənd adı. 1946-cı ildə ermənicə Vaqramaberd adlandırılmışdır. Qanlı (Kanqlı) tayfasının adını əks etdirir.

QANLICA - Rəvan əyalətinin Zebil nahiyəsində yaylaq adı [169, 334]. Yaylaq oradakı  Qanlıca gölünün adı ilə adlanmışdır.

QANLICA - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı. "Başqa adı Qızılkilsədir" [23, 134].

QAPILI - İrəvan quberniyasının Aleksandropol qəzasında (Ani r-nunda) kənd adı (133, 114). Mənbədə Şirakel nahiyəsində qeyd olunur [23, 131]. 1590-cı ildən məlumdur [167, 196]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1947-ci ildə kənd ermənicə Qusanaqyuq adlandırılmışdır.

QAPICIQ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Qafan r-nunda) kənd adı. XIX əsrin sonlarında əhalisi qarışıq idi. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd ləğv edilmişdir. Qapıcıq dağının adındandır.

QAPICIQ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında dağ adı [133, 114]. Mənbədə Kapucik kimidir (yenə orada). Türk dillərindəki kapu - "dar dərənin yarıqlarla doğranmış yuxarı hissəsi", "dağın erroziyalı, qayalı yamacları olan dar dərəsi" [126, 253] və çik - "dar dərə" (bax: Alaciki) sözlərindən ibarətdir. Ordubad r-nundakı Qapıcıq dağı, Balakən r-nundakı Qapıdağ, Zəngilan r-nundakı Qapıcıq, Qax r-nundakı Qapıçay, Şahbuz r-nundakı Qapı Qaşqara çayı, Quba r-nundakı Quru Kap dağı, Dağlıq Şirvandakı Kəpkəz və b. toponimlərlə mənaca eynidir.

QAPUT - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı. 1988-ci ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür. Yerli tələffüz forması Kaputdur. Quba r-nunda Təngə dərəsinin üstündə Qaput dağının adı ilə mənaca eynidir. Ehtimal ki, türk dillərində kapı sözündəndir. (Bax: Qapıcıq)

QARA ABDAL - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 79). "Ozan kəndinin yaxınlığında yerləşir" (yenə orada). Ərəbcə qəryə - "kənd" və Abdal (bax: Abdal) sözlərindən ibarətdir.

QARAAĞIL - Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 85]. Mənbəyə görə Tos (bax) kəndinə məxsus məzrənin adı [23, 92].

QARAAĞIL - Kalinino r-nunda kənd adı.

QARAARXAC - İrəvan quberniyası, Novobayazid qəzasının ərazisində bir dağın adı [136, 2].

QARABAĞ - İrəvan quberniyasının Eçmiadzin qəzasında qışlaq adı [133, 114]. 1590-cı ildə Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı [169, 218]. Mənbədə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı kimi qeyd olunmuşdur. XIX əsrdə Qars əyalətinin Ərdahan sahəsində Qarabağ şəhər xarabalığının [133, 114] adı ilə bağlıdır. Şəhər isə kəngər-peçeneqlərin eramızın əvvəllərində Cənubi Qafqaza gəlmiş Qarabağ tayfasının adındandır. (Bax: Aşağı Qarabağlar)

QARABAĞ - Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 183]. Türkiyənin şərqindəki Qarabağ mahalının adını əks etdirir. İbn Əl Əsir (XIII əsr) oğuzların Ruma 1064-cü ildə hərbi səfəri ilə əlaqədar olaraq Anadolunun şərqində Qarabağ toponimini qeyd etmişdir.

QARABAĞ - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 41).

QARABAĞLAR - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Kəngər-peçeneqlərin Qarabağ tayfasının adını əks etdirir. XIX əsrin əvvəllərində Naxçıvanda kəngərlərin bir qolu Qarabağlar adlanırdı [153, 32].

QARABAĞLAR - Vedi r-nunda kənd adı. 1949-cu ildə əhalisi Azərbaycana köçürülmüşdür. Kəngər-peçeneqlərin Qarabağ tayfasının adını əks etdirir. XIX əsrdə Cənubi Qafqazda 5 Qarabağlar kəndi vardı [133, 114]. Eranın ilk əsrlərində Cənubi Qafqaza gəlmiş kəngər və peçeneqlərin Qarabağ tayfasının adındandır. "Kitabi-Dədə Qorqud"da (IV boy) "Qarabağlar üzərinə ova çıxdı" məlumatındakı Qarabağlar toponiminin

yeri məlum deyil. Azərbaycanın Göyçay, Xanlar r-nlarındakı və Naxçıvandakı Qarabağlar kəndlərinin adları (133, 114) ilə mənşəcə eynidir. Bax: Yuxarı Qarabağlar və Aşağı Qarabağlar.

QARABAĞLI - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 114]. Digər adı Gödəkli (bax: Gödəkli). Mənşəcə kəngər -peçeneqlərin Qarabağ tayfasının [109] adını əks etdirir. (Bax: Aşağı Qarabağlar)

QARABAĞLI KƏBİR - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [170, 87]. "Böyük Qarabağlı" mənasındadır.

QARABAĞLI SAQİR - İrəvan əyalətinin Gərni (Qarni) nahiyəsində kənd adı [170, 87]. "Kiçik Qarabağlı" mənasındadır.

QARABAYRAM - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 20]. Kəndin əsasını qoymuş şəxsin adıdır. Ərəbcə qəryə -"kənd" sözündən və Bayram şəxs adından ibarətdir.

QARABAŞLAR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Gorus r-nunda) kənd adı. XIX əsrin 80-cı illərinə aid məlumata görə oradakı Kilətaq kəndindən yaranmış obalardan (bax: İydəli) biridir. Mənbədə obanın adı Qarabaş kimidir (yenə orada). XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd Baharlı kəndinə birləşdiyindən ləğv edilmişdir [20, 138].

QARABƏKİR - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı. Azərbaycan dilindəki rəng bildirən qara (dağın vulkan mənşəli süxurlarının rəngini bildirir) və türk dillərindəki bukur -"qozbel" [143, IV, 1, 114] sözlərindən ibarətdir. Azərbaycandakı Qələybuqurd dağının (Şamaxı r-nu) adı ilə eynidir.

QARABOYA - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 114]. 1919-cu ildə əhalisi qovulmuş və 1920-ci ildə Türkiyədən gəlmə ermənilər yerləşmişlər. 1946-cı ildə kənd ermənicə Xnkoyan adlandırılmışdır. XIX əsrdə Naxçıvan qəzasında Qaraboya [133] kənd adı ilə mənaca eynidir.

QARABÖRK - Rəvan əyalətinin Şərabxana nahiyəsində kənd adı [169, 240]. Mənşəcə qıpçaqların Qarabörk (Т.А.Жданко. Очерк исторической этнографии каракалпаков. М.-Л., 1950, с.110) tayfasının adını [bax: 74, 48] əks etdirir. Azərbaycanda Qarabörk (Ucar r-nu) kənd adı ilə mənşəcə eynidir.

QARABUKAND - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı [133, 114]. Azərbaycan dilindəki qara və Altay dillərindəki buğınd -"təpə", "meşəli dağ" [126, 98] sözlərindən ibarətdir.

QARABULAQ - Abaran r-nunda kənd adı. 1590-cı ildən məlumdur [167, 232]. 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı. "Kəndin başqa adı Yuxarı Qapılı Andondur" (yenə orada). 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir [159]. 1946-cı ildə kənd ermənicə Yerincə-Tap adlandırılmışdır. 1728-ci ilə aid mənbədə Karuli adlanır [170, 108]. [Habelə bax: 150, 365]. XIX əsrdə Cənubi Qafqazda mövcud olmuş 33 Qarabulaq toponimindən [133, 114-115] biridir. Qarabulaq "yeraltı su", "yerdən qaynayıb çıxan və ona görə qara rəngə çalan su", "qara su", "içməyə yararsız su", "qışda donmayan bulaq" mənalarındadır.

QARABULAQ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində məzrə (əkin yeri) adı [23, 96].

QARABULAQ - İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı. "Kəndin başqa adı Yuxarı Qapılı Andondur" (yenə orada).

QARABULAQ - İrəvan əyalətinin Sarıbulaq kəndinə məxsus məzrənin adı [23, 109].

QARABULAQ - Rəvan əyalətinin Zar nahiyəsində kənd adı [169, 327].

QARABULAQ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [170, 138]. 1945-ci ildən İsahakyan (Anir k. ) adlandırılmışdır. Digər adı Güləli Kərimdir (yenə orada).

QARABULAQ - Amasiya r-nunda kənd adı. 1991-ci ildən Şaqik adlandırılmışdır. 1728-ci ildən məlumdur [23, 64]. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Digər adı Ağbaba [20, 373]. Mənbədə İrəvan əyalətinin Sürməli nahiyəsində adı çəkilir [170, 17].

QARABULAQ - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (Noyemberyan r-nunda) qışlaq adı [133, 115]. XX əsrin 30-cu illərində əhalisi qonşu Baraxlı (Bax: Baraklı) kəndinə köçdüyünə görə kənd ləğv edilmişdir.

QARABULAQ - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra adı mənbələrdə çəkilmir. 1728-ci ilə aid mənbədə "Gedi (Keyti) Qarabulaq" adlandırılmışdır [170].

QARABULAQ - Tiflis quberniyasının Borçalı qəzasında (Tumanyan r-nunda) kənd adı. "Qarabulaq meşəsi" adlı yerdə qışlaq əsasında yaranmışdır. XX əsrin 30-cu illərində ləğv edilmişdir.

QARABULAQ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 131]. "Güləli kimi də tanınır" (yenə orada).

QARABURUN - Talin r-nunda kənd adı. 1590-cı ildən məlumdur [169, 236]. 1914-cü ildə kəndin əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. 1950-ci ildə kənd ermənicə Karmraşen, 1965-ci ildən Karakert adlandırılmışdır. Qaraburun dağının adındandır.

QARABURUN - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 128]. Qaraburun dağının adındandır.

QARABURUN - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı [133, 115]. Dağ burun formalı qurtaracağına (irəliyə çıxmış hissəsinə) görə adlanmışdır. Digər adı Eşnək (bax). (Dağ adlarında burun sözünün mənası barədə bax: Aşağı Bozburun)

QARABURUN - İrəvan quberniyasının İrəvan qəzasında başqa bir dağ adı (133, 115).

QARAVƏLİ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. İlk dəfə adı 1590-cı ilə aid mənbədə çəkilir [169, 254]. XIX əsrin ortalarından sonra adı çəkilmir. Ehtimal ki, Şərqi Anadolunun Qars əyalətində Qaravəl nahiyəsindən [133] çıxmış ailələrin məskunlaşması nəticəsində yaranmışdır.

QARAVƏLİ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 127].

QARAVƏLİ - İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [170, 20]. Mənbədə bu kəndin Şöyüklü tayfasından yarandığı qeyd olunmuşdur (yenə orada).

QARAVƏLİ - Rəvan əyalətinin Karpi nahiyəsində kənd adı [169, 211].

QARAVƏNG - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında (Yeğeqnadzor r-nunda) kənd adı (133, 115). 1728-ci ildən məlumdur [170, 15]. Həmin mənbədə kənddə cəmi 3 evli və bir subay kişinin yaşadığı qeyd olunmuşdur [32, 320]. 1918-ci ildə əhalisi qovulmuşdur. 1922-ci ildə az hissəsi geri qayıtsa da

qonşu kəndlərdə məskunlaşmağa məcbur olmuşdur. Nəticədə kənd dağılmışdır. Azərbaycan dilində rəng bildirən qara (kilsə xarabalığının qara rəngə çalmasına görə) və vəng - "kilsə", "monastır" sözlərindən ibarətdir.

QARAVƏNG - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında xaraba kənd adı (133, 115).

QARAVİRAN - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 79].

QARAVİRAN - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 97]. Mənbədə kəndin Hacı Mustafa Hüseyn oğluna mənsub olması göstərilir (yenə orada).

QARAVULTƏPƏ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 127].

QARAQAYA - Yelizavetpol quberniyasının Qazax qəzasında (Krasnoselsk r-nunda) kənd adı [133]. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

QARAQAYA - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. 1991-ci ildən Dzorvan adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

QARAQAYA - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. 1727-ci ilə aid mənbədə Ayısası kəndinə məxsus məzrənin (əkin yeri) adı kimi qeyd olunmuşdur [32, 287]. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

QARAQAYA - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

QARAQAYA - Razdan r-nunda dağ adı.

QARAQALA - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. Mənbədə İrəvan əyalətinin Sürməli nahiyəsində Qarabulaq kəndinin nəzdində oba kimi qeyd olunmuşdur [170, 17]. Qala adlarında "qara" sözü çox halda qara rəngini ifadə etmir. Qalanın divarları qara rəngə çala bilməzdi. Ona görə ki, təbiətdə qara rəngli daş yoxdur. Fikrimizcə, "Qaraqala"ların əksəriyyəti türk dillərindəki qarrı "əski", "köhnə", "qədim" sözünün danışıqda "qara" formasını kəsb etməsinin nəticəsidir. Bəzi adlarda isə "qara" sözü ərəb dilində qəryə "kənd" mənasındadır. Qaraqala "köhnə (qədim) qala" mənasındadır. (Türkmənistandakı Qarrıqala qala adları ilə müqayisə edin).

QARAQALA - Razdan r-nunda kənd adı. 1728-ci ildən məlumdur. Şirakel nahiyəsində kənd adı kimi idi [23, 137]. İkinci Dünya müharibəsindən sonra Razdan çayının üstündə su anbarının tikilməsi ilə əlaqədar olaraq kənd ləğv edilmişdir.

QARAQALA - Tiflis quberniyasının Borçalı qəzasında (Kalinin r-nunda) kənd adı. XIX əsrin ortalarında Yuxarı Qaraqaya və Aşağı Qaraqala hissələrindən ibarət olmuş, XX əsrin 30-cu illərində birləşmişdir. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Yaxınlıqdakı "Qaraqala" qala xarabalığının adındandır.

QARAQALA - Rəvan əyalətinin İrəvan qəzasında ada [169, 60]. İrəvan xanlığının Qırxbulaq mahalında [159], sonra da İrəvan quberniyasının Novobayazid qəzasında [136, 60] kənd adı. 1948-ci ildə kəndin adı ermənicə Sevabert adlandırılmışdır. 1949-cu ildə əhalisi Azərbaycana köçürülmüş və ermənilər yerləşdirilmişdir.

QARAĞAC - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. 1828-1832-ci illərdə kənddə xaricdən gəlmə ermənilər də yerləşdirilmişdir [159]. Ondan sonra kəndin əhalisi qarışıq idi. 1918-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuşdur. Əsli: Qaraxaç. (Bax: Qaraxaç)

QARAĞAC - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. 1920-ci ildə əhalisi qovulmuşdur. 1922-ci ildə az hissəsi geri qayıdaraq yenidən məskunlaşmışdır. 1948-ci ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd dağılmışdır.

QARAQAŞ - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 77].

QARAQIŞLAQ - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 41].

QARAQIŞLAQ - Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 69]. Mənbədə kəndin həm də Hacıbəyli adlandığı qeyd olunur [23, 83].

QARAQIŞLAQ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [170, 122]. Mənbədə kəndin həm də Delcan adlandığı qeyd olunur (yenə orada). (Bax: Delcan)

QARAQIŞLAQ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı. 1828-1832-ci illərdə əhalisi qovulmuş və kənd dağıdılmışdır. 1728-ci ilə aid məlumatda "Kəmərlu camaatına mənsub qışlaq" olduğu qeyd olunmuşdur [170, 9]. Mənbədə kəndin həm də Mərənçi adlandığı göstərilir (yenə orada). XIX əsrdə Cənubi Qafqazda 7 Qaraqışlaq adlı kənd vardı [133, 117]. Bu toponimlərdə "qara" sözünün mənasını (yaxud mənalarını) materialımızın yoxluğu üzündən aydınlaşdırmaq çətindir. Onların bəziləri, şübhəsiz, ərəb dilindəki qəryə "kənd" sözündən ibarətdir.

QARAQIŞLAQ - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 73]. "Qızıl Əyrək kəndinin yaxınlığında yerləşir" (yenə orada).

QARAQIŞLAQ - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı [159]. 1978-ci ildə kənd "Dostluq", 1991-ci ildə isə ermənicə Hayanikst adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

QARAQIŞLAQ - İrəvan əyalətinin Karpi nahiyəsində kənd adı [23, 49]. "Kəndin başqa adı Mərənçidir" (yenə orada).

QARAQOVMAZ - İrəvan quberniyasının İrəvan qəzasında (Talin r-nunda) kənd adı (133, 117). 1946-cı ildə kənd ermənicə Sasunaşen adlandırılmışdır. Əsli Qaraqoymazdır. (Bax: Aşağı Qaraqovmaz Əsli - Qəryə Qovmaz, yəni "Qovmaz kəndi")

QARAQOVMAZ - İrəvan quberniyasının İrəvan qəzasında xaraba kənd adı [133, 117]..

QARAQOQLU GÖL - İrəvan quberniyası Novobayazid qəzasından Ağzıbir kəndinə məxsus yaylağın adı [136, 32].

QARA QOYUN - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı (133, 117).

QARAQOYUNLU - İrəvan quberniyasının İrəvan qəzasında (Vedi rayonunda) kənd adı [133, 117]. Digər adı Çığın Qaraqoyunludur [20, 221]. Yəni "Çiqini kəndi yaxınlığındakı Qaraqoyunlu". 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1922-ci ildən sonra əhalinin bir hissəsi geri qayıdaraq ermənilərlə qarışıq yaşamağa başlamışdır. 1949-cu ildə kəndin azərbaycanlı əhalisi Azərbaycana köçürülmüşdür. Mənbədə [150, 177] kəndin həm də Yolkəsən adlandığı qeyd olunur [170, 77]. 1728-ci ilə aid arxiv sənədində isə göstərilir ki, kəndin adı həm də "Nəhri-Yolkəsən"dir [170, 77] ki, bu da kanalın tranzit yolunu kəsməsi ilə əlaqədardır.

Kəndin adı XIII-XV əsrlərdə Ön Asiyanın və Cənubi Qafqazın siyasi həyatında mühüm rol oynamış Qaraqoyunlu tayfa birləşməsinin adını əks etdirir. XIII əsrdə İraqda və Anadoluda məskunlaşmış türk mənşəli Qaraqoyunlu tayfası 1410-1468-ci illərdə Kürdən cənubda Azərbaycanı, indiki Ermənistan ərazisini, Ərəb İraqını və qismən Gürcüstanı əhatə etmiş dövlət qurumu yaratmışdı. Mənbələrdə qaraqoyunluların Hacılı, Ağacəri, Bayramlı, Əyinli, Duhanlı, Alpout, Qaramanlu, Baxarlu və b. tayfalardan ibarət olması göstərilir (bax: 78). XIX əsrdə Cənubi Qafqazda Qaraqoyunlu adlı 16 kənd vardı [133, 117].

QARAQOYUNLU - İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [23, 71].

QARAQOYUNLU - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [23, 99]. "Kəndin başqa adı Yükkəsən çaydır" (yenə orada).

QARAQOYUNLU - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 117]. 1728-ci ildən məlumdur [170, 20]. Əhalisi 1918-ci ildə qovulmuş və kənd dağıdılmışdır.

QARAQOYUNLU - İrəvan quberniyasının Novobayazid qəzasında (Basarkeçər r-nunda) kənd adı. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. XIX əsrin ortalarında kəndin maldarlarının Çalmalı dağında "Qatar" adlı yerdə yaylaq yurdu vardı [136, 34].

QARAQOYUNLU - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı. 1828-1832-ci illərdə əhalisi qovulmuş və kənd dağıdılmışdır [159].

QARAQOYUNLU - Eçmiadzin r-nunda kənd adı. 1590-cı ilə aid mənbədə Müzəffər qışlağı [169, 64] adlanır. 1978-ci ildə kənd erməncə Ferik adlandırılmışdır.

QARA QUBAD - İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [23, 46]. Əsli Qəryə Qubad, yəni "Qubad kəndi"dir.

QARAQUBAD MƏZRƏSİ - İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [170, 7]. "Qara Qubadın əkin yeri" mənasındadır.

QARAQUZEY - İrəvan xanlığının Vedibasar mahalında (Ararat r-nunda) kənd adı [159]. 1948-1951-ci illərdə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd dağılmışdır.

QARAQUZEY - Vedi r-nunda qara rəngli dağ silsiləsinin adə.

QARAQULA - Talin r-nunda kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra ermənilər məskunlaşmışdır. 1946-cı ildə kənd erməncə Qetap adlandırılmışdır. "Qara rəngli qüllə" mənasındadır.

QARAQULA - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır. "Qara rəngli qüllə" mənasındadır.

QARAQULAX - Yeğeqnadzor r-nunda kənd adı.

QARAQULƏSAYİŞ - Rəvan əyalətinin Ərmus nahiyəsində kənd adı [169, 259]. Əsli Qərye-Qul Asayişdir. "Qula (qulama) məxsus Əsayiş kəndi" mənasındadır. (Bax: Əsayişli)

QARAQURQAN - İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [169, 269].

QARADAĞ - Şəmşəddin (Berd) r-nunda qışlaq adı.

QARADAĞLI - Artaşat r-nunda kənd adı. XIX əsrin əvvəllərindən əhalisi qarışıq kəndlərdən idi. 1918-ci ildə kəndin azərbaycanlılardan ibarət əhalisi qovulmuşdur. 1945-ci ildə kənd ermənicə Tsaxkaşen, 1967-ci ildə Mrqavan adlandırılmışdır. Qızılbaşların Qaradağlı tayfasının [16] məskunlaşması nəticəsində yaranmış kəndlərdən olmuşdur. XIX əsrin ortalarında Cənubi Qafqazda Qaradağlı adlı 14 kənd vardı [133].

QARADAŞ - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı [159]. XVIII əsrin ortalarına aid ermənicə mənbədə Kara Taş kimidir [150, 190]. Digər adı Bayramkəndi olmuşdur. XIX əsrin ortalarından sonra kəndin adı mənbələrdə çəkilmir. İrəvan quberniyasının Sürməli qəzasındakı Qaradaş dağının adındandır. XIX əsrdə Cənubi Qafqazda 13 Qaradaş toponimi vardı [133, 116]. Azərbaycan dilindəki qara və daş (qaya) sözlərindən ibarətdir.

QARADAŞ - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı [159]. Mənbədə Kara Taş kimidir [150, 190]. Digər adı Bayramkəndi olmuşdur. XIX əsrin ortalarından sonra kəndin adı mənbələrdə çəkilmir. İrəvan quberniyasının Sürməli qəzasındakı Qaradaş dağının adındandır. XIX əsrdə Cənubi Qafqazda 13 Qaradaş toponimi vardı [133, 116]. Azərbaycan dilindəki qara və daş (qaya) sözlərindən ibarətdir.

QARADAŞ - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı [133, 116].

QARADAŞ - Tiflis quberniyasının Borçalı qəzasında (İcevan r-nunda) kənd adı [133, 116]. 1946-cı ildə kənd ermənicə Sevkar adlandırılmışdır.

QARADƏLİ - İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı [170, 12]. Əsli: Qərye Dəli, yəni Dəli kəndi. Qədim türk mənşəli Tele tayfasının adındandır. (Bax: Dəllər)

QARADƏRƏ - XVIII əsrin əvvəllərində İrəvan əyalətində kənd adı [91, 213]. "Kitabi-Dədə Qorqud" eposunda (27, 49) Qaradərə Qadirverənin (Eçmiadzinin) ağzında (yəni sərhəddində) yer kimi qeyd olunmuşdur. Zəngidərə (zəngi "qara" mənasındadır) də adlanmışdır. Zəngiçay bu dərədən axır. Culfa r-nundakı Arazın sol qolu (uz. 40 km. ) olan Qaradərə adı ilə mənaca eynidir.

QARADIĞA - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Qafan r-nunda) kənd adı (133, 116). 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Əsli Qaradigədir. Türk dillərindəki qara və tiqey - "meşəsiz (daz) təpə" [126, 552] sözlərindən ibarətdir.

QARAƏHMƏDLİ - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (Dilican r-nunda) kənd adı. 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir [20, 76]. Əsli: Qəryə-Əhmədli, yəni "Əhmədli kəndi".

QARAİBAD QIŞLAĞI - İrəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 62]. Mənbədə kəndin həm də Sakitqışlaq adlandığı qeyd olunur (yenə orada). Əsli: Qəryeyi-İbad (İbad kəndi) qışlağı.

QARAİSA - Tiflis quberniyasının Borçalı qəzasında (Taşir r-nunda) kənd adı. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. XIII-XIV əsrlərdə Anadoluda yaşamış Əlvan, Göycəli və Ulaş qollarından ibarət Qaraisa adlı tayfanın [36, 185] məskunlaşması nəticəsində yaranmışdır.

QARAKEŞİŞ - İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı [23, 115]. Mənbədə kəndin Osman Abdulla oğluna məxsus olduğu göstərilir (yenə orada). Əsli: Qəryə-Keşiş, yəni "Keşiş (xristian) yaşayan kənd".

QARAKƏNDİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Qafan r-nunda) kənd adı. XIX əsrin sonlarında kənd dağılmışdır.

QARAKİLİS - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 117]. XIX əsrdə Ermənistanda və Borçalı qəzasında mövcud olmuş 7 Qarakilis kənd adlarından (133, 117) biridir. XIX əsrin sonlarından sonra kəndin adı mənbələrdə çəkilmir. Qarakilsə adının fonetik formasıdır. Yaxınlıqdakı "Qara Kilis" kilsəsinin adındandır.

QARAKİLİS - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 117]. XIX əsrin sonlarından sonra adı çəkilmir.

QARA KİLSƏ - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 40]. "Əhalisi Dümbili camaatındandır" (yenə orada). "Qəryə kilsə", yəni "Kilsəkənd" adından təhrifdir.

QARAKİLSƏ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı. Başqa adı Atlıdərədir [23, 133] (Bax: Atlıdərə).

QARAKİLSƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı (133, 117).

QARAKİLSƏ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı [133, 117]. Kənd 1468-ci [135, 168] və 1590-cı ildən məlumdur [169, 362]. XX əsrin əvvəllərində Türkiyənin Sis əyalətindən gəlmə ermənilər yerli əhalini qovaraq burada yerləşmişlər (bax: 103). 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi. 1940-cı ildə kənd erməncə Sisavan adlandırılmışdır. Başqa adı: Birinci Qarakilsə (yenə orada). 1940-cı ildə Sisyan adlandırılmışdır. 1935-ci ilə qədər Qarakilsə r-nun, 1935-1940-cı illərdə Sisakan r-nun mərkəzi olmuşdur. 1988-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuşdur.

QARAKİLSƏ - Axuryan r-nunda kənd adı. 1935-ci ildə erməncə Azatan adlandırılmışdır.

QARAKİLSƏ - Quqark r-nunda kənd adı. XIX əsrin ortalarında kənddə ermənilər də yerləşdirilmişdir. 1935-ci ildən kənd erməncə Kirovakan adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

QARAKİLSƏ - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 89]. "Abarana tabe olan Qızılburun kəndinin yaxınlığında yerləşən Qarakilsə kəndi" (yenə orada). 1878-ci ildə kəndin əhalisi Türkiyəyə köçdükdən sonra

oradan gəlmə yezid kürdləri yerləşmişlər (6, 163). 1950-ci ildə kənd ermənicə Hartovan adlandırılmışdır.

QARAKİLSƏ - İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı [170, 12]. Mənbədə Karakilsə kimidir [150, 36].

QARAKİLSƏ - Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Taşir r-nunda) kənd adı. XIX əsrə aid mənbədə Qara kilis kimidir [133, 117]. 1978-ci ildə kənd ermənicə Lernhovit adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

QARAKİLSƏ - Abaran r-nunda kənd adı. 1590-cı ildən məlumdur [169, 233]. XIX əsrin ortalarında ondan Kiçik Qarakilsə məntəqəsi yaranmışdır. 1918-1919-cu illərdə kəndin azərbaycanlı əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1935-ci ildə kənd Kirovakan, 1950-ci ildən isə Hartavan adlandırılmışdır.

QARAKİLSƏ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [170, 140]. Mənbədə kəndin həm də Atlıdərə adlandığı qeyd olunur [170, 140].

QARAKİLSƏ  - İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı [23, 117]. "Nəbi qışlağı da adlanır" (yenə orada).

QARAKİLSƏ - Qukasyan r-nunda kənd adı. 1935-ci ildə kənd ermənicə Dzoraşen adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

QARAKİLSƏ TÜRK - Axuryan r-nunda kənd adı. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir.  1945-ci ildə kənd ermənicə Axurik adlandırılmışdır. 1949-cu ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür.

QARAKOLLU - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır.

QARAKUY - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 117). XIX əsrin sonlarından sonra məlum deyil. Əsli Qaraköydür.

QARAKÖYNƏK - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı [133, 117]. Mənbədə İrəvan əyalətinin Məzrə nahiyəsində Qaraköynək kəndinin adı qeyd olunur [170, 15]. Ərəb dilindəki qəryə -"kənd" və Köynük toponimindən ibarətdir. Ehtimal ki, Şərqi Anadoluda orta əsrlərdə Köynük mahalından çıxma elin məskunlaşması ilə bağlıdır. Azərbaycanda Göynük (Şəki r-nu) kəndinin adı da XVIII əsrə aid mənbələrdə Köynək kimi yazılmışdır. XVI əsrdən Qazax mahalında Ağköynək adlı elin yaşaması məlumdur.

QARAGƏDİK  -  Gorus r-nunda xaraba kənd adı.

QARAGİL - İrəvan quberniyasının Eçmiadzin qəzasında qışlaq adı [133]. Qara rəngli gil torpaqla əlaqədardır.

QARAGÖL - İrəvan quberniyasının Eçmiadzin qəzasında göl adı [133].

QARAGÖL - İrəvan quberniyasının Sürməli qəzasında göl adı [133]. 1728-ci ilə aid mənbədə bu göl Qaragöl Arslan kimi qeyd olunmuşdur [170, 19]. Həmin mənbədə İqdır nahiyəsindəki (sonrakı Sürməli mahalı) Qaragöl həm də kənd adıdır [170, 19].

QARAGÖL - Rəvan əyalətinin Zebil nahiyəsində yaylaq adı [169, 334]. Yaylaq oradakı "Qaragöl" gölünün adını əks etdirir.

QARAGÖL - Ələyəz dağının cənub yamacında göl adı (60, 83). Ermənicə Kari-Liç adlandırılmış və deməli, Azərbaycan dilindəki rəng bildirən qara sözü erməni dilində kar "daş" sözü ilə eyniləşdirilmişdir.

QARAGÖL - Gorus r-nunda göl adı.

QARAGÜNEY - İrəvan xanlığının Sürməli mahalında kənd adı [159]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağıdılmışdır. XIX əsrdə Qars əyalətinin Oltin qəzasındakı dağ və həmin əyalətin Kaqızman dairəsindəki Qaragüney kənd adları (133, 116) ilə eyni mənalıdır.

QARAL - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 118]. 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Katinaxpur adlandırılmışdır. Qaral dağının adındandır.

QARALTƏPƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağın adı [133]. Əsli Qara Yaldır. Azərbaycan dilində rəng bildirən qara və yal (dağ yalı) sözlərindən ibarətdir.

QARALAR - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 118]. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. 1978-ci ildə kənd ermənicə Aralas adlandırılmışdır. XIX əsrdə Cənubi Qafqazda mövcud olmuş 10 Qaralar kəndindən [133, 118] biridir. Orta əsrlərdə Anadolu yarımadasında yaşamış Yerük tayfa ittifaqının [bax: 34] Qara elinin adını əks etdirir.

QARALAR - Vedi r-nunda kənd. 1935-ci ildə ermənicə Sevkar, 1978-ci ildə Aralez adlandırılmışdır. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur.

QARALAR - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır.

QARALAR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı (133, 118). 1918-ci ildə əhalisi qovulmuş və kənd dağılmışdır. Orta əsrlərdə Anadoluda yaşamış Yeryük tayfa birləşməsinin Qaralar tayfasının [34] adını əks etdirir.

QARALAR - İrəvan xanlığının Vedibasar mahalında kənd adı. 1828-1832-ci illərdə əhalisi qovulmuşdur [159]. Sonra yenidən məskunlaşmışdır. 1949-cu ildə kəndin əhalisi Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir.

QARAMAN - Göycə mahalında (indi Vardenis r-nu) kənd adı. 1919-cu ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır. Yerli tələffüz forması Qara İmandır. Oğruca da adlanmışdır. Qaraman mənşəcə qədim türk tayfalarından birinin adıdır. [bax: 41]. Tayfa orta əsrlərdə yayı Göycə mahalında, qışı Şəmkir çayının Kürə qarışdığı yerdə "Arani-Şəmkir" adlanan nahiyədə qışlayırdı [167, 206]. Dağlıq Şirvandakı Qaramandağ və Salyan r-nundakı Qaramanlı kənd adları ilə mənşəcə eynidir. 1988-ci ildə kəndin əhalisi qovulmuşdur. 1979-cu ildə kənd Sovetkənd adlandırılmışdır.

QARAMAHMUD - İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı [23, 116]. Ərəb dilindəki qəryə - "kənd" sözündən və Mahmud şəxs adından ibarətdir.

QARAMƏMMƏD CƏLALOĞLU - İndiki Stepanavan r-nunda kənd adı. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Əsli Qəryə-Məhəmməd. Ərəb dilindəki qəryə -"kənd" və Məhəmməd şəxs adından ibarətdir. "Məhəmmədin kəndi" mənasındadır.

QARAMƏMMƏD - Amasiya r-nunda kənd adı. XIX əsrə aid məlumatda kəndin Qars əyalətində yerləşdiyi göstərilir (133, 118). 1590-cı ilə aid mənbədə Qara Məhəmməd kimidir [164, 258]. 1918-ci ildə kənddə Türkiyədən gəlmə ermənilər də məskunlaşdıqdan sonra əhali qarışıq olmuşdur. XX əsrin 30-cu illərində ayrılıqda qalmış azərbaycanlılar sıxışdırılıb çıxarılmışlar. 1946-cı ildə kənd ermənicə Meğraşen adlandırılmışdır. 1728-ci ilə aid mənbədə qeyd edildiyinə görə kənd Ərəbgirli camaatından bir qrup ailənin ayrılaraq kənarda məskunlaşması nəticəsində yaranmışdır [170, 15]. Ərəb dilindəki qəryə -"kənd" sözündən və Məhəmməd şəxs adından ibarətdir.

QARAMƏCİD - İrəvan əyalətinin Karbi nahiyəsində məzrə adı [170, 47]. Mənbədə məzrənin Tərnəqut kəndinə məxsus olması qeyd olunur (yenə orada). Əsli: Qəryə-Məcid, yəni "Məcid kəndi".

QARAMURAD - İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı [23, 115]. Mənbədə kəndin Yusif Mahmud oğlu Krıminə məxsus olduğu qeyd olunur (yenə orada). Əsli Qəryə Muraddır, yəni "Murad kəndi".

QARANAMAZ - Amasiya r-nunda kənd adı. XIX əsrə aid məlumatda kəndin Qars əyalətində yerləşdiyi göstərilir (133, 118). 1838-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş, lakin qayıdaraq yenidən məskunlaşmışdı. 1935-ci ildə kənd Yeniyol adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. 1990-cı ildə kənd ermənicə Aqovorik adlandırılmışdır. XIX əsrdə Qars əyalətinin Qars dairəsində Qaranamaz kəndindən [133] çıxmış ailələrin məskunlaşması nəticəsində yaranmışdır. Əsli: Qəryə Namaz, yəni Namaz kəndi.

QARANƏBİ - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (Noyemberyan r-nunda) qışlaq adı. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq əhalisi qonşu Lənbəli kəndinə köçürülmüş və kənd ləğv edilmişdir. Əsli: Qəryə Nəbi, yəni "Nəbi kəndi".

QARANLIX - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı (113, 118).

QARANLIQ - Göycə mahalında (indi Martuni r-nu) kənd adı. 1948-1951-ci illərdə əhalisi Azərbaycana köçürülmüşdür. 1968-ci ildə ermənicə Qexovit adlandırılmışdır. Keçmişdə geniş yayılmış toponimlərdəndir. XIX əsrdə əsas etibarilə Yelizavetpol və İrəvan quberniyalarında 9 Qaranlıq və Qaranluq toponimi [133] vardı ki, bunlar da əsas etibarilə dərə adlarıdır. Türk dillərindəki kayran -"dil formalı qumlaq", "az sulu çay və ya gölməçə" (126, 242) və "nıq" (lıq) şəkilçisindən ibarətdir.

QARANLIQ - İrəvan xanlığının Abaran mahalında (indi Yexeqnadzor r-nu) kənd adı. 1948-ci ildə kənd ermənicə Lyusaqyuq adlandırılmışdır. 1950-ci ildə əhalisi Azərbaycana köçürülmüşdür.

QARANLIQ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 118).

QARANLIQ - İrəvan quberniyasının Aleksandropol qəzasında çay adı (133, 118).

QARANLIQDƏRƏ - İrəvan r-nunda kənd adı. Əvvəlcə kənd Xavaradzor, sonra isə, 1935-ci ildə Lyusadzor adlandırılmışdır.

QARANLIQ  KAHA  -  Sisyan r-nunda dağ adı.

QARANTA - Abaran r-nunda kənd adı. 1939-cu ildə Məşədi Əzizbəyovun şərəfinə Əzizbəyov adlandırılmışdır. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. 1990-cı ildə kənd ermənicə Areknadam adlandırılmışdır. Əsli: Qəryə-Andi, yəni "Andi kəndi". (Bax: Andi)

QARANÇA - İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı [23, 51]. Qarança toponimi qıpçaqların Anca tayfasının adını əks etdirir (Bu tayfa barədə bax: 78). Qarança "Qəryə-Anca", yəni "Anca kəndi" mənasındadır.

QARANÇA ŞƏTLİ - İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı [23, 51]. (Bax: Küsühlü Şətli və Haramlı Şətli) Əsli: Qəryə-Anca Şadılı (bax: Şadılı).

QARAOCAQ - Vedi r-nunun ərazisində, Dəhnəz kəndinin kənarında,  Qurbanbulaq bulağının yerləşdiyi ərazidə qədim ziyarətgahın adı.

QARAÖRƏN - İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [170, 17]. Rəng bildirən qara və örən  -"xarabalıq" sözlərindən ibarətdir.

QARAÖRƏN - İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı [23, 55].

QARAÖRƏN - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 135]. "Başqa adı Aytoğmuşdur" (yenə orada).

QARAÜZƏN - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 125]. Çıraqlı və İlyaskənd də adlanır (yenə orada). Rəng bildirən qara və üzən -"çay" sözlərindən ibarətdir.

QARAPAPAX - Amasiya r-nunda kənd adı. Tam adı Qarapapax-Güllübulaqdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. XIX əsrin əvvəllərində 800 ailədən ibarət Qarapapax Qazaxların bir elinin adı idi [159]. 1827-ci ildə Nağıxan və İsmayılxanın başçılığı ilə qarapapaqların əksər hissəsi Türkiyəyə köçmüşdü.

QARASAQQAL - İrəvan xanlığının Göycə mahalında kənd adı [159]. 1590-cı ildən məlumdur [169, 326]. XIX əsrin ortalarından sonra mənbələrdə adı çəkilmir. Kəndin əsasını qoymuş nəslin adıdır.

QARASAQQALŞALI - İrəvan xanlığının Göycə mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra kəndin adı mənbələrdə çəkilmir. "Qarasaqqal nəsli" (tayfası) mənasındadır.

QARASU -Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (Noyemberyan r-nunda) kənd adı [133]. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd dağılmışdır.

QARASU - Ararat vadisində bir çayın adı (60, 95). Ermənicə Sevcur adlandırılmışdır.

QARASU - Dilican (İcevan) r-nunda qışlaq adı. 1930-cu illərdə ləğv edilmişdir.

QARASU - Vedi r-nunda Dəvəli dəmiryol stansiyasının yaxınlığında qədim yaşayış məskəninin adı.

QARASUR - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 51]. "Kəndin başqa adı Şəbiklidir" (yenə orada).

QARATAQ - Oktemberyan və Talin rayonlarının sərhəddində bir dağın adı (60, 82). Qaradağ adının qədim tələffüz formasıdır.

QARATAP - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [170, 71] Ərəb dilindəki qəryə -"kənd" və tap -"təpə", "yüksəklik" (bax: Tap) sözlərindən ibarətdir.

QARATƏP - İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [170, 71]. Əsli Qaratapdır.

QARATƏPƏ - İrəvan quberniyasının Novo-Bayazid qəzasında dağ adı [133, 119]. XIX əsrdə Cənubi Qafqazda mövcud olmuş 20 Qaratəpə [133, 19] toponimindən biridir.

QARATƏPƏ - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı (113, 119).

QARATƏPƏ - İrəvan əyalətinin Karbi nahiyəsində (Ararat r-nunda) kənd adı [170, 70]. Zeyvə kəndinin yaxınlığında yerləşir. Mənbədə onun Hacı Osman adlı şəxsə mənsub olması qeyd edilir (yenə orada).

QARATƏPƏ - Rəvan əyalətinin Abnik nahiyəsində kənd adı. Digər adı Dostəlidir [168, 255].

QARATƏPƏ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 119). 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı idi. (169, 62). Mənbədə "Qaracaviran kəndinin məzrəsi" (əkin yeri) kimi qeyd olunmuşdur (yenə orada). Qaratəpə dağının adındandır.

QARATORPAQ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. (133, 119). Başqa adı Xunut-Qaratorpaqdır. 1949-cu ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür və kənd ləğv edilmişdir. Kəndin adı ərazisinin qaratorpaq olması ilə əlaqədardır. XIX əsrdə Tiflis quberniyasının Borçalı qəzasındakı Qaratorpaq dağı, Zəngəzur qəzasındakı Qaratorpaq dağı, Qazax qəzasındakı Qaratorpaq çayı, Şəki qəzasındakı Qaratorpaq kənd adları [133, 119] ilə mənaca eynidir.

QARATORPAQ - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (Krasnoselo r-nunda) kənd adı (133, 119). Digər adı Torpaqdır. 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir.

QARAÜRƏK - İrəvan əyalətinin Gəncə nahiyəsində kənd adı [170, 12]. Ərəb dilindəki qəryə -"kənd" və türk dillərindəki örük - "dayanacaq" [93, 390], "düşərgə" [143, 1, 2, 1223] sözlərindən ibarətdir.

QARAXANLI - İrəvan əyalətinin Zarzəmin nahiyəsində qışlaq adı [23, 120].

QARAXAÇ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133, 120]. Üstündə xaç rəsmi olan daş adındandır. Albaniyada və indiki Ermənistan ərazisində IV əsrin əvvəllərində xristian dini qəbul edildikdən sonra əvvəllər müqəddəs hesab olunan və əhali tərəfindən pərəstiş edilən yerlərdə, bulaqlar üstündə xaç şəkli olan daşlar basdırılırdı. Ermənilərdə belə daşlar - xaçkar (xaç və kar - "daş" cözlərindən) adlanırdı. Sonralar belə xaç daşlar olan yerlər pir hesab edilirdi [139, 9]. Azərbaycanda belə xaç daşlar Dağlıq Qarabağda xüsusilə çox idi. Belə xaç daşlar əsasında yaranmış kəndlərə Xankəndi r-nundakı Uraxaç (Uluxaç adının ermənicə tələffüzü, kənddə "Babı" adlı pirə görə Ulubab da adlanmışdır) və Dağlıq Qarabağdakı Xaçın qalasını aid etmək olar (Xaçın qalası 1223-cü ildə monqollar tərəfindən dağıdılmışdır). Xaçın adının etimologiyası indiyədək aydınlaşdırılmamışdır,

çünki ad ermənicə deyildir. Bu ad xaç (xaç daşı) və qədim türk dillərindəki in -"mağara", "yarıq", "dərə" [126, 234] sözündən ibarətdir. Qaraxaç  "qara rəngli xaç daşı" mənasındadır.

QARAXAÇ - İrəvan əyalətinin Maku nahiyəsində yaylaq adı [23, 42]. Mənbədə yaylağın Musadağda olduğu qeyd olunur (yenə orada).

QARAXAÇ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 131]. "Başqa adı: Qaya" (yenə orada). "Əhalisi Taşanlı əşirətindəndir" (yenə orada).

QARAXAÇ - Rəvan əyalətinin Zebil nahiyəsində yaylaq adı [169, 334].

QARAXAÇ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. 1590-cı ilə aid mənbədə Vedi nahiyəsində kənd adı idi [169, 225].  XVII əsrə aid mənbədə Qaraxaç yaşayış-məntəqə adı yox, yer adıdır [150, 186]. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adıdır və onun Abdullah vələdi Musa adlı bəyə mənsub olması qeyd edilir [170, 70].

QARAXAÇ - İrəvan quberniyasının Aleksandropol qəzasında yaylaq adı [133, 120]. Yaylaq orada sitayiş edilən qara rəngli, üstündə də xaç şəkli olan daşın adındandır.

QARAXAÇ - Ararat r-nunda kənd adı. 1728-ci ildən məlumdur [170, 74]. 1728-32-ci illərdə kənddə xaricdən gəlmə ermənilər də yerləşmiş və əhalisi qarışıq olmuşdur. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi azərbaycanlılardan və ermənilərdən ibarət idi. 1978-ci ildə kənd ermənicə Lyusaşoğ adlandırılmışdır. Qars əyalətindəki Qaraxaç dağının (133, 120) adındandır.

QARAXTİNTƏPƏ - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı [133, 120)]. Rusca karantin sözündəndir.

QARAXƏDİM - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 76]. Əsli Qəryəye -Xadim, yəni  "Xadimə məxsus kənd"dir

QARAXUT - İrəvan quberniyasının Şərur Dərələyəz qəzasında dağın adı (133, 120). Rəng bildirən qara və monqolca xut - "dağ" sözlərindən ibarətdir.

QARAHASAR - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 115)]. XIX əsrin ortalarından sonra mənbələrdə adı çəkilmir. XVII əsrin əvvəllərinə aid erməni dilli mənbədə Kara-Xisar [150],  1728-ci ilə aid mənbədə Qara Hisar [170, 19] kimidir. Yerli əhali içərisində tələffüz forması Qarasardır. Azərbaycan dilindəki qara (ehtimal ki, rəng bildirir) və ərəb dilindəki həsar ("Kitabi Dədə Qorqud"da "qala divarı" mənasındadır. Banıçiçək Beyrəyə deyir: "Əgər səni hasardan aşağı orğanla salındıracaq olursam...") cözlərindəndir. Hasar burada tsiklopik (yunan dilində kiklop "təpəgöz" sözündən) qalaçanı ifadə edir.

QARAHACILI - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1828-1832-ci illərdə əhalisi qovulmuş və kənd dağıdılmışdır (yenə orada). Orta əsrlərdə Anadoluda yaşamış Yerük (yeryük) tayfa birləşməsinin Qarahacılı tayfasının [ 95, 11] adını əks etdirir. Ağqoyunluların bir tayfası da Qarahacılı adlanırdı (34, 160).

QARAHACILI - İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [170, 12]. XIX əsrin II yarısında bu kənd İrəvan quberniyasının Sürməli qəzasında idi (133, 115).

QARAHƏMZƏLİ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 115]. XIX əsrin əvvəllərində əhalisi qarışıq idi. 1918-ci ildə azərbaycanlılardan ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [77, 164]. 1590-cı ildən məlumdur [169, 252]. Ehtimal ki, Qars əyalətində Qara Həmzə kəndindən (133, 115) gəlmiş ailələrin məskunlaşması nəticəsində yaranmışdır. 1728-ci ilə aid mənbəyə görə digər adı "Nəhri-Mustafa" idi [270, 17]. 1935-ci ildə kənd Tamamlı, 1950-ci ildə ermənicə Burastan adlandırılmışdır. Qəryə (kənd) və Həmzəli etnonimindən ibarətdir.

QARA HƏSƏN - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 40]. "Əhalisi Dümbili camaatındandır" (yenə orada). Əsli - Qəryə Həsən, yəni "Həsən" kəndi".

QARA HƏSƏNLİ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı (133, 115). Əsli - Qəryə Həsənli, yəni "Həsənli kəndi". XIX əsrdə Qazax qəzasındakı Qara Həsənli kənd adı (133, 115) ilə mənaca eynidir.

QARA HÜSEYNLİ - İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [23, 64]. Başqa adı Tovuz Könlüdür ( yenə orada). Əsli Qəryə Hüseynlidir, yəni "Hüseynli kəndi".

QARAÇAY - İrəvan xanlığının Sürməli mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra adı mənbələrdə çəkilmir.

QARAÇALU - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 122]. Qaracalı tayfasının (34, 591) adındandır.

QARAÇANLU - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında kənd adı [133, 121]. Başqa adı Zeynallıdır (103, 156). Laçın və Kəlbəcər rayonlarındakı Qaracanlı kəndlərinin adları ilə mənşəcə eynidir. Qaraçanlı orta əsrlərdə Zəngəzurda yaşamış kürd mənşəli maldar elin adıdır [103, 156].

QARAÇANTA - Qars əyalətində (133, 121) sonra Amasiya r-nunda kənd adı. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. 1939-cu ildə Əzizbəyov, 1990-cı ildə ermənicə Areknadam adlandırılmışdır. Qaraçantı (yəni Qaraçanlı) adınd danışıqda təhrifdir.

QARAÇİM - İrəvan xanlığının Sürməli mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır (yenə orada). Azərbaycan dilindəki qara (torpağın rəngini bildirir) və türk dillərindəki çim -"sarmaşıq otunun köklərilə örtülmüş torpaq qatı" [126, 615] sözlərindən ibarətdir.

QARAÇİMƏN - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı [133, 121]. 1918-ci ildə əhalisi Azərbaycana qovulduqdan sonra kənd dağılmışdır. 1922-ci ildə əhali geri qayıtmışdır. 1988-ci ildə əhalisi yenidən Azərbaycana qovulmuşdur. Qara şəxs adından və çəmən -"otlaq", "göylük" sözündən ibarətdir.

QARAÇILI - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. Mənbədə bu kəndin adı "Qaraçılar qışlağı" kimi qeyd olunmuşdur [170, 19]. Özlərini roma, farslarda kouli, tatlarda lolo, türk xalqlarında qırışmal və sığan (rus dilinə keçmiş bu ad türkcə falçı, cadugər, yozucu deməkdir) adlandıran qaraçıların (əslən Hindistanın Karaçi əyalətindən olduqlarına görə) məskunlaşması nəticəsində yaranmışdır. Azərbaycanda Qaraçı (Xaçmaz r-nu), Qaraçökü (Dəvəçi r-nu, "qaraçı" və tat dilində ku "dağ", "təpə"

sözündən), Qaraçı bulağı (İsmayıllı, Ağsu, Şamaxı və b. r-nlar), Qaraçı-Su (Qaradağ r-nu, Sanqaçal qəsəbəsi) və s. toponimlərlə eynidir.

QARAÇLI - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133, 121]. Qaraçian (qaraçı etnonimindən və farsca cəm bildirən an  şəkilçisindən) da adlanmışdır. (Bax: Qaraçılı)

QARAÇINQIL - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 121]. Azərbaycan dilindəki rəng bildirən qara və çınqıl -"vulkan mənşəli daş səpinti", "dağın lava mənşəli kələ-kötürlü səthi" sözlərindəndir.

QARAÇOBAN - İrəvan quberniyasının Aleksandropol qəzasında çay adı [133]. Naxçıvanda Şərur r-nundakı Künnüt kəndi yaxınlığında "Qara Çoban" düzünün adı ilə mənşəcə eynidir.

QARAÇORAN - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı. Yerli tələffüz forması Qaraçurandır. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuşdu [159]. Sonra əhalinin az bir hissəsi geri qayıdaraq yenidən məskunlaşmışdı. 1918-ci ildə əhali yenidən qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Araqyuq adlandırılmışdır. Gətirilmə addır. Kənd Şərqi Anadoluda Qara-Çuran mahalından (113, 116) gəlmiş ailələrin məskunlaşması nəticəsində yaranmışdır. (Bax: Qaraçuran)

QARAÇORAN - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 116]. Mənbədə Qaracuran kimidir (yenə orada). 1918-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır.

QARAÇUBUQ - İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [170, 16].

QARAÇUMAX - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı. (133, 121). XIX əsrin ortalarından sonra mənbələrdə adı çəkilmir. Türk dillərindəki qara (rəng bildirir) və çumak - "yalqız (tək) təpə" [126] sözlərindən ibarətdir. Kənd Qaraçumax təpəsinin adındandır. Qızılbaşların bir tayfası Qara Çomaqlı adlanırdı (24, 193).

QARAÇURAN - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 116]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. (Bax: Qaraçoran)

QARAÇURANLI - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı. Mənbədə Qaracuran kimidir (yenə orada), kənd adı kimi qeyd olunur [23, 107]. 1829-cu ildə kənddə Türkiyədən gəlmə ermənilər yerləşdikdən sonra əhali qarışıq yaşamışdır. 1918-ci ildə kəndin  azərbaycanlı əhalisi qovulmuşdur. Digər adı Qaracaverəndir, yəni "Qaraca xarabalığı" [20, 104]. XIX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd ləğv edilmişdir. (Bax: Qaraçuran)

QARACAABDAL - İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı [170, 94]. Ehtimal ki, şəxs adıdır.

QARACAABDAL - Rəvan əyalətinin Abnik nahiyəsində kənd adı [169, 254].

QARACAVİRAN - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 116]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Qaraca tayfasının adından və viranə (xarabalıq) sözündən ibarətdir. 1590-cı ilə aid mənbədə  Rəvan əyalətinin İrəvan qəzasında Qaracaviran kənd adı çəkilir [169, 62].

QARACAVİRAN - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 41]. Qara rəngə çalan xarabalıq mənasındadır.

QARACAVİRAN - Rəvan əyalətinin Şərabxana nahiyəsində kənd adı [168, 240].

QARACAVİRAN MƏZRƏSİ - Rəvan əyalətinin İrəvan qəzasında kənd adı. Digər adı Qaratəpədir [169, 62].

QARACAQALA - Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 191].

QARACAQALA - Rəvan əyalətinin Şərabxana nahiyəsində kənd adı [169, 240].

QARACAQALA MƏZRƏSİ - Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 59].

QARACAQIŞLAĞI - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 122]. Qaracalar tayfasına məxsus qışlaq mənasındadır.

QARACAYOLÇULU - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 43].

QARACALAR - İrəvan xanlığının Seyidli-Axsaqlı mahalında kənd adı [159]. 1728-ci ilə aid mənbədən məlumdur [170, 35]. XIX əsrin ortalarından sonra adı çəkilmir. Dərələyəz mahalında yaşamış 660 ailədən ibarət Qaracalar tayfasının [159] məskunlaşması nəticəsində yaranmışdır. XIX əsrdə digər Qaracalar adlı el Şirvan düzündə yaşayırdı. 1828-ci ildə Rusiya Şirvan xanlığını tutduqdan sonra Qaracalar eli həmin müharibədə iştirak etmiş general V.Q.Mədətova bağışlanmış və general onu Qarabağa köçürmüşdü. Qarabağda yaşayan Qaracalar yayı Kəlbəcər və Göycə dağlarında keçirirdilər. Ona görə, ehtimal etmək olar ki, Ermənistanda Qaracalar kəndi də bu el tərəfindən yaradılmışdır.

QARACALAR - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 116)

QARACALAR - İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [23, 68]. "Kəndin başqa adı Ağotluqdur" (yenə orada). (Bax: Ağotluq)

QARACALAR - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 81]. "Zar kəndinin yaxınlığında yerləşən Qaracalar kəndi" (yenə orada). "Başqa adı Aşağı Qaraqaladır" (yenə orada).

QARACALAR - İrəvan əyalətinin Dərəçiçək nahiyəsində Şaharbuz kəndinə məxsus məzrənin adı [23, 116].

QARACALI - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 122]. "Heç kim yaşamır" (yenə orada). Oradakı Şahab kəndinə məxsus məzrənin adıdır [23, 77].

QARACALI - İrəvan əyalətinin Qırxbulaq nahiyəsindəki Xaçquş kəndinə məxsus məzrənin adı [23, 87].

QARACA ÖRƏN - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 26]. Mənbədə deyilir ki, "Mehmed vələdi Mahmud" adlı şəxsə (mülkədara) məxsusdur (yenə orada).

QARACARLI - İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [23, 67].

QARA ŞADI - Rəvan əyalətinin Abnik (Avnik) nahiyəsində kənd adı [169, 254]. Əsli Qəryə Şadıdır, yəni "Şadılı kəndi". (Bax: Şadılı)

QARAŞAM ARAŞAMB - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı. Kəndin başqa adı Kələşamdır [20, 104]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. "Kitabi-Dədə Qorqud" eposunda Dərəşam toponimi ilə səslənir. XIX əsrdə Alagöz dağının ətəyində Qaraşam adlı kənd vardı. Ərəb dilindəki qərye -"kənd" və şam (əsli ərəbcə) "qamışlıq" sözlərindən ibarətdir.

QARAŞEN - Gorus r-nunda kənd adı.

QARAŞİM - İrəvan quberniyası Novobayazid qəzasında Dələkli kəndinə məxsus yaylağın adı [136, 32].

QARQASAR - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Azərbaycanda və Ermənistanda "qarğa" sözünün iştirakı ilə düzəlmiş çoxlu toponim vardır. Toponimlərdə bu söz üç mənadadır: 1. Qədim türk mənşəli Karqa tayfasının adını əks etdirir. Qərbi Sibirdə, qırğızlarda və özbəklərdə Karqa tayfası məlumdur (bax: 77). Azərbaycanda Masallı, Xaçmaz və Naxçıvand Qarqalıq kənd adları məhz bu tayfanın adını əks etdirir (yenə orada). 2. Bəzi mikrotoponimlərdə bu söz qarğa quş adını əks etdirir. 3. Bəzi toponimlərdə isə "qarqa" sözü türk dillərindəki karka - "üst-üstə düşmüş buzlaq mənşəli daşlar (qaya parçaları)" [126, 260] sözünün təhrifidir. Qarqasar toponimi də məhz karka və hasar "qalaça", "hörükdaş", "tsiklopik tikinti" sözlərindən ibarətdir. Azərbaycandakı Xırxatala (Zaqatala r-nu) kənd adı ilə mənaca eynidir.

QARĞABAZAR - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 121]. 1829-cu ildə kənddə Türkiyədən gəlmə ermənilər də məskunlaşmışdır. 1918-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdi. 1922-ci ildə azərbaycanlı əhalinin az hissəsi geriyə qayıtmışdı. 1948-ci ildə onlar Azərbaycana köçürülmüşdü. 1965-ci ildə kənd erməncə Haykaşen adlandırılmışdı. Əhalinin hərəkəti ilə əlaqədar olaraq Şərqi Türkiyədən Qarğabazar mahal adının gətirilməsi nəticəsində yaranmışdır. Qarğabazar türkcə karqa - "üst-üstə tökülmüş buzlaq daşı (qaya parçaları)" [126, 260] və bazar sözlərindən ibarətdir. Azərbaycanda və Ermənistanda bir sıra toponimlərdə bazar sözünün dörd mənası müəyyən olunur: 1. Alver yeri mənasında; Azərbaycanda Adnabazar, Astraxanbazar (indiki Cəlilabad), Seyidbazar və s. 2. Bəzi toponimlərdə geniş, açıq yer mənasında: Bazardüzü (Azərbaycanda), Bazaryurd, Bazarqışlaq (Şimali Qafqazda və b.). 3.Türk mənşəli Basar və Bazar tayfasının adını əks etdirir. Qırğızlarda, qaraqalpaqlarda, özbəklərdə, kalmıklarda Bazar (Basar) adında tayfa məlumdur (bax: 77, habelə bax: Г.А.Гейбуллайев. О происхождении некоторых этнотопонимиков Азербайджана (Галагаин, Гайалы, Гаргалыг, Данaчы, Дуванны, Улашлы). ДАН Азерб.ССР, 1978, № 11, s.70). 4. Nəhayət, bəzi toponimlərdə bazar sözü bir şeyin bolluğunu ifadə edir. Qarğabazar toponimində də bazar sözü "karqa"ların bol olduğu yeri bildirir.

XVII əsrin əvvəllərinə aid mənbədə Culfadan bir ağac aralıda Karqabazar kəndinin adı çəkilir [91, 28]. Azərbaycanın Füzuli r-nunda Qarqabazar kənd adı da ehtimal ki, Türkiyədən gətirilmədir. Ərəb müəlliflərinin Bərdə şəhərində əl-Kurki adlı bazarın olması haqqında məlumatına görə Qarqabazar (Füzuli r-nu) toponiminin Kurkibazar (yunanca kurki - "yekşənbə") sözündən ibarət olması haqqında fikir (Ç.X.Mirzəzadə. Qarqabazar toponimi haqqında. "Azərbaycan onomastikası problemləri", Bakı, 1988, s.189) səhvdir. Qarqabazar toponimdəki karqa, qarqa sözü Zaqatala r-nunda Xırxatala və Qarqay kənd adlarında da əksini tapmışdır. Türkmənistanda Kərkidağ və Kərkiarıq toponimləri barədə bax: S. Ataniyazov, göstərilən əsəri s. 182.

QARĞAVƏNG - İrəvan quberniyasının Eçmiadzin qəzasında (Aştarak r-nunda) kənd adı [133, 121]. 1832-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi. Türk dillərindəki karqa - "buzlaq daşlarının yığını" və vəng - "monastır" (kilsə) sözlərindən ibarətdir.

QARĞAGÜDMƏZ - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 93]. Türk dillərindəki karqa "üst-üstə düşmüş buzlaq daşları" (yaxud üst-üstə düşmüş qaya parçaları), farsca kund -"təpə" və türk dillərindəki mes - "dağın (təpənin) gündüşən tərəfi" sözlərindən ibarətdir. Kəndin adı "dağın (təpənin) gündüşən tərəfindəki karqalıq" mənasındadır.

QARĞALI - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra adı çəkilmir. Toponimin mənşəyi barədə iki fikir ola bilər: 1. Karqa tayfasının (bax: 78) adını əks etdirir. 2. Toponim türk dillərindəki karqa -"üst-üstə düşmüş buzlaq daşları" sözündəndir. XIX əsrdə Qars əyalətinin Qars dairəsində Qarqaluq (kənd xarabalığı), Zaqatala r-nunda Qarqalı (dağ), Naxçıvanda Qarqalıq (kənd) [133, 121], Qazaxıstanda Karqalı [108, 127] toponimləri ilə mənşəcə eynidir.

QARQALI - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı. XIX əsrin ortalarından sonra adı çəkilmir.

QARQALI - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı. XIX əsrin ortalarından sonra adı çəkilmir.

QARQALI - Yelizavetpol quberniyasının Zəngəzur qəzasında dağ adı [133, 121]. Azərbaycandakı Qarqalı dağının (Zaqatala r-nu) adı (133, 121) ilə mənşəcə eynidir.

QARQALIQ - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 3]. Türk dillərindəki karqa -"üst üstə düşmüş buzlaq mənşəli daş (qaya)" [126, 260] sözündəndir.

QARQADAŞI - Mehri r-nunda kənd adı.

QARQANKTƏPƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133, 121]. Mənbədə Karqank-təpə kimidir (yenə orada). XIX əsrdə Şimali Qafqazda, Dağıstan əyalətinin Kaytaq-Tabasaran dairəsindəki Karqan-Tau, Azərbaycanın Qazax qəzasındakı Karqandağ dağlarının adları [133, 121] ilə eynidir. Dağlıq Qarabağda təhrif olunmuş şəkildə Kərkənc kənd adında qalmışdır. (Bax: Karqan)

QARĞILI - İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 42].

QARĞILIQ - İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 36].

QARYURD - İrəvan quberniyasının Novobayazid qəzasında Bığlı-Hüseyn Saraclı kəndinə məxsus yaylağın adı [136, 32].

QARIŞBAĞ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. 1919-cu ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

QARINBURUN - İrəvan quberniyasının İrəvan qəzasında (Abovyan r-nunda) kənd adı [133]. 1590-cı ilə aid məlumatda Rəvan əyalətinin Karpi nahiyəsində Harniburun (169, 208), 1728-ci ilə aid mənbədə Xarınburun (170, 9) kimidir. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağılmışdır. Oradakı qarın formalı dağ

burnunun adındandır. Azərbaycandakı Pir-Qarın (Əli Bayramlı r-nu) dağ adı ilə mənaca eynidir. Türk dillərindəki qarın -"quru çay yatağı" (126, 55) və dağ burnu sözlərindən də ola bilər.

QARINRAQTAQ - İrəvan əyalətinin Karpi nahiyəsində kənd adı. Mövsümlü kəndinin nəzdində məntəqə adı [170, 9].

QARNAKER - Mənbədə Göycə mahalında kənd adı [150, 361]. Qarni (bax: Qarni) və türk dillərindəki kır -"dağ", "yüksəklik" [126] sözlərindən ibarətdir.

QARNİÇAY - İrəvan quberniyasının İrəvan qəzasında çay adı (133, 56).

QARNİ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. Ondan əvvəl Qarni nahiyəsi adlanırdı. Hələ XI əsrə aid mənbədə [110, 132] "Qarni əyaləti" ifadəsi işlədilmişdir. Qarni həm də oradan axan çayın adıdır. İrəvan əyalətində ən qədim toponimlərdəndir. III əsrdə Azadçay dərəsinin üstündə Qarniçay sahilində tikilmiş qala xarabalıqları vardı. İlk dəfə V əsrə aid erməni mənbəyində qeyd olunur. (Favst Buzand, III kitab, 8-ci fəsil).Türk mənşəli addır. XIX əsrdə Şimali Qafqazda Maykop dairəsindəki Qarna (133, 56), Dağıstan əyalətinin Kaytaq-Tabasaran dairəsindəki Qarinçay (133, 56), Ter əyalətinin Vladiqafqaz dairəsindəki Qarnik-Mke (kurqan adı) (133, 56) toponimləri [133, 56] ilə mənaca eynidir. Karni toponiminin adı Gürcüstanda 1447-ci ilə aid sənəddə çəkilmişdir (Qruzinskie dokumentı IX-XV vv. M.1982, s.161). Yelizavetpol (Gəncə) quberniyasında Qarna-Ker (133, 56), Sisyan mahalında 1728-ci ildə [170, 162] "Nahiyeyi-hərni" (Qarni adından təhrif) və Qarnıx (133, 56), 1727-ci ildə Dağlıq Qarabağda Hərnə-Gərək [171], XIX əsrdə Sürməli qəzasında Karnıx (133, 122) və nəhayət, Anadoluda Karin toponimləri də bu sıraya aid edilə bilər. Qədim türk dillərindəki (qədim bulqar dilindəki) kar -"şəhər", "qala", "möhkəmləndirilmiş yer" [126, 254] sözündəndir. Türk dilli çuvaşlarda indi də kar -"şəhər", "qala", "möhkəmləndirilmiş yer" sözü vardır. (bax: Ономастика Поволжйе". Горький, 1971, с. 167).

QARNIYARIQ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133]. 1935-ci ildən Atarbekyan (Axta r-nu) adlandırılmışdır. 1728-ci ilə aid mənbədə "el məşhur Karniyaruq" kimidir [170, 42]. XIX əsrin ortalarında Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi [136]. Digər adı Karvansaradır [133]. Qarnıyarıq dağının adındandır.

QARNIYARIQ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 122]. Pəmbək dağ silsiləsinin zirvələrindən birinin adıdır [159]. Vulkan mənşəli bu dağın krateri qərbə tərəf yarıq olduğuna görə belə adlanmışdır. XVII əsrdə Cənubi Azərbaycanda Salmas əyalətindəki Qarnıyarıq qalasının [57, 48] adı ilə mənaca eynidir.

QARNIYARIQ - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı [133, 122].

QARNIYARIQ - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı [133, 122].

QARNIX - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 122]. Mənbədə Qarneqi kimidir [150, 362]. Qarni adının təhrif formasıdır. (Bax: Qarni)

QARXUN - İrəvan xanlığının Sərdarabad mahalında kənd adı [159]. 1728-ci ildən məlumdur [170, 3]. XIX əsrin II yarısında digər Qarxun kəndi yarandığına görə Yuxarı Qarxun da adlanmışdır. XIX əsrdə Cənubi

Qafqazda mövcud olmuş 5 Karxun adlı kənddən [133, 123] biridir. Səlcuq oğuzlarının Karkın tayfasının adını əks etdirir. (Türkmənistanda Qarkın etnotoponimi haqqında bax: S.Ataniyazov. Turkmenistanın qeoqrafik atlarının düşündirişli sözlüqi. s. 97). (Bax: Yuxarı Qarxun) Türkiyədə Karkın adlı 63 kənd vardır (34, 412-413).

QARCIQA - İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 120].

QASABLI - Rəvan əyalətinin Karpi nahiyəsində kənd adı. Digər adı Əshabludur [169, 211].

QASIMAĞILI - Rəvan əyalətinin Aralıq nahiyəsində məzrə adı [169, 269]. Qasım şəxs adından və ağıl -"qoyun salınan yer" sözündən ibarətdir. Qışlaqda məzrə (əkin yeri) adını əks etdirir.

QASIMBAŞI - İrəvan quberniyasının Novobayazid qəzasında iki kəndin adı [133, 123]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. Oradakı "Qasımbaşı" təpəsinin adındandır.

QASIMƏLİ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 123]. Mənbədə İrəvan əyalətinin Qarni nahiyəsində qışlaq yeri kimi qeyd olunur [23, 50]. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. (6, 164). 1940-cı ildə kənd erməncə Qetapi adlandırılmışdır. Əsl adı Qasımlıdır. 1728-ci ilə aid arxiv mənbəyinda Qasımlı kimidir [170, 142]. Həmin mənbədə Qasımkənd adı da çəkilir və "el məşhur Avşar" adlandırılır [170, 142]. İranda XIX əsrdə Əfşar tayfasının bir qolunun adı Qasumlu idi.

QASIM-TIÇ  - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı (133, 57).

QASIMCAN - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. 1919-cu ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Mənbədə İrəvan əyalətinin İqdır nahiyəsində (sonra İrəvan xanlığının Sürməli mahalında) iki Qasımcan kəndinin adı qeyd olunur [170, 18, 19]. Ehtimal ki, Qasımcan şəxs adındandır.

QASIM ƏLİ QIŞLAĞI - İrəvan əyalətinin Qarni nahiyəsində qışlaq adı [23, 49].

QATAR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Qafan r-nunda) kənd adı [133, 124]. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdu. Kəndin tam adı "Qatar şam"ı olmuşdur. Azərbaycanda və Ermənistan ərazisində bir sıra toponimlərdə "qatar" və "qatır" sözünün dəqiq mənasını müəyyən etmək çətindir. İlk dəfə "Alban tarixi"ndə Albaniyada Katarvəng ("Alban tarixi", II kitab, 6-cı fəsil) və Kataray (I kitab, 34-cü fəsil) toponimləri qeyd olunur. XIX əsrdə Tiflis quberniyasının Axalsix qəzasındakı Kater-Yurt, İrəvan quberniyasının Sürməli qəzasındakı Katerlu dağı və Katerlu adlı iki kənd [133],  Tiflis quberniyasının Siqnax qəzasındakı Katar dağ beli, həmin quberniyanın Tioneti qəzasındakı Kataris-Xevi çay adı, İrəvan quberniyasının Katar-Qain keçidi, Aleksandropol qəzasındakı Katarqaya, Zəngəzur qəzasındakı Katar-Daş dağı [133, 124], Quba r-nundakı Qaytar-Qoca dağı adları göstərir ki, bu toponimlərin bəziləri Katar (Qatar) tayfa adını, bəziləri Azərbaycan dilində  qatar -"cərgə", "zəncirvari (qaya, təpə)", bəziləri isə türk dillərində  kadır -"sıldırım", "yarğanlı" (Altayda bu sözdən düzəlmiş dağ adları barədə bax: O.T.Молчанова. Структурные типы тюркских топонимов Горного Алтая. 1982, с. 115) sözünü əks etdirir. Lakin bəzi toponimlərdə (məsələn, Yevlax r-nunda Qatırölən toponimi) bu,  qatır (heyvan adı) sözündən ibarətdir. XIX əsrin

ortalarında Qaraqoyunlu kəndinin (Novobayazid qəzası) Çalmalı dağındakı yaylaq yeri yurdu da Qatar adlanırdı [136, 34].

QATARQAYA - İrəvan quberniyasının Aleksandropol qəzasında yüksəklik adı (133, 124).

QATARGÖL - XVIII əsrin ortalarında İrəvan əyalətinin Abaran nahiyəsində monastır adı [150, 358]. Ermənicə yazılışda bu, vəng, həm də Dzaqavang kimi göstərilir (yenə orada). Dzaqavank isə azərbaycanca Zaqavənk (zağada, yəni, mağarada yerləşən kilsə) adının ermənicə tələffüzüdür (bax: Zağa kənd adı). Ermənicə mənbədə bu monastırın həm də Çayqaytaran adlandığı qeyd olunur (yenə orada). Monastıra Dzaqovank, Dzaq, Avan, Şahab, Aramus, Aqasor və Araxus kəndləri tabe idi (yenə orada). Bu məlumatdan görünür ki, islamdan qabaq indiki Ermənistan ərazisində yaşamış türklərin də monastırları olmuşdur. Həmin mənbəyə görə Yelqovan və Şahab kəndləri arasındakı "Bazaraşen" adlı əkin sahəsi də bu monastıra məxsus idi.

QATIRABAD - İrəvan xanlığının Sərdarabad mahalında (Oktemberyan r-nunda) kənd adı [159]. Digər adı Abdullabaddır. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Katar tayfasının adını əks etdirir. (Bax: Qatar)

QATIR QALASI - İrəvan quberniyasının Zəngəzur qəzasında xaraba kənd adı [133, 124]. Yaxınlıqdakı Katar (Qatar) qalasının xarabalığının adındandır.

QATIRYATAĞI - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 96].

QATIRLI - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. Adı 1590-cı [167, 255] və 1728-ci ilə aid mənbələrda qeyd olunmuşdur. Qatırlı dağının adı ilə adlanmışdır. (Bax: Qatırlı dağı)

QATIRLI - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı [133, 124]. XIX əsrin II yarısında ədəbiyyatda Katerlu kimi qeyd olunmuşdur. Əsl adı Qatarlıdır. Ehtimal ki, Qatar (Katar) tayfasının adındandır. (Bax: Qatırabad)

QATURUÇAN - İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı. Tərnəvit (bax) kəndində məzrə adı kimi qeyd olunur [170, 17].

QAXSI - İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı [23, 116]. XIX əsrin II yarısında İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı (133, 124).

QAFAN - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanda r-n mərkəzi) kənd adı [133]. 1930-cu ildən Qafan r-nun mərkəzidir. 1988-ci ildə azərbaycanlı əhalisi qovulmuşdur. Kıqı və Oxçu çaylarının birləşdiyi yerdə, Zeyvə kəndinin yaxınlığında, dağ başında olan qədim Qafan qalasının adındandır. XIX əsrdə qala həm də "Qotur qalası" adlanırdı [129, 212]. X əsr ərəb müəllifi Əbu Dulafın əsərində Qaban (12), 1074-cü ilə aid hadisələrdə erməni mənbəyində (Армянские источники о монголах - М. 1962) Kapan, XIII əsrə aid mənbədə Kafan [129, 212] kimidir. XVII əsrə aid erməni mənbəyində Kafan kimi yazılmışdır [57, 281]. Mənşəcə erkən orta əsrlərdə Albaniyada və indiki Ermənistan ərazisində məskunlaşmış qədim türk mənşəli peçeneqlərin Kapan tayfasının adını əks etdirir [79, 106]. 1588-ci ilə aid arxiv sənədində Tovuz nahiyəsindəki Kapanlu tayfasının [167, 208] və hazırda Azərbaycandakı Qapanlı kəndlərinin adları ilə mənşəcə eynidir. XIX

əsrdə Qars əyalətinin Ardahan dairəsindəki Kapan (133, 113), Stavropol əyalətinin Açikulak dairəsindəki Kafan-bay-tübə (133, 124), Ter əyalətindəki Kafantı (yenə orada) adları ilə mənşəcə eynidir. XIX əsrdə Qars əyalətinin Ərdahan dairəsindəki Kapan (133, 113), Kutais quberniyasının Senak qəzasındakı Kapana (133, 113), Batum əyalətindəki Kapan-dibi (133, 113) Stavropol quberniyasındakı Kafan (133, 124), Şimali Qafqazda Ter əyalətinin Vladikavkaz dairəsindəki Kafantı (133, 124) kənd adları ilə sıra təşkil edir. Peçeneqlərdən əvvəl bu mahal Aband (ermənicə yazılışda "h" səsinin əlavə olunması ilə Haband, yaxud Habant) adlanmışdır. Abant Albaniya ərazisində üç bölgədə məskun olan bir qədim türk mənşəli tayfanın adı olmaqla Aban etnonimindən və qədim türk dillərində cəm bildirən "t" şəkilçisindən ibarətdir (79, 78). Abant adlı çayın adı ilk dəfə er. əv. 65-ci ildə Roma ordusu ilə Alban ordusu arasında (bir fikrə görə indiki Elçiginçay sahilində) baş vermiş döyüşlə əlaqədar olaraq antik mənbələrdə çəkilir [79, 78]. Abant mahal adı "Alban tarixi"ndə ("Alban tarixi", I kitab, 14 fəsil) Artsaxda qeyd olunur. VII əsrə aid ermənicə bir mənbədə Artsaxdaki Abant mahalı Myus-Haband ("Başqa Aband") adlandırılmışdır [59, 49]. Bu Aband mahalı orta əsrlərdə peçeneqlərin Vərəndə tayfasının adı ilə Vərəndə adlanmışdır. Lakin 1727-ci ilə aid mənbədə Dağlıq Qarabağda Evan kəndi vardı. Moisey Xorenasi isə Sisakanda Haband adını çəkir (III kitab, 3-cü fəsil). Myus-Haband dedikdə bu mənbədə Albaniyanın şimal-qərbindəki Aban yox, məhz Sisakandakı Abant nəzərdə tutulur. XIII əsr müəllifi Stepan Orbelian Qafanın yerləşdiyi ərazidə Haband adını qeyd etmişdir. Həmin müəllif Sisakanın (XIV əsrdən sonra Zəngəzur adlanan mahalda) Zor (ermənicə yazılışda Dzork) mahalında ermənicə Balaberd adlanan qalanı "indi Kapan" kimi səciyyələndirir. Qeyd etmək lazımdır ki, XIX əsrin ortalarında da Qafan yaşayış məntəqəsinin bir hissəsi Haband adlanırdı.

QAFARLI - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. 1918-ci ildə kəndin əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Qazaxların Qafarlı tayfasının məskunlaşması nəticəsində yaranmışdır. Tayfanın adı isə mənşəcə xəzərlərin erkən orta əsrlərdə Kabar tayfasının adının danışıqda fonetik dəyişikliyə uğramış formasıdır.

QAXMAXUT - Şirak dağ tirəsinin zirvələrindən birinin adı (60, 83). Mənası aydın olmayan "qaxma" və monqolca xut - "zirvə" sözlərindən ibarətdir.

QAXNUT - Qafan r-nunda kənd adı (60, 83).

QAXSI - İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı (23, 116).

QAXUTTƏPƏ - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı [133]. Türk dillərindəki kax -"qala" [126, 265] sözündəndir.

QAHABLI - İrəvan əyalətinin Abaran nahiyəsində Qalacıq kəndinə məxsus məzrə adı [23, 110].

QAÇAĞAN - İrəvan quberniyasının Aeksandropol qəzasında (Spitak r-nunda) kənd adı 1878-ci ildə kənddə Türkiyədən gəlmə ermənilər də məskunlaşmışdı (6, 164). 1886-cı ilə aid məlumata görə kəndin əhalisinin əksəriyyəti erməni idi. 1918-1920-ci illərdə kəndin Azərbaycanlı əhalisi qovulmuşdu. 1946-cı ildə kənd ermənicə Lernavan, 1978-ci ildə Arevadzaq adlandırılmışdı. XIX əsrdə Şimali Qafqazda Stavropol quberniyasının Açi-Kulaq dairəsindəki Koçeqan-Tübə [133] və Tiflis quberniyasının Borçalı qəzasındakı Qaçaqan kənd adları ilə mənşəcə eynidir. 1728-ci ilə aid mənbədə Tiflis əyalətinin Ağcaqala nahiyəsində Saral oymağının Böyük Qaçağan, Orta Qaçağan və Kiçik Qaçağan

camaatlarının yaşaması, həmin əyalətin Pətək nahiyəsində Qaçağan adlı kəndin olması qeyd edilmişdir [31, 161]. Bu məlumatdan aydın olur ki, Qaçağan türk mənşəli bir elin adıdır.

QAÇAĞAN - Alaverdi r-nunda kənd adı (60, 83).

QAŞATAQ - Göycə bölgəsində bir dağ zirvəsinin adı (60, 83). Türk dillərindəki qaş (dağın qaşı) və taq -"daq" (bax: Arataq) sözlərindən ibarətdir.

QAÇANUÇAN - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (Krasnoselsk r-nunda) kiçik kənd adı. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd dağılmışdır.

QAÇADKİN - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (Sisyan r-nunda) kənd adı. XX əsrin əvvəllərində kənd dağılmışdır.

QACARABAD - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133,107]. Mənbədə qışlağın adı kimi göstərilmişdir (yenə orada). XVII əsrdə monqolların tərkibində İrana və Cənubi Qafqaza gəlmiş qədim türk mənşəli Qacar tayfasının adından və abad -"kənd" sözündən ibarətdir. Ermənicə İsakuni adlandırılmışdır. XVI əsrdə Qızılbaş tayfalarından biri olmuş [16, 36] Qacarlar sonrakı əsrlərdə İranın və Azərbaycanın siyasi həyatında mühüm rol oynamışlar. İranda 1795-ci ildən 1926-cı ilə qədər hakimiyyət bu tayfaya məxsus idi. XIX əsrdə Tiflis quberniyasının Tiflis qəzasındakı Kacardağ, Göyçay, Cavanşir, Şamaxı və Şuşa qəzalarındakı Kacar kənd adları (133, 107) ilə mənşəcə eynidir.

QACARAN - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı [133, 107]. Mənbədə Kac-Aran kimidir (yenə orada). XVIII əsrin əvvəllərinə qədər mənbələrdə çəkilmir. XIX əsrin ikinci yarısına aid məlumatda Keçavan kimidir [103, 150]. Qacaran bu adın ermənicə təhrif formasıdır. Azərbaycan dilində köç (köçəbə) və Aban (Avan) etnonimindən ibarətdir. Bax: Avan və Qafan.

QAŞQA - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [23, 57].

QAŞQA - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. 1948-ci ildə əhalisi Azərbaycana köçürülmüş və ermənilər yerləşdirilmişdir. 1948-ci ildə kənd ermənicə Vardaşat adlandırılmışdır. 1728-ci ilə aid mənbədə Kaşka kimidir [170, 15]. Ehtimal ki, İranda yaşayan Kaşkay türk tayfasının adını əks etdirir. Kaşkayların mənşəyi qaranlıqdır. Ehtimal ki, xakaslarda Kaska və Aq Kaska tayfaları (Baskakov N.A. Gtnonimı altayüev, kirqizov, tuvinüev i xakasov kak istoçnik gtnoqenetiçeskix svəzey gtix narodov mejdu soboy. "Onomastika Kirqizii. I, 1985, s. 23) tayfaları ilə eyni mənşəlidir.

QEQAM - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra mənbələrdə bu kəndin adı çəkilmir. Bax: Göycə.

QEYQAÇ - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. XIX əsrə aid ədəbiyyatda həm də Keyqaç kimidir. (133, 128) XIX əsrdə Naxçıvan qəzasında Keyqaç kəndinin [133, 128] adı ilə eynidir.

QELO - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1828-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovluduqdan sonra kənd dağılmışdır. Qədim türk tayfalarından olan karlukların bir qolu Qelu

adlanmışdır. VI-VII əsrlərdə mövcud olmuş Türk xaqanlığı dağıldıqdan sonra yaranmış tayfadır. Hələ oğuzların Kiçik Asiyaya gəlməsinədək buralarda Xələc, Qanlı vı Qıpçaqlarla yanaşı karluqlar (gelular) da olmuşdur. Bu tayfanın digər adı Üç Oğuzdur. Azərbaycanda təhrif olunmuş şəkildə Xaçmaz r-nunun Hülövlü (əsli Qelolu) kəndinin adında qalmışdır. Karluqların Çigil qolunun adı isə Azərbaycanda Cigilçayın adında əksini tapmışdır.

QERQAÇ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1828-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. 1728-ci ilə aid mənbədə Qorqaç kimidir [170, 108]. Həmin əsrə aid ermənicə mənbədə Kotayk mahalında Qorqaç kəndinin adı qeyd olunur [150, 362].

QƏVƏLİ - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı (133, 72).

QƏDİM AĞBULAQ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 84]. Ondan yeni kənd (Yeni Ağbulaq) yarandıqdan sonra Qədim Ağbulaq adlanmışdır.

QƏDİM DEHGƏDƏ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 84].

QƏDİM YOLÇƏKƏN - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 96].

QƏDİM ÖRDƏKLİ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 81]. "Kəndin başqa adı Qaraçılardır" (yenə orada).

QƏDİM TALIŞ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 90].

QƏDİRDAMI - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Dilican r-nunda) qışlaq adı. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd dağılmışdır [20, 76]. Qədir şəxs adından və dam (qışda mal-qara salmaq üçün tövlə) sözündən ibarətdir.

QƏDİRLİ - İrəvan xanlığının Vedibasar mahalında kənd adı. 1948-1951-ci illərdə əhalisi Azərbaycana köçürülmüş və ermənilər yerləşdirilmişdir. 1968-ci ildə kənd ermənicə Lancanik adlandırılmışdır. Orta əsrlərdə Qars əyalətində yaşayan Dəmirçilər, Qaramanlu, Zakirlu, Varsaq, Qovurcalu, Zəlmanlu və Əkinçilər tirələrindən ibarət bir elin [34, 203] adını əks etdirir. Bu el Dul-Qədirli də adlanmışdır [34, 184-185].

QƏDLİ - 1590-cı ildə Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı [169, 224].

QƏZƏNFƏRKƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [23, 112].

QƏZƏNFƏR KÖHNƏ - İrəvan xanlığının Abaran mahalında kənd adı [159]. 1590-cı ildən məlumdur [169, 238]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. 1948-ci ildə kənd ermənicə Araqats adlandırılmışdır. 1728-ci ilə aid mənbədə adı çəkilir [170, 105]. 1588-ci ilə aid məlumata görə qışı Gəncə sancağının Ahiştabad aranında (yəni qışlaq yerində) keçirən bir el adı idi [167, 216]. XIX əsrdə Sürməli qəzasında Kaznafar kənd adı ilə (133, 108) əlaqəsi məlum deyil.

QƏZƏNFƏR TƏZƏ - İrəvan xanlığının Seyidli-Axsaqlı mahalında kənd adı [159]. Qəzənfər kəndindən çıxmış ailələrin məskunlaşması nəticəsində yaranmışdır.

QƏLƏNDƏR QIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 120].

QƏMƏRAN - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanda Qafan r-nunda) kənd adı. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır. Əsli Qom-Aran. Qomaran dağının adı ilə adlanmışdır. Bax: Qomaran dağı.

QƏMƏRLİ - İrəvan xanlığının Karbibasar mahalında kənd adı [159]. 1930-cu ildən Qəmərli r-nunun, 1945-ci ildən Artaşat r-nunun mərkzi olmuşdur. 1945-ci ildə kənd ermənicə Artaşad adlandırılmışdır. XIX əsrin əvvəllərində əhalisi qarışıq kəndlərdən idi. 1918-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1922-ci ildə əhalinin bir hissəsi qayıtmış, lakin XX əsrin 30-cu illərində onlar sıxışdırılıb çıxarılmışdır [20, 196]. 1588-ci ilə aid mənbədə qışı Qarabağda, yayı Ermənistanda keçirən Kamerlu-ye Atik və Kamerlu-ye Cədid tayfalarının adları qeyd olunur [167]. Mənşəcə er.əv. VIII əsrdə şimaldan Cənuba Qafqaza gəlmiş qədim türk mənşəli Kəmər (Qəmər) tayfasının adını əks etdirir. Bax: Kəmərli.

QƏMƏRLİ - Eçmiadzin r-nunda kənd adı. 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Metsaxor adlandırılmışdır. Tam adı Başgözlü-Qəmərli. Qədim türk mənşəli Qəmər (Kəmər) tayfasının adını əks etdirir. Bax: Kəmərli.

QƏNİMLİ - 1590-cı ildə Rəvan əyalətinin Ərmus nahiyəsində kənd adı [169, 252].

QƏRARCIQ - 1590-cı ildə Rəvan əyalətinin Abnik nahiyəsində kənd adı [169, 255].

QƏRQƏR - İrəvan əyalətinin Şərur Dərələyəz qəzasında kənd adı (133, 61). Qədim türk mənşəli Qarqar tayfasının (Bax:79) adını əks etdirir. XIX əsrdə Borçalı qəzasında Qərqəri və Qərqərçay, Elizavetpol qəzasında Qərqər, Şuşa qəzasında Qərqər (133, 61), Qars əyalətində Qarqara (133, 56), Şuşa qəzasında Karkarçay (133, 122), Dağıstan əyalətinin Teymurxanşura dairəsində Karkar (133, 122) toponimləri ilə mənşəcə eynidir.

QƏRİBQAYA - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [132]. 1919-cu ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Qərib şəxs adından və qaya sözündən ibarətdir.

QƏTRAN - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 130)]. 1948-ci ildə kənd ermənicə Qetamic adlandırılmışdır. XVII əsrin əvvəllərinə aid ermənicə mənbədə Ketron kimidir [150, 362]. Əsli Qət-Aran. Türk dillərində kat "dağın gündüşən tərəfi" [126, 167] və ran "yemlik ot" [108, 186] ya da aran "qışlaq" sözlərindən ibarətdir. XIX əsrdə Qars əyalətinin Qars dairəsində Qətranlu kənd adı ilə [133] mənaca eynidir. Toponimin kət (kat) sözü Kəti-Qot, Kətidağ (bax) və XIX əsrdə Kutaisi quberniyasının Şaropan qəzasında Kedis-Tavi (dağ adı) və Tiflis quberniyasının Axalsix qəzasında Keti-Su (çay adı) toponimlərində [133] əksini tapmışdır. Bax: Kətidağ.

QƏHRƏMAN YURDU - Tumanyan r-nunda qışlaq adı. 1918-1920-ci illərdə dağıdılmışdır. Qəhrəman şəxs adından və yurd (qışlaqda elin məskun olduğu yer) sözündən ibarətdir.

QİYASQIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 120].

QİLYUT - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133, 61]. XIX əsrdə Qars əyalətinin Ərdahan dairəsində Kilyat (kənd xarabalığı) və Dağıstanın Samur dairəsində Külid (kənd adı) [133] toponimləri ilə mənşəcə eynidir. Ehtimal ki, fars dilində kilid (kelat) "qala" sözündəndir.

QİLİCAN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [167, 24].

QİRƏQAZAR - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. Ehtimal ki, ya ərəbcə qəryə "kənd" sözünün təhrifi, ya da türk dillərində kora (yerli əhalinin tələffüzündə - qirə) "yataq" (qoyun yatağı) [143, II, I, 550], yaxud kair "sıldırım" (bax: Abdulxeyir) sözündən və xəzər etnonimindən ibarətdir.

QIVRAQ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) kənd adı. 1590-cı ildən məlumdur (169, 364).1727-ci ildə kənddə 5 azərbaycanlı ailəsi yaşayırdı [32, 238]. XIX əsrin ortalarında Sofulu tayfasının qışlaqlarından (bax: Acıbac) biri idi (103, 166). XIX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq ləğv edilmiş, əhalisi qonşu Sofulu kəndinə köçürülmüşdür. Kəngərlərin Sofulu tayfasının Naxçıvandan özləri ilə gətirdikləri addır. Naxçıvanda Qıvraq toponiminin özü isə qədim türk dillərində qiy "kənd" və örək "qala", "möhkəmləndirilmiş yer" sözlərindən ibarət adın təhrifidir.

QIZQALA - İrəvan quberniyasının Novobazid qəzasında kənd adı [133, 152]. 1918-ci ildə əhalisi qovulmuş və 1915-ci illərdə Türkiyədən gəlmiş ermənilər yerləşdirilmişdir. Yaxınlığındakı "Qız qala" qala xarabalıqlarının adındandır. Azərbaycanda və Ermənistanda xalq arasında çoxlu "Qızqala" yaxud "Qız qalası" adlandırılan qədim qalalar vardır. XIX əsrdə Qafqazda 6 Qızqala, 7 Qızqalası kənd adı vardı. Azərbaycan ərazisində bəzi "Qızqala"lar bunlardır. 1. Bakıda, hünd.28 m, diametri 16-16,5 m olan səkkiz mərtəbəli, silindrik formalı qala. Divarının qalınlığı aşağıda 5, yuxarıda 4 m. Yerli əhali içərisində keçmişdə Xunsar da adlanmışdır ki, bu da əslində Azərbaycan dilində gün (günəş) və sarı (tərəfə) sözlərindən ibarət olub, "Günəşə tərəf (gün çıxana) istiqamətlənmiş" deməkdir. Qalanın nə məqsədlə tikildiyi indiyədək müəyyən edilməmişdir. (Qara Əhmədov. Qız qalası haqqında yeni mülahizə. "Elm və həyat", № 7,  1986). Zəngəzur qəzasının Sisyan mahalında Şəhərcik kəndi yaxınlığında dağda Qızqalası qalasının adı ilə mənaca eynidir.

2. Gəncə şəhərinin 10 km-liyində, Yalqışlaq kəndinin şərqində "Qızqala" dağında qala. Qoşqar çayının səviyyəsindən 180-200 m yüksəklikdə yerləşir. Qalanın arxa və yan tərəfləri sıldırım qaya, ön tərəfi qalınlığı 2, uzunluğu 4-5, hündürlüyü isə 5 m olan süni divardır (3.Atakişiyev, A.Aslanov. Gəncə Qız qalası, "Elm və həyat" № 10, 1985, c.15).

3.Zəngilan r-nun Vejnəli kəndinin 6 km-liyində. "Qız qalası" qayasında (hünd. 1023 m) qala. Qala qayanın üzərində 5 min kv. km. sahəni əhatə edir. Möhtəşəm qala divarları ilə əhatə olunmuşdur.

4.Qəbələ r-nun Zalam kəndindən 3 km şərqdə Sırt-Yengicə və Yengicə kəndləri arasında dağın üstündə qala. Hünd. 100 m-ə qədər olan dağ adıdır.

5.Şəki r-nun Aydınbulaq kəndi ərazisində qüllə - qala. "Ağcaqala" və "Meydanqala" da adlanır. Çay daşlarından dördkünc planda tikilmiş üçmərtəbəli qaladır.

6. İsmayıllı r-nunda Axox çayının sağ sahilində Xanəgah kəndindən 4-5 km şimalda yüksək dağın üstündə 1,5 hektarlıq sahədə qala. Qərb tərəfi sıldırım yamac, şərq tərəfi Axox çayının yatığının qayalığı ilə əhatə olunmuşdur.

7.Şərur r-nunun Aşağı Yaycı kəndi yaxınlığında, Arpaçay su anbarının kənarında sıldırım dağ üzərində "Qız qalası" qala xarabalığı.

8.Şəki r-nunda Çay-Qaraqoyunlu kəndindən 2 km cənubda "Qaladağ" adlanan dağın döşündə təxminən 30-40 m sahədə qədim "Qız qalası" adlanan qala.

9. Gədəbəy r-nun Söyüdlü kəndindən 2-3 km Cənubda Şəmkirçay ilə Mis çayının qovuşduğu yerdə hünd. 50 m-ə qədər olan sıldırım qaya üzərində "Qız qalası" adlanan qala. Eni 2 m, hünd. 15 m. olan qala divarları ilə əhatə olunmuşdur.

Şübhəsiz ki, bu qalalar keçmişdə hakimlərin, şahların xarici təhlükə baş verdikdə arvad, ana, bacı və qızlarının düşmən əlinə keçməməsi üçün sığınacaq yeri idi. Qadınların və qızların düşmən əlinə keçməsi hökmdar üçün böyük rüsvayçılıq hesab olunurdu. Ona görə də onların bəzilərinin "Qızqala" adlanması doğrudur. Lakin "Qızqala" adlanan qalaların heç də hamısının təkcə qız (qadın, ana, arvad, bacı, qız) üçün tikilməsi fikri düz olmazdı. Bunlar həm də düşməndən müdafiə olunmaq üçün nəzərdə tutulurdu. Bəzi tədqiqatçıların "Qızqala"larının "Avesta"da Anahid su ilahəsinin şərəfinə tikilmiş qalalar adlandırmaları uydurmadır. Əvvələn, "Avesta"dakı Anahid ilahə adının (farslarda VI əsrdə Anahid Dan ulduzu yaxud Veneranın adı idi) özü türk dillərində ana (ənə) və hıt (sıt) "müqəddəs"("Günəş işığı") sözlərindəndir, ikincisi, bu ilahə üçün qala tikilməsinin özü mənasız olardı.

QIZQALA - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən gələn ermənilər yerləşdirilmişdir. Digər adı Ampert. Yaxınlığında, Ambert dağında "Qız qala" qalasının adındandır. Bax: Ampertdağ.

QIZQALA - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağılmışdır. Digər adı Qazqulu. Yaxınlıqdakı "Qızqala" qalasının adındandır.

QIZQALA - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 152]. XIX əsrin sonlarından sonra adı çəkilmir. 1728-ci il arxiv sənədində İrəvan əyalətinin Dərələyəz nahiyəsində Qız qalası kəndinin adı çəkilir [170, 14]. Qız qalası dağının adındandır.

QIZQALA - Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Taşir r-nunda) kənd adı. 1935-ci ildə fərmanla Qızıldaş adlandırılmışdır. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Oradakı "Qızılqa-la"nın adındandır.

QIZ QALASI - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 152]. Alakəz (Ələyəz) dağının Baku-göl zirvəsində 2300 m. yüksəklikdə qədim qalanın adıdır. Ermənicə Amberd ("Buludqala") adlandırılmışdır.

QIZ QALASI - İrəvan quberniyasının Eçmiadzin qəzasında təpə adı [133, 153]. Oradakı "Qız qalası" qalasının adındandır.

QIZ QALASI - 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 65]. Oradakı "Qız qalası"nın adındandır.

QIZ QALASI - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [23, 58].

QIZ QALASI - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 81].

QIZIL - İrəvan quberniyasının Eçmiadzin qəzasında iki dağın adı (133, 133). XIX əsrdə Quba qəzasında Kızıl (133, 133), Naxçıvan qəzasında Kızıl (yenə orada) dağ adları ilə mənaca eynidir.

QIZILAVA - 1590-cı ildə Rəvan əyalətinin Karpi nahiyəsində kənd adı [169, 207]. Rəng bildirən qızıl (qırmızı) və oba sözlərindən ibarətdir.

QIZILAĞIL MƏZRƏSİ - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 70]. "Qızıl (qırmızı) ağıl" adlı yerdə məzrə (əkin yeri) mənasındadır.

QIZILBULAQ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 131]. XIX əsrin sonlarında kənd dağılmışdır. 1728-ci ilə aid mənbədə "Qişlaqi-Qızılbulaq" kimidir [170, 17]. Digər adı Çaxırlıkənd. Türk mənşəli Çakırlı tayfasının (bax: Çaxırlı) "Qızılbulaq" adlı yerdə qışlağı əsasında yaranmışdır.

QIZILBULAQ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 97].

QIZILBULAQ - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [23, 112]. "Kəndin başqa adı İylibulaqdır" (yenə orada).

QIZILBULAQ - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində qışlaq adı [23, 64].

QIZILBULAQ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 135].

QIZILBULAQ DİZQAL - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 136].

QIZILBULĞUN - 1590-cı ildə Rəvan əyalətinin Vedi nahiyəsində məzrə adı [169, 221]. Əsli Qızıl Bulqan. Azərbaycan dilində qızıl (qırmızı) və monqolca bulqaan "köç yurdu", "alaçıq" (Q.D. Sanjeev. Monqolǧskie əziki i dialektı. Uç.zapiski İnstituta Vostokovedeniə, IV, L., 1952, s.91) sözlərindən ibarətdir. Naxçıvanda XIX əsrdə Bulğan kəndinin adı ilə mənaca eynidir.

QIZILBURUN - 1590-cı ildə Rəvan əyalətinin Abaran mahalında kənd adı [169, 234]. Kənd oradakı Qızılburun dağının adındandır. Qızılburun dağının adı XVIII əsrin əvvəllərinə aid ermənicə mənbədə çəkilir [150, 365].

QIZILVƏNG - İrəvan quberniyasının Novobayazid qəzasında  (sonra basarkeçər r-nunda kənd adı (133, 131). 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Vulkan mənşəli olduğuna görə qırmızı rəngə çalan daşdan tikilmiş qədim kilsə adıdır. XIX əsrdə Qars əyalətində, Zəngəzur və Şuşa qəzalarında 6 Qızılvənj vardı [133, 131-132]. İndiki Ermənistan ərazisində ilk "Qızılvəng" XIV əsrdə Qaraqoyunlu dövlətinin hakimi Sultan Yaqubun bir fərmanında qeyd olunur [bax: 135].

QIZILVƏNG - İrəvan xanlığının Göycə mahalında kənd adı [159]. 1948-ci ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənddə ermənilər yerləşdirilmişdir. 1978-ci ildə kənd ermənicə Makenis adlandırılmışdır.

QIZILVƏNG - XVIII əsrin ortalarında İrəvan əyalətinin Qarnibasar nahiyəsində monastır adı [150, 352]. Ermənicə Qarmirvank (yenə orada). Mənbədə vəngin 684-cü ildə tikildiyi qeyd olunur (yenə orada).

QIZILVERƏN - İrəvan xanlığının Vedibasar mahalında kənd adı. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. 1590-cı ilə aid mənbədə kəndin adı Qızılviran kimidir [169, 58]. Əsli Qızılviranə, yəni "Qırmızı qala xarabalığı". Yaxınlıqdakı qırmızı rəngli daşdan qala xarabalığının (xalq içərisində "Qızqala") adındandır. XIX əsrdə Qars əyalətinin Qars dairəsində Saatverən və Gülverən (oradakı Kul-qala xarabalığının adıdır) [133] toponimlərilə mənaca eynidir.

QIZILVİRAN - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 190]. Mənbədə kəndin həm də Həsəngözü adlandığı qeyd olunur (yenə orada). Həsəngözü isə "Həsən küzü", yəni Həsən adlı şəxsə məxsus küz "payız otlağı", "küzlək" mənasındadır. "Qırmızı daşdan tikilmiş qala xarabalığı" mənasındadır.

QIZILVİRAN - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 192].

QIZILVİRAN - 1590-cı ildə Rəvan əyalətinin Qarni nahiyəsində kənd adı [169, 204].

QIZILVİRAN - 1590-cı ildə Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı [169, 221].

QIZILVİRAN - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 94].

QIZILVİRAN - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [23, 109]. "Başqa adı Palçıqlı" [23, 109]. Bax: Palçıqlı.

QIZILVİRAN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 3]. Mənbədə kəndin Qızılviran kəndi yaxınlığında yerləşdiyi qeyd olunur [23, 36].

QIZILQAYA - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Krasnoselsk r-nunda) qışlaq adı [133]. XX əsrin 30-cu illərinlə kollektivləşmə ilə əlaqədar olaraq qışlaq ləğv edilmişdir.

QIZILQALA - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı [159]. 1728-ci ilə aid mənbədə çəkilir [23, 82]. "Zəngi çayının kənarında yerləşir" (yenə orada). 1828-1232-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuşdur [159]. Lakin sonra əhalinin bir hissəsi geri qayıtmışdır. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

QIZILQALA - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [170, 19].

QIZILQALA - İrəvan quberniyasıın İrəvan qəzasında kənd adı [133, 132]. 1590-cı ildən məlumdur (169, 40). XIX əsrin sonlarında kənd dağılmışdır.

QIZILQIŞLAQ - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [23, 63].

QIZILQIŞLAQ - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kəqd adı [23, 112].

QIZILQIŞLAQ - İrəvan quberniyasının Dərələyəz qəzasında kənd adı [133, 132]. XIX əsrin 30-cu illərində xaricdən gəlmə ermənilər də gəlib yerləşmişdir. Bundan sonra kənddə əhali qarışıq yaşamışdır. XIX əsrin sonlarında kənd dağılmışdır.

QIZILQOÇ - İrəvan quberniyasının Aleksandropol qəzasında (indi Qukasyan r-nunda) kənd adı [133, 132]. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1938-ci ildə kənd ermənicə Verin Qukasyan adlandırılmışdır. 1956-cı ildən Qukasyan r-nunun mərkəzinə çevrildikdən sonra 1960-cı ildə "Verin" sözü atılmışdır. 1990-cə idə ermənicə Aşosk adlandırılmışdır. Kənd süxuru qırmızı rəngə çalan yaylaq yerinin adındandır. Yaylağın adındakı "qoç" sözü qırmızı rəngli daşdan yonulmuş "qoç daşların"ı (qoç heykəllərini) bildirir. Azərbaycan və Ermənistan ərazisində qoç heykəllərin (qoç daşlarının) mənşəyi məlum deyil. Lakin onların türk mənşəli xalqlara mənsub olması şübhəsizdir, heç olmazsa ona görə ki, Sibirdə er.əv. 700-100-cü illəri əhatə edən Taqar arxeolji mədəniyyətinin əhatə etdiyi Yeniseyətrafı ərazidə və Minusin çökəkliyində qoç heykəlləri aşkar edilmişdir (C.V.Kiselov. Drevnəə istoriə Vostoçnoy Sibiri, s.184, 442, 580). Azərbaycanda at və qoç heykəlləri Gədəbəy, Kəlbəcər, Daşkəsən və Naxçıvanda, Türkiyə ərazisində, o cümlədən Ahisaqada, Diyarbəkirdə, Pasianda, Ərzincanda, Çıldırda və Vanda vardır (bax: M.F.Kırzıoğlu. Dədə Qorqut oğuznamələri. I, İstambul 1962, s.24).

QIZILQULLA - İrəvan xanlığının Sürməli mahalında kənd adı [159]. 1590-cı ildən məlumdur [169, 256]. XIX əsrin ortalarından sonra adı çəkilmir. Əsli Qızıl Qüllə. 1728-ci ilə aid mənbədə "Kızul-Qula" kimi qeyd olunmuşdur [170, 63]. "Qızıl qüllə" dağının adı ilə adlanmışdır.

QIZILQULLA - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. XIX əsrin sonlarından sonra adı mənbələrdə çəkilmir. "Qızılqüllə" dağının adındandır.

QIZILQULLA - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 132). Kənd oradakı qırmızı daşdan tikilmiş qüllənin adı ilə adlanmışdır. XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində Qızılqüllə dağ və Qızılqüllə kənd adları [133, 132] ilə eynidir.

QIZILQULLA - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 94]. "Darnəçay kəndinin yaxınlığında yerləşir" (yenə orada).

QIZILDAQ - İrəvan quberniyasının Aleksandropol qəzasında üç dağın adı (133, 132).

QIZILDAQ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı (133, 132).

QIZILDAQ - İrəvan quberniyası Novobayazid qəzasından Rəhmankənd kəndinə məxsus yaylağın adı [136, 32]. XIX əsrdə Qafqazda 7 Qızıldağ vardı (133, 132).

QIZILDAĞLI - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 41].

QIZILDAŞ - Amasiya r-nunda kənd adı. XIX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq dağılmış və kənd ləğv edilmişdir. Qars əyalətində Qızıldaş dağının (133, 132) adı ilə adlanmışdır. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Göycə nahiyəsində Qızıl-Taş kəndinin [170, 12] adı ilə mənaca eynidir. XIX əsrdə Qafqazda 8 Qızıldaş vardı (133, 132). Vulkan mənşəli olduğuna görə qırmızı rəngə çalan qayalı dağın adıdır. Azərbaycanın Zəngilan və Şəki rayonlarında Qızıldaş dağ adları ilə mənaca eynidir.

QIZILDAŞ - Amasiya r-nunda kənd adı. Yeni Qızıldaş da adlanır [20, 374]. 1948-1949-cu illərdə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir.

QIZILDAŞ - Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Qukasyan r-nunda) kənd adı [133, 132]. Qızıl Daş dağının adındandır.

QIZILDAŞ - Tiflis quberniyasının Borçalı qəzasında dağ adı [133, 132]. Vulkan mənşəli olduğuna görə qırmızı rəngə çalan qayalı dağın adıdır. XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində və həmin əyalətin Qars dairəsində iki Qızıldaş dağ adı [133, 132] ilə mənaca eynidir.

QIZILDAŞ - 1728-ci ildə İrəvan əyalətinin Göyçə nahiyəsində kənd adı [23, 56].

QIZILDƏMİR - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 133]. Mənbədə Qızıl Tamur kimidir (yenə orada). 1590-cı ildən məlumdur [168, 81]. 1728-ci ilə aid mənbədə Qızıl Təmir kimidir [170, 49]. 1828-1831-ci illərdə kənddə xaricdən gəlmə ermənilər məskunlaşmışdır. Sonralar azərbaycanlılar sıxışdırılıb çıxarılmışdır. 1935-ci ildə kənd erməncə Voskevaz adlandırılmışdır. XIX əsrin sonlarına aid ədəbiyyatda Qızıl Teymur kimi göstərilmişdir. "Dəmir (Teymur) adlı şəxsə mənsub qırmızı rəngli yer" mənasındadır.

QIZILDƏRƏ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 131].

QIZIL EGRƏK - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 50]. Azərbaycan dilində qızıl (kəndin yerləşdiyi ərazidə torpağın süxurunun qırmızı rəngə çalmasına görə) və qədim türk mənşəli uqrak tayfasının adından [bax: 78, 35] ya da Ekrək şəxs adındandır ("Kitabi-Dədə Qorqud"da belə şəxs adı vardır). Azərbaycanda İqrıq (Quba r-nu) kənd adı ilə mənşəcə eynidir.

QIZILZAKİR - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 132]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. 1728-ci ildən məlumdur [170, 15]. Əsli Qızıl Senqir. Azərbaycan dilində rəng bildirən qızıl (qırmızı) və türk dillərində seqir "dağ burnu" [93, 495] sözündəndir. Ehtimal ki, Qars əyalətinin Ərdahan dairəsində Kurrey-Zakyar dağ adı ilə [133] mənaca eynidir.

QIZILZİYARƏT - İrəvan quberniyasının Eçmiadzin qəzasında iki dağ adı [133, 132]. 1. Ağmağan silsiləsində vulkan mənşəli zirvədir. 2. Ələyəz dağının uca zirvələrindəndir (hünd. 3900 m). Fərmanla erməncə Tirinqatar adlandırılmışdır.

QIZILYATAQ - İrəvan xanlığının Talin mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra mənbələrdə çəkilmir. Torpağının süxuru qırmızı rəngə çalan qışlaq yerində maldar elin yataqları əsasında yaranmışdır.

QIZILKƏND - 1590-cı ildə Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı [169, 222]. Ehtimal ki, Qızıl şəxs adından və kənd sözündəndir.

QIZILKİLİSƏ - Aştarak r-nunda kənd adı. 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd [23, 61]. XIX əsrin 70-ci illərində Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir (6, 169). 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi. 1935-ci ildə kənd erməncə Karmiravan adlandırılmışdır. "Qırmızı rəngli daşdan tikilmiş kilsə" mənasındadır. XIX əsrdə Azərbaycanda və Ermənistanda mövcud olmuş 20 Qızılkilsə toponimindən [133, 132] biridir.

QIZILKİLSƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında üç kənd adı (133, 132).

QIZILKİLİSƏ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 132]. "Kəndin başqa adı Taplıcadır" (yenə orada). Bax: Taplıca.

QIZILKİLİSƏ - Taşir r-nunda kənd adı. 1935-ci ildə Qızıldaş adlandırılmışdır. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur.

QIZILKİLİSƏ - Amasiya r-nunda kənd adı. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuşdu. 1922-ci ildə az hissəsi geri qayıtmış və yenidən məskunlaşmışdı. 1948-ci ildə kəndin əhalisi Azərbaycana köçürlmüş və kənd ləğv edilmişdir.

QIZILKİLİSƏ - Basarkeçər r-nunda kənd adı. 1940-cı ildə kənd Çiçəkli adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

QIZILKİLİSƏ - İrəvan xanlığının Göycə mahalında kənd adı [159]. Digər adı Abdullakənddir. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159].

QIZILKİLİSƏ - 1728-ci ildə İrəvan əyalətini Karbi nahiyəsində kənd adı [23, 94].

QIZILKİLSƏ - 1728-ci ildə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı [23, 116]. Mənbədə kəndin Mehmet Əyyub oğluna məxsus olduğu göstərilir (yenə orada).

QIZILKİLİSƏ - 1727-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 16].

QIZILKÖZ - 1727-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 12]. Həmin mənbədə kəndin həm də Şəkərbəyli adlandığı qeyd olunmuşdur [32, 272]. "Qızılbulaq" mənasındadır.

QIZIL LAĞAN - İrəvan quberniyası Eçmiadzin qəzasında dağ adı (133, 132). Dağın adındakı lağan sözünün (Ağlağan dağ adında olduğu kimi) mənası məlum deyil. Bax: Ağlağan.

QIZILLAR - İrəvan quberniyasının Sürməli qəzasında dağ [133, 132] adı. Əsli Qızıllılar. XIX əsrin əvvəllərində Naxçıvanda və İrəvan xanlığında yaşamış Qızıllı tayfasının [153, 32] adındandır. Dağ bu tayfanın yaylaq yeri idi.

QIZILTƏPƏ - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [170, 15].

QIZILTƏPƏ - 1728-ci ildə İrəvan nahiyəsinin Şirakel nahiyəsində Aydın (Arıq vəli) kəndinə məxsus məzrə adı [23, 128].

QIZILÖRƏN - 1728-ci ildə İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı [170, 12]. XVIII əsrin ortalarına aid ermənicə mənbədə Qızıloran [150, 360] kimidir. Azərbaycan dilində qızıl (qırmızı mənasında) və örən (əsli viran) "unudulmuş qala divarı" [143, I, 2, 1219], "xaraba qala" sözlərindən ibarətdir. Azərbaycanda Mil düzündə Örənqala (Beyləqan şəhərinin xarabalığı) və Ağdam r-nun Mərzili kəndi yaxınlığında Örən-Para toponimləri ilə mənaca eynidir. Bax: Qızılverən.

QIZILÖRƏN - 1728-ci ildə İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı [23, 55]. "Kəndin başqa adı Öyüd Oyrat" (yenə orada).

QIZILÖRƏN - Spitak (keçmiş Hamamlı) r-nunda kənd adı. 1590-cı ilə aid məlumatda Qızıl Örən [169, 68], 1728-ci ilə aid mənbədə isə Qızıl Viranə kimidir [170, 69]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən

gəlmə ermənilər yerləşdirilmişdir. 1922-ci ildən sonra əhalinin bir hissəsi qayıdaraq yenidən məskunlaşmışdır. 1946-cı ildə kənd Şenovan adlandırılmışdır. 1988-ci ildə kəndin azərbaycanlıları qovulmuşdur. 1990-cı ildə kənd Aşotk adlandırılmışdır.

QIZILLICA - 1590-cı ildə Rəvan əyalətinin Zar nahiyəsində kənd adı [162, 326].

QIZIL MURAD SİNAN - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 125].

QIZILSÜRÜ - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində yaylaq adı [23, 42]. Mənbədə yaylağın Musadağda olduğu qeyd olunur (yenə orada).

QIZILTƏPƏ - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı [133, 133]. Vulkan mənşəlidir. Qırmızı rəngli süxurdan ibarət dağdır.

QIZIL XARABA - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, !33]. 1918-ci ildə Azərbaycanın əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Qırmızı rəngli daşdan tikilmiş qala yaxud kilsə xarabalıqları nəzərdə tutulur.

QIZIL XARABA - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı (133, 133). Digər adı Ayrıca. 1831-ci ildə kənddə 357 nəfər erməni yerləşdirilmiş [20, 302] və ondan sonra azərbaycanlılar tədricən sıxışdırılıb çıxarılmışdır.

QIZILXARABA - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı (133, 133).

QIZILÇAY - İrəvan quberniyasının İrəvan qəzasında çay adı (133, 133)

QIZILCA - 1728-ci ildə İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [32, 247]. Mənbədə kənddə 3 erməni ailəsinin yaşadığı qeyd olunur (yenə orada).

QIZILCA - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 120].

QIZILCA - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [170, 115].

QIZILCAQ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanda Sisyan mahalında) kənd adı [133]. 1918-ci ildə azərbaycanlı əhali çıxarılmışdırö 1922-ci ildə az hissəsi geri qayıtmışdır. 1988-ci ildə əhalisi yenidən Azərbaycana qovulmuşdur. Qızılcaq dağının adındandır. Bax: Qızılcaq dağı.

QIZILCAQ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) dağ adı [133]. Dağın adı orada qızılcıq (zoğal) ("Kitabi-Dədə Qorqud"da zoğal "qızılcıq" sözü ilə ifadə olunmuşdur) ağaclarının bolluğu ilə bağlıdır.

QIZILCA KİLSƏSİ - 1590-cı ildə Rəvan əyalətinin Bazarçay nahiyəsində kənd adı [169, 156].

QIZILCALI - 1590-cı ildə Rəvan əyalətinin Ərmus nahiyəsində kənd adı [169, 252].

QIZILCA MƏZRƏSİ - 1590-cı ildə Rəvan əyalətinin Məvaziye-xatun nahiyəsində kənd adı [169, 133].

QIZILCIQ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 128].

QILAQUR - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 94]. "Başqa adı Əzəbanqulu" (yenə orada).

QILICANULYA - 1728-ci ildə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı [170, 24].

QILICANSUFLA - 1728-ci ildə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı [170, 24].

QILICAN - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus r-nunda) kənd adı. XX əsrin əvvəllərində kənd dağılmışdır. Türk mənşəli Kiliç tayfasının adını əks etdirir. Bax: Qılıclı.

QILICAN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 23].

QILICDAQ - Talin r-nunda kənd adı. 1946-cı ildə kənd ermənicə Suser adlandırılmışdır. Türk dillərində kiliç "aşırım" sözündəndir.

QILIC-YATAQ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı (133, 136).

QILICLI - İrəvan quberniyasının Dərələyəz qəzasında kənd adı (133, 133). 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. XIX əsrin əvvəllərində Türkiyə ərazisində yaşayan bir tayfa Kılıçlı adlanırdı [113, 84]. Mənşəcə qıpçaqların Kiliç tayfasına mənsubdur. Rus salnamələrində bu tayfa 1223-cü ildə Kalka çayı üzərində vuruşma ilə əlaqədar olaraq çəkilir (Polnoe sobranie russkix letopisey. Tom V. L. 1926. s 18). Qaraqalpaqlarda bir tayfa indi də Kılışlı adlanır [bax: 76, 87]. 1688-ci ilə aid məlumata görə "Qarabağın Ahiştabad aranında ( yəni qışlağında) qışlayan bir el Qılıçlı adlanırdı [167]. Digər Qılıclı adlı tayfa Şirvanda yaşamış, Rusiya Şirvan xanlığını işğal etdikdən sonra həmin tayfanı 1826-1828-ci illərdə Rus-İran müharibəsinin iştirakçısı V.Q.Mədətova bağışlamışdır. O isə qılıcları Qarabağa köçürmüşdür.

QILICLI - Yelizavetpol quberniyasının Zəngəzur qəzasında (Ermənis-tanın Sisyan r-nunda) kənd adı [133, 133]. 1948-ci ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd dağılmışdır. Qılıclı tayfasının adındandır.

QILICLI MƏZRƏ - 1590-cı ildə Rəvan əyalətinin Zar nahiyəsində məzrə adı [169, 326].

QINDİVAZ - İrəvan quberniyasının Şərur-Dərələz qəzasında kənd adı (133, 62). 1728-ci ilə aid mənbədə Qındevas kimidir [23, 60]. Həmin mənbələ kənddə cəmi 2 erməni ailəsinin yaşadığı qeyd olunmuşdur [32, 317]. 1828-1832-ci illərdə kənddə xaricdən gəlmə ermənilər də yerləşdikdən sonra əhali qarışıq yaşamışdır [159]. 1918-ci ildən kəndin Azərbaycanlı əhalisi qovulmuşdur. 1922-ci ildə əhali geri qayıdaraq yenidən məskunlaşmışdır. 1988-ci ildə kəndin azərbaycanlıları Azərbaycana qovulmuşdur. Fars dilində kund-"təpə" və qədim türk dillərində vays, vayz (azərbaycanca baz) - "sıldırım" (bax: Boz Abdal) sözlərindən ibarətdir.

QINDAŞIN - Amasiya r-nunda kənd adı. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd ləğv edilmişdir. Fars dilində kund "təpə" və şen "qum" [145, 256] sözlərindən ibarətdir. "Qum süxurlu təpə" mənasındadır.

QIPÇAQ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [170, 122]. XVII əsrin əvvəllərində adı çəkilir [150, 364]. Şirak əyalətində Qıpçaq monastırı da (895-ci ildən) tikilmişdi. Kilsə şübhəsiz, qədim türk mənşəli Qıpçaq tayfasının adını əks etdirir. 1878-ci ildə kəndin əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir (6, 165). 1946-cı ildə kənd ermənicə Hariç adlandırılmışdır. Qıpçaqların Cənubi Qafqazda məskunlaşması müxtəlif vaxtlara aiddir. İlk dəfə onlar eranın əvvəllərində [bax: 79], kompakt halda XIII əsrdə gəlmişlər. Azərbaycanda Zaqatala r-nunda Qıpçaq kənd və Qıpçaq çay adları ilə mənşəcə eynidir.

QIPÇAQ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı (133, 134).

QIPÇAQ - İrəvan quberniyasının Aleksandropol qəzasında yayla adı (133, 134).

QIPÇAQ DÜZÜ - Artik r-nunda düzən adı. Ermənicə Qıpçakvayr adlandırılmışdır (6, 197).

QIRAQKƏND - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 122].

QIRAN - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [23, 63]. Türk dillərində kuran "düşərgə" sözündəndir. Bax: İtqıran.

QIRQI - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Şəmşədil r-nunda) kənd adı. 1978-ci ildə kənd ermənicə Artvaberd adlandırılmışdır. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Kərki etnonimindən təhrifdir. Bax: Kərki.

QIRMIZIAĞIL - İrəvan quberniyasının Eçmiadzin qəzasında qışlaq adı [133, 144]. XIX əsrin sonlarından sonra adı çəkilmir. Azərbaycan dilində rəng bildirən qızıl (qışlağın yerləşdiyi ərazini torpağının qırmızımtıl olması) və ağıl (qoyun ağılı) sözlərindən ibarətdir.

QIRMIZIQIŞLAQ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 67].

QIRMIZIKƏND - İrəvan xanlığının Göycə mahalında kənd adı. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur.

QIRMIZI GÜNEY - İrəvan quberniyasının Dərələyəz qəzasında dağ adı (133, 144).

QIRMIZILI - İrəvan xanlığının Talin mahalında kənd adı. Yerli tələffüz forması Qırmızdı. 1946-cı ildə kənd ermənicə Karmraşen adlandırılmışdır. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur.

QIRMIZILI - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 14). Mənbədə Krmızlu kimidir (yenə orada).

QIRMIZILU - İrəvan quberniyasının Eçmiadzin qəzasında xaraba kənd adı (133, 144).

QIRMIZITƏPƏ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 144].

QIRMIZITƏPƏ - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı [133].

QIRMIZI XARABA - İrəvan quberniyasının İrəvan qəzasında xarabalıq adı (133, 144).

QIRX BOZAVƏND - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. XIX əsrin 70-ci illərində kənddə ermənilər də məskunlaşmışdır. 1886-cı ildə kəndin əhalisi azərbaycanlılardan və ermənilərdən ibarət idi. Əsli Qırıqlı Bozavənddir. "Qırıqlı kəndinin yaxınlığındakı Bozavənd" mənasın-dadır. Bozavənd tayfasının məskunlaşmasından yaranmış kənddir. Azərbaycanda Bozavənd (Ağsu r-nu) kənd adı ilə eynidir.

QIRXBULAQ - İrəvan xanlığında mahal adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır [11, 164]. XVI əsrdən əvvəl İrəvan əyalətinin Kotak (bax: Katak) mahalı adlanırdı [135, 50]. Mahal Qırxbulaq kəndinin adı ilə adlanmışdır. Kəndin adı XVI əsrin əvvəllərində çəkilir [150, 360]. Kənd "Qırxbulaq" (ermənicə tərcüməsi Xotatsaxpur) [150, 360] bulaqlarının adı ilə adlanmışdır. 1829-cu ildə kəndə Türkiyədən gəlmə ermənilər də məskunlaşmışlar. XX əsrin əvvəllərində azərbaycanlılar qovulmuşlar. 1940-cı ildə kənd ermənicə Aqunk adlandırılmışdır. İrəvan qalasına su bu gur sulu bulaqlardan axıdılırdı [150, 351]. XIX əsrdə Qafqazda 10 Qırxbulaq vardı (133, 153).

QIRXBULAQ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 153]. 1590-cı ildə yaylaq adı idi [159, 258]. XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir.

QIRXBULAQ - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [23, 61].

QIRXDAŞ - 1728-ci ildə İrəvan əyalətində "Ağrıdaq tərəfdə olan Qırxdaş yaylağı" [23, 71]. Türk dillərində kırka "bərk süxurlu yüksəklik" (126, 329) və daş (qaya) sözlərindən ibarətdir. Azərbaycanda bir neçə Qırxqız dağ və yaylaq adlarında kırk və kuz "hündür sıldırım sahilləri olan yarğan" (bu barədə bax: K. Seyidaxmanov. Variantı drevnetörkskoqo slovo "kuz" v toponimin Kirqizii. "Onomastika Kirqizii". I. Frunze, 1985) sözlərindən ibarətdir.

QIRXDƏYİRMAN - İrəvan xanlığının Artik mahalında kənd adı. 1728-ci ilə aid İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı kimi qeyd olunur [23, 131]. XIX əsrin ortalarında azərbaycanlılar qovulmuş və gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Xnaberd adlandırılmışdır. Türk dillərində kırka "bərk süxurlu yüksəklik" [126, 329] və Azərbaycan dilində dəyirman sözlərindən ibarətdir.

QIRXTƏPƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133, 153]. Türk dillərində kırka "bərk süxurlu yüksəklik" [126, 329] və "təpə" sözlərindən ibarətdir.

QISIRDAĞ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 135]. Meşəsiz, seyrək bitkili dağ mənasındadır.

QISIRDAĞ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan mahalında) dağ adı. Ermənicə Amupsar adlandırılmışdır [20, 165].

QISIRXARABA - İrəvan quberniyasının Dərələyəz mahalında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Kənd "Qısırdağ" adlı yerdə qala xarabalığının adındandır.

QISSALI - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 121].

QIŞLAQ - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı. (170,7)"Əhalisi Qəmərli- Şəkiabad camaatındandır" (yenə orada).

QIŞLAQ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 135]. XVII əsrin ortalarından məlumdur [150, 361]. 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd dağılmışdır.

QIŞLAQ - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı. Tam adı Şahgəldi qışlağı [159]. 1948-1949-cu illərdə əhalisi Azərbaycana köçürüldük-dən sonra kənd dağılmışdır.

QIŞLAQ - İrəvan quberniyasıın Novobayazid qəzasında kənd adı (133, 135).

QIŞLAQ ABBAS - İrəvan quberniyasının Şərur- Dərələyəz qəzasında kənd adı (133, 135).

QIŞLAQ BUDAQBƏY - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 47]. Mənbədə qışlağın Tərnəqut kəndinin əhalisinə məxsus olması qeyd olunmuşdur (yenə orada).

QIŞLAQQUZU - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 4].

QIŞLAQ DƏRVİŞLƏR - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 4].

QIŞLAQ ZÜLFÜQAR - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 3]. Mənbədə qışlağın Boyat tayfasına mənsub olması göstərilir (yenə orada).

QIŞLAQ NƏZƏRLİ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 45]. Mənbədə qışlağın Quzugüdənli tayfasına məxsus olması göstərilir [170, 47].

QIŞLAQ PİRVERDİ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 3].

QIŞLAQ XANABAD - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 4].

QIŞLAQ ÇAPAR - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 4].

QIŞLAQ ŞAHHÜSEYN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 4].

QIŞLALI - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [170, 20].

QOVAQTƏPƏ - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [170, 99]. Mənbədə kəndin həm də Dikburun adlandığı qeyd olunur (yenə orada).

QOVUN SEYFİDƏRƏ - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [23, 49]. "Seyfidərə yaxınlığındakı Qovunlu kəndi" mənasındadır.

QOVUNLU - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [23, 70]. "Əhalisi Quzugüdənli Qarasu camaatındandır" (yenə orada).

QOVUNLU - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 123].

QOVUŞUQ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Meğri r-nunda) kənd adı [133, 137]. Mənbədə Kovşut kimidir (yenə orada).1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

QOVŞUD - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı [133]. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Türkmənistanda Qovşut, Qovşutbənd, Qovşutyap, Qovşuxanqala (bax: S.Ataniyazov. Türkmenistanın qeoqrafik atlarının düşindirişli sözlüqi, s.104-105), Azərbaycanda Qovşutlu (başqa adı Hüseynbəyli) (Cəbrayıl r-nu) kənd adları göstərir ki, Qovşut tayfa adıdır.

QOQORAN - İrəvan quberniyasınnı Aleksandropol qəzasında (133, 63)Ermənistanın şimalında Şirak dağ belindən şimal-şərqdə dağ adı (60, 74). Qədim türk mənşəli Quqar (Qoqar) tayfasının adını əks etdirir.

QOZAĞAC - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra mənbələrdə adı çəkilmir. Kəndin adı orada qoz ağacının bolluğu ilə əlaqədar olmuşdur.

QOZLUCA - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı. 1727-ci ilə aid mənbədə İrəvan əyalətinin Dərələyəz nahiyəsində Qozluca kəndin adı çəkilir [170, 15]. Həmin mənbədə qeyd olunur ki, kənddə adam yaşamır. Şiə olduqlarına görə köçüblər [32, 276]. 1949-cu ildə əhalisi Azərbaycana köçürül-dükdən sonra kənd ləğv edilmişdir. "Qoz ağacı bol olan yer", "qozluq" mənasın-dadır.

QOYLU - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 89]. "Kəndin başqa adı Xoçkirik" (yenə orada). 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir.

QOYLUĞAN - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd idi [23, 114].

QOYTUL - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 138). 1919-cu ildə əhalisi qovulduqdan sonra ermənilər yerləşmişlər. 1960-cı ildə kənd ləğv edilmişdir. Türk dillərində qiytul "düşərgə" [Z.L.Budaqov, II, 102] sözündəndir. Azərbaycanda Quytul (Daşkəsən r-nu) kəndinin adı ilə eyni mənadadır.

QOYTUL - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133, 138]. 1727-ci ilə aid mənbədə Qutyol kimidir [32, 283]. Mənbədə kənddə 6 müsəlman (azərbaycanlı) ailəsinin yaşadığı qeyd olunur (yenə orada). XIX əsrin 70-ci illərində kənddə ermənilər də məskunlaşmış, sonra azərbaycanlılar sıxışdırılıb çıxarılmışdır. 1987-ci ildə kənd ermənicə Qetapi adlandırılmışdır. Türk dillərində qiytul "düşərgə" sözündəndir.

QOYTUR - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. XIX əsrin II yarısında kənddə ermənilər də məskunlaşmışlar. 1918-ci ildə kəndin azərbaycanlı ailələri qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Ehtimal ki, türk dillərində köy "kənd" və tör "yüksək dağ örüşü" [79, 476] sözlərindən ibarətdir.

QOYUYARIQ MƏZRƏSİ - 1590-cı ildə Rəvan əyalətinin Qarni nahiyəsində kənd adı [169, 204].

QOYUNLU - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [170, 75]. Mənbədə kəndin Ömər Mustafa oğluna məxsus olduğu qeyd olunur [23, 98]. Bax: Qovunlu.

QOL - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133, 64]. Bax, Koğ.

QOLQAT - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı (133, 64). Qolqat dağının adındandır.

QOLQAT - İrəvan quberniyasının Aleksandropol qəzasında iki dağın adı (133, 64).

QOLQOT - Artik r-nunda kənd adı. 1947-ci ildə kənd ermənicə Qexanist adlandırılmışdır. Türk dillərində qol - "vadi" və kot monqolca xot "düşərgə" sözlərindən ibarətdir. Dağlıq Qarabağda Qoçoqot kənd adı ilə mənaca eynidir. Bax: Burun-Qot.

QOLDAŞ - 1728-ci ildə İrəvan əyalətinin Sürməli qəzasında kənd adı [170, 17]. XIX əsrdə Kutaisi quberniyasının Leçxum qəzasında Qol-Daş dağ adı [133] ilə mənaca eynidir.

QOMADZOR - XVIII əsrin ortalarında ermənicə mənbədə Göycə mahalında kənd adı [150, 361]. XIX əsrin axırında Novobayazid qəzasında Komadzor kimidir (133, 135). Şərqi Türkiyədə Basin mahalında Qomadzor nahiyəsinin (159, 46) adındandır. Gətirilmə addır.

QOMARAN - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı (133, 71). Mənbədə Qumaran kimidir (yenə orada). Gümaran da adlanmışdır. 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1922-ci ildən sonra əhalinin bir hissəsi qayıdaraq ermənilərlə qarışıq yaşamışdır. 1988-ci ildə kəndin azərbaycanlı əhalisi Azərbaycana qovulmuşdur. Dərzili (bax) tayfasının qışlaqlarındandır [103, 152]. XIX əsrdə Azəçrbaycanda Cavad qəzasında Pir Qumaran qışlaq adı (133, 202) ilə güman ki, mənaca eynidir. Ona görə də XIX əsrin axırlarında Qomaran - Dərzili də adlanmışdır (133, 71). Qomaran dağının adındandır.

QOMARAN - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) dağ adı [133, 71]. Yerli tələffüz forması Gümaran. Dağın adı kom və aran hissələrindən ibarətdir. Cənubi Qafqazda bir sıra türk mənşəli toponimlər kom, kum (qom, qum) sözündən düzəlmişdir. XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində Aqut-Kom, Vayz-Kom, Bayram-Kom, həmin əyalətin Oltin dairəsində Aqit-Kom, həmin əyalətin Qars dairəsində Ağ-Kom, Dağıstan əyalətinin Kürə dairəsində Xəzər-Kom, Tiflis quberniyasının Borçalı qəzasında Qara-Kom, İrəvan quberniyasının Sürməli qəzasında Quru-Kom [133] toponimlərində bu söz vardır. XVII əsr erməni müəllifinin əsərində İrəvan yaxınlığında Qomadzor ("Qomdərə") toponimini qeyd edir [91, 28]. XIX əsrdə Bakı quberniyasının Cavad qəzasında Gorus-Qum kənd adı da bu sıraya daxil edilə bilər. Monqol dilində qom "geniş vadi", "step" [126, 150], İran dillərində kom "dərə" [126, 227] mənalarındadır. Toponimin ikinci hissəsi olan "aran" sözü isə qədim türk dillərində qışlaq mənalarındadır. 1588-ci ilə aid türkcə mənbədə Kürdən cənubdakı Azərbaycan ərazisində qışlaq sözü əvəzinə "aran" sözü işlədilmişdir [169]. Məlum olduğu kimi, bu ərazi hələ eranın əvvəllərində Aran adlanırdı. Sonra da Alban ölkəsinin ikinci adı kimi tanınmışdır. Ona görə də görünür, qədimdə dağın ətəyi maldar ellərin qışlaq yeri olduğuna görə Qomaran "qışlaq vadisi (dərəsi)" adlanmışdır. Dağın "aran" hissəsi həm də qədim türk mənşəli Aran tayfasının adı ilə əlaqədar ola bilər (bu tayfa barədə bax: 14). Bu tayfanın adı ilə hələ VII əsrə aid ermənicə mənbədə Albaniyada Arandjnak (yəni Arançı, indi Tovuz r-nunda Arançı təpələri), XIII əsrə aid ermənicə epiqrafik mənbədə Dağlıq Qarabağda Eznarants (Yazı-Aran), Hrandaşants (Aran-Daş) (bax: 82), indiki Əsgəran (Əsgi-Aran adının təhrifi), XIV əsrin əvvəllərində Dağlıq Qarabağda Avat-Aran (yəni "Avat kəndi yaxınlığındakı Aran kəndi" - 1828-ci ildə gəlmə ermənilər yerləşdikdən sonra Avetarans), indiki Aranzəmin, Tovuz r-nunda Aran kəndi və Arandağ dağ toponimləri məlumdur.

QOMARAT - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan mahalında) kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Kəndin adı türk dillərində qom "dərə" sözündən və XIII əsrdə monqolların tərkibində gəlmiş Oyrat tayfasının adından ibarətdir. Oyrat tayfasının Dorbət və Ələt qollarının adları Şərqi Anadoluda Aletlu, İrəvan əyalətində Ələtli, Azərbaycanda - Qarabağda Cinli - Dorbətli və Xaçın Dorbətli, Qaradağ r-nunda Ələt toponimlərində, Oyrat tayfasının adı isə Ağdaş r-nunda Aratkənd toponimində əksini tapmışdır.

QOMİK - İrəvan quberniyasının Sürməli qəzasında qışlaq adı. (133, 64) XIX əsrin sonlarından sonra kəndin adı mənbələrdə çəkilmir. Qars əyalətinin Kaqızman dairəsində Komik kənd və xaraba adları (133, 139) ilə eynidir.

QONAQQIRAN - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 139]. 1728-ci ilə aid mənbədə Şirakel nahiyəsində kənd adı kimi qeyd olunur [23, 135]. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (6, 165). 1940-cı ildə kənd ermənicə Şirak adlandırılmışdır (erməni tarixçiləri Şirak adının qədim türk mənşəli etnonim olduğunu hələ bilmirlər). Türk dillərində kunak, konak "dayanacaq", "istirahət yeri" [93, 51] və kuren "hərbi düşərgə" (bax: İtqıran) sözlərindən ibarətdir. XIX əsrdə Şimali Qafqazda Kuban əyalətinin Maykop dairəsində Kunaq-Tau (dağ adı) və Kunak-təpə (133, 148), Zaqatala dairəsində Kunax-Ay (dağ və çay adı), Batum əyalətinin Batum dairəsində Qonaq-Çir (çay adı) toponimlərilə mənaca eynidir. Orta əsrlərdə Sürməlidən cənub-şərqdə Kunak qalası (indi Türkiyədə "Qaraqala" adı ilə qalır) adlı qala vardı [129, 253].

QONAQGÖRMƏZ - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərində ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Qonaqgörməz dağının adındandır.

QONAQGÖRMƏZ - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistan ərazisindədir) dağ adı [133, 139]. Dağın adı "qonaq (yəni maldar el) saxlamayan", "qonaq istəməyən" (yəni "yaylaq üçün əlverişli olmayan") mənasındadır. Azərbaycanda Qonaqgörməz (Quba rayonu) və Qonaq-Görmür (Daşkəsən r-nu) dağ adları ilə mənaca eynidir.

QONURA KƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [170, 7]. Ehtimal ki, türkcə köy - "kənd" və monqolca nuruu - "dağ beli", "aşırım" (Russko-monqolğskiy slovarğ, M., 1960, s.738) sözlərindən ibarətdir.

QONÇALI - Amasiya r-nunda kənd adı. 1918-1920-ci illərdə əhalisi qovulduqdan sonra 1926-cı ilə qədər kənd boş qalmışdır. 1926-1960-cı illərdə kənddə ermənilər yaşamışlar. Sonra onlar Gümriyə köçdükdən sonra Azərbaycan türkləri məskunlaşmışlar [20, 374]. 1988-ci ildə kəndin əhalisi Azərbaycvana qovulmuşdur. 1990-cı ildə kənd ermənicə Zarişad adlandırılmış-dır. Ehtimal ki, mənşəcə Anadoludakı Qonça kəndindən çıxmış ailələrin məskunlaşması nəticəsində yaranmışdır. Bax: Xançallı.

QORAQIŞLAQ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 121]. Türk dillərində kora "qışlaqda mal-qaranın gecələr salınması üçün tikinti" və qışlaq sözlərindən ibarətdir.

QORQUDUS - 1728-ci ildə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı [23, 116]. Qorqud şəxs adından ibarətdir. Adın sonundakı "us" yunan dili mənşəli şəkilçidir.

QORS - İrəvan quberniyasının Şərur Dərələyəz qəzasında kənd adı [133, 66]. Albaniya və ona bitişik bölgələrdə, o sıradan indiki Ermənistan ərazisində yaşamış qədim türk mənşəli Qorus (Gorus) tayfasının adını əks etdirir. Azərbaycanda indiki Dəvəçi r-nun ərazisi erkən orta əsrlərdə bu elin adı ilə Xursan adlanırdı. Ona görə indiki Çıraqqalanın yerləşdiyi qaya da "Xurus qayası" adı ilə məlumdur. Həmin tayfa şimal-şərqi Azərbaycanda III əsrdə yaşayırdı. Bu tayfanın adı ilə bağlı digər toponim "Alban tarixi"ndə ermənicə yazılışda Qoroz qalası kimi çəkilir ("Alban tarixi", III kitab, 16-cı fəsil) ki, bu da orta əsrlərdəki Gorus kəndi və mahalıdır. Bundan başqa bu etnonim Naxçıvanda Xurs, Qarabağda Xorus (Xoruz), Tiflis quberniyasının Axalkalaki qəzasında Xorosdaq, Axalsix qəzasında Qoros-Xaraba, Kutaisi qəzasında Xorosdaq, Stavropol quberniyasında Geros və indiki Qroznı toponimlərində qalmışdır (geniş məlumat üçün bax: Q.Ə.Qeybullayev. Qarabağ. Bakı, 1990, s.101-104).

QORS KƏNDİ - İrəvan quberniyasının Aleksandropol qəzasında xaraba kənd adı  (133, 66).

QORSUXLU - İrəvan quberniyasının Aleksandropol qəzasında xaraba kənd adı (133). Korsuxlu kimidir.

QORTUN - İrəvan quberniyasınnı İrəvan qəzasında kənd adı  (133, 66) Digər adı Yuxarı Çanaxçı (yenə orada).

QORUQ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı. Səlcuq oğuzlarının Karık tayfasının adını əks etdirir. Ordubad r-nunda Qoruqlar (Əsli Karıqlar) kəndinin adı ilə mənşəcə eynidir. Qeyd etmək lazımdır ki, Azərbaycanda və Ermənistanda bu tayfanın adı ilə bağlı bəzi toponimlər sonralar təhrif olunaraq xalq qəhrəmanı Koroğlu adı ilə eyniləşdirilmişdir. Bax: Koroğlu k.

QORUQGÜNEY - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [136, 64].

QORUQGÜNEY -İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 141]. Dağın adı onun güney hissəsinin qoruq (feodala məxsus yer otlaq olduğuna görə maldar el oradan yaylaq məqsədilə istifadə elə bilməzdi) olması ilə bağlıdır.

QORXMAZ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 141]. Tam adı "Qorxmaz gədiyi". XIX əsrin sonlarından sonra mənbələrdə qeyd olunmur. 1590-cı ilə aid mənbədə yaylaq adı [169, 334]. XIX əsrin sonlarından mənbələrdə qeyd olunmur. Kəndin adı Azərbaycan dilindəki qoruq (xana, feodala mənsub olduğuna görə maldar elin yaylaq üçün istifadə edə bilmədiyi yer) və türk dillərində mes "dağın cənub yamacı", "dağın meşəsiz cənub hissəsi", "dağın gündüşən tərəfi" [126, 369] sözlərindən ibarətdir. Bax: Yardmaz və Çoban Kərəkməz.

QORÇİBƏK - 1728-ci ildə İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı. (170). Ehtimal ki, Qorçibək şəxs adındandır.Şəxs adı isə türk dillərində qorçi  "silah daşıyan" , "sultan qvardiyasının üzvü" (monqolca xorçi "atıcı") sözündəndir. Türkiyədə, Ermənistanda və Cənubi Azərbaycanda bu sözdən düzəlmiş çoxlu toponimlər vardır. Bəzi tədqiqatçılar yanlış olaraq toponimlərdə bu sözü "gürcü" etnonimi hesab edirlər. Məsələn, V.İ.Savina Cənubi Azərbaycanda Deh-Gürcü, İranın Kirmanşah əyalətində Qorçi-Bayan, Mərkəzi İranda Qasımabad-Qorçi, Mazandaranda Qorçiqala və b. kənd adlarını gürcü etnonimi ilə  əlaqələndirmişdir. (V.İ.Savina, Göst. əsəri, s. 60).

QORÇULU - Razdan r-nunda kənd. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Türk dillərində qorçi "silah daşıyan", "sultan qvardiyasının üzvü" sözündəndir.

QORÇULU - Oktemberyan r-nunda kənd adı. 1946-cı ildə ermənicə Marqaşat adlandırılmışdır.

QORÇUÖRƏN - 1728-ci ildə İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı [170, 12].

QOTUZ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 142). 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd dağılmışdır. 1577-ci ildə Şah II İsmayılın fərmanında Çuxur Səd mahalında Kutuzvəng kəndinin adı qeyd olunur [134, 188]. Qotuz dağının adındandır. Bax: Qotuz dağı. XIX əsrdə Qars əyalətinin Ərdəhan dairəsində Qotuz - Köy kənd xarabalığının [133] adı ilə mənaca eynidir. Türk dillərində kut, qut qışlaqda "düşərgə", "dayanacaq", "qutan" sözündən və yunanca "us" şəkilçisindən ibarətdir.

QOTUZ - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı [133, 142]. Türk dillərində qut "möhkəmləndirilmiş yer" və "uz" sözlərindən ibarətdir. XVII əsrin əvvəllərinə aid ermənicə mənbədə Kotis kimidir [150, 116]. Toponimin "qot” hissəsi "qut", "kut" şklində Ermənistan ərazisində bir sıra toponimlərdə də əksini tapmıqdır (bax: Burun-qot). Toponimin "uz" hissəsi coğrafi adlarda (məs: Azərbaycanda Maqovuz, Çiraquz, Şatarız, Dağlıq Qarabağda Avdur kəndinin ərazisində Buquz qalasının adı və s.) bir neçə mənaya malikdir. 1. "səth", "üz" bildirir; məs: Xartuz (Zəngilan r-nu) toponimində bu söz dağın səthinin xart (metal alət və silah itiləmək üçün istifadə olunan xart - daşı) daşından ibarət olduğunu bildirir; Yaxud Şəki r-nunda Alazan-Əyriçay vadisinin cənub hissəsində Daşüz yüksəkliyinin adı. Yüksəkliyin bir tərəfini Bilan düzü, digər tərəfini Sarıca düzü tutur. Bu yüksəkliyin səthi nazik torpaq qatından altda həqiqətən daşlıqdır. 2. Bəzi toponimlərdə qədim türk mənşəli Uz tayfasının adını əks etdirir (Maqov+uz, Çiraq+uz və s.). Xaqani Şirvani də Azərbaycanda Uzkənd yaxüd Ozkənd toponimini qeyd edir. XIX əsrin əvvəllərinə aid məlumatda Zəngəzurun Sisyan mahalında əhalisi azərbaycanlılardan ibarət Uz kəndinin adı çəkilir. Qotuz toponimində "uz" sözü türk dillərində “dərə” (70, 22) mənasındadır.

QOTUR - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 42]. Mənbədə Kotur kimidir (yenə orada). 1831-ci ildə kənddə xaricdən gəlmə ermənilər yerləşdirildikdən sonra əhali qarışıq yaşamışdır. 1918-ci ildə kəndin azərbaycanlı hissəsi qovulmuşdur. 1935-ci ildə kənd ermənicə Qetapi adlandırılmışdır. 1960-cı ildə kənd ləğv edilmişdir. "Qotur" sözündən ibarət toponimlərin hər birinin dəqiq mənşəyini aydınlaşdırmaq çətindir. Bunların bəziləri əhalinin hərəkəti ilə gətirilmə adlardır. XI əsrə aid mənbədə Şərqi Anadolunun Andzax əyalətində Kotor qalasının adı çəkilir [110, 112]. Qotur adlı bir qala (Qoturçay kənarında) XIII əsrə mənbəyində Cənubi Azərbaycanda Xoy şəhərindən qərbdə qeyd olunur [129, 199]. Dağ adlarında "qotur" sözü iki mənadadır. 1.Dağın seyrək bitkili olmasını bildirir. 2. Türk dillərində kutur (kudur) "dalğavarı dağ", "dalğavarı yüksəklik" (Azərbaycan dilində küdrü sözü bu mənadadır) bildirir. Su mənbəyi (əsasən bulaq) adlarında isə bu söz keçmişdə qoturluq xəstəliyini müalicə etmək üçün istifadə olunan mineral su bildirir. Azərbaycanda Qoturdağ (Şərur r-nu) dağ adı ilə mənaca eynidir. Bu mənada qotur sözü Dağlıq Qarabağda 1283-cü ilə aid ermənicə mənbədə qeyd olunan Katur-Çat (qotur- "seyrək bitkili dağ" və türk dillərində çat, şat "alçaq sıra dağ" sözlərindən) kənd adında [82] və XIV əsrdə Teymurləngin Qarabağda qışlaması ilə əlaqədar hadisələrdə adı çəkilən Qoturkənd (qeyd edilməlidir ki, Azərbaycanda "kənd" sözü ilk dəfə məhz bu toponimdən məlumdur) kənd adında [33] əksini tapmışdır. XIX əsrdə Cənubi Qafqaz da 2 Qoturlu və 4 Koturkənd adı vardı [133, 142]. Qotur, Qoturata, Qoturtəpə, Qoturdağ toponimləri Türkmənistanda da vardır (Ataniyazov S. Göst. lüğəti, s. 82).

QOTUR - Spitak r-nunda kənd adı. 1920-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Digər adı Arazdöyən. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Aralıq nahiyəsində "Şeyüklü elinə mənsub Qoturlu qışlaq" kimi qeyd olunmuşdur [170, 20]. Qoturqışlaq adı "Qoturlu bulağının ərazisində qışlaq" mənasındadır.

QOTUR - Yexeqnadzor r-nunda kənd adı. XIX əsrin ortalarında kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ildə kəndin əhalisi erməni idi.

QOTUR - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. Başqa adı Arazdayan (133, 142). Bax, Arazdayan.

QOTURBULAQ - Tiflis quberniyasının Borçalı qəz(asında sonra Ermənistanın Calaloğlu r-nunda) 1935-ci ildə kənd ermənicə Qatnaxpur adlandırılmışdır. Kənd adını oradakı Qoturbulaqdan (qoturluq xəstəliyini müalicə etmək üçün istifadə olunan mineral bulaqdan) almışdır.

QOTURBULAQ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 46].

QOTURVƏNG - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı. Mənbədə kəndin həm də Tərəkəmələr adlandığı göstərilir [170, 70].

QOTURVƏNG - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Meğri r-nunda) kənd adı. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Oradakı qədim kilsə (vəng) xarabalığının adındandır. Yerli tələffüz forması həm Qoruqvəng, həm də Gədikvəngdir.

QOTURLU - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [23, 70]. "Əhalisi Şeyikli camaatındandır" (yenə orada).

QOXT - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 142). Mənbədə Koxt kimidir (yenə orada). 1590-cı ildən məlumdur [167, 204]. 1918-ci ildə əhalisi ermənilər tərəfindən qovulduqdan sonra kənd dağıdılmışdır [11, 164]. Kolt adının ermənicə (erməni dilində XI-XII əsrlərə qədər "l" səsi yox idi, onu "ğ" səsi əvəz edirdi) tələffüzü və yazılışıdır. Azərbaycan ərazisində Koğt (əsli Kolt) kəndi Alban tarixçisi Musa Kalankatlı tərəfindən çəkilmişdir. (“Alban tarixi”, III kitab, 8-ci fəsil) XIX əsrin sonlarında İrəvan qəzasında iki Qoxt (yaxud, Koqt) kəndi vardı: Erməni Koqtu və Tatar (yəni azərbaycanlı) Koqtu. Qədim türk mənşəli Kol tayfasının adından və cəm bildirən "t" şəkilçisindən ibarətdir.

QOXUTTƏPƏ - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı [133, 142]. Qolut yaxud Kolut adının qədim erməni dilində "l" səsinin olmamasılə "ğ" səsi ilə yazılış formasıdır. Qədim türk mənşəli Kol yaxud Qol tayfasının adından və cəm bildirən - ut şəkilçisindən ibarətdir.

QOÇBAŞ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 142]. XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir.  Bax: Qoç-Baş dağı.

QOÇBAŞ - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı [133, 142]. "Başında qoç (vəhşi erkək qoyun və ya keçi) yaşayan dağ" mənasındadır. Azərbaycanda Dağlıq Qarabağda Qoç-bək (qoç və qədim türkcə bək "təpə" sözündən) və Kəlbəcər r-nunda Qoçdağ dağ adları ilə mənaca eynidir.

QOÇBƏY - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasının Dərələyəz mahalında kənd adı [133, 137]. 1727-ci ilə aid mənbədə Qoçubəy kimidir [23, 59]. Mənbədə deyilir ki, bu kənddə adam yaşamır, qonşu kəndlərdən gəlib əkib-biçirlər (yenə orada). 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Əsli türk dillərində qoç (vəhşi erkək qoyun və ya dağ keçisi) və bək "təpə" sözlərindən ibarətdir. "Qoç" olan (yaşayan) təpə" mənasındadır. Azərbaycanda Dağlıq Qarabağda Qoçbək dağ adı ilə mənaca eynidir.

QOÇQAR QIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 122]. Qoç və qar (Bax Babakar) sözlərindən ibarətdir. "Qoç qayası" mənasındadır. XIX əsrdə Şimali Qafqazda Ter əyalətinin Nalçik dairəsində Koçkar-Taş çay, həmin əyalətin Xasavyurt dairəsində Koçkar kənd, Dağıstan əyalətinni Teymurxanşura dairəsində Koçkar-Qum təpə adları (133, 143) ilə mənaca eynidir.

QOÇKEYİX - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133, 66]. Türk dillərində qoç (erkək) və geyik ("Kitabi-Dədə Qorqud"da keyik "ceyran" mənasındadır) "ceyran" sözlərindən ibarətdir. "Qoç keyik olan dağ" deməkdir.

QOÇƏRİUS - XVIII əsrin ortalarında İrəvan əyalətində kənd adı [150, 209]. Qoçəri adından və erməni dilində yunan dili mənşəli "us" şəkilçisindən ibarətdir.

QOÇU - 1590-cı ildə Rəvan əyalətində yaylaq adı. "Şəhər (İrəvan) camaatı yaylayır" [169, 76].

QOCA QURD YERİ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində qışlaq adı [23, 123].

QOCA ƏHMƏD KƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 122]. Əsli Xacə Əhməd kəndi.

QOCAƏHMƏD - 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı. Digər adı Şeyxlər [169, 61]. Əsli Xacə Əhməd.

QOŞ - Əştərək r-nunda kənd adı. 1590-cı ilə aid mənbədə Rəvan əyalətinin Karbi nahiyəsində Qoş kəndi qeyd olunur [169, 67]. XIX əsrin əvvəllərindən sonra əhalisi qarışıq (azərbaycanlı və erməni) olmuşdur. 1918-ci ildə kəndin azərbaycanlı hissəsi qovulmuşdur. Türk dillərində qoş, koş "köçəbə", "maldar elin yaylağda düşərgəsi" mənasındadır [143, II, 21]. Azərbaycanda Keş-Qutan (Qax r-nu), Keş-Kutan (Qazax r-nu), Koş-kutan (Quba r-nu), Xoş-Gədik (Laçın r-nu) və s. kənd adlarındakı koş və xoş (müqayisə et: Dağıstanda azərbaycanlıların yaşadığı Xoş-Mənzil kəndinin adı) sözü ilə mənaca eynidir. İlk dəfə Sisakanda (indiki Zəngəzurda) Koş adlı kənd "Alban tarixi"ndə qeyd olunur ("Alban tarixi", III kitab, 3 fəsil). Xoş adlı kənd Babək üsyanı (816-837) ilə əlaqədar olaraq Cənubi Azərbaycanda ərəb mənbələrində çəkilir. XVIII əsrin əvvəllərində İrəvan əyalətinin Niq mahalında Koş kəndi həm də monastır adı idi [150, 364]. Ermənicə mənbədə qeyd olunur ki, monastır Koş kəndinin adı ilə adlanmışdır [150, 364]. Koş və qonşu Aqnatun (Aqin toponimindən və türkcə tun "təpə" sözlərindən) kəndləri bu monastıra məxsus idi.

QOŞABULAQ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133]. Dağ oradakı yanaşı iki bulağın "Qoşa bulaq"ın adındandır.

QOŞABULAQ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1919-cu ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

QOŞAVƏNG - Aqin r-nunda kənd adı. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir [159]. 1950-ci ildə kənd ermənicə Haykadzor adlandırılmışdır. Kənd orada orta əsrlərdən məlum olan "Qoşavəng" kilsəsinin [150, 70] adındandır. Ani şəhərindən 4 km uzaqda yerləşən bu monastır X əsrdə tikilmişdir. Digər adı Horomos olmuşdur [57, 555] ki, bu da erməni dilində bizanslara verilən Horom (əsli Urum) adındandır. Orta əsrlərdə Albaniyada Qoşavəng (XII və alban tarixçisi Mxitar Qoşun adından) kilsə adı ilə eynidir.

QOŞADİZƏ - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Azərbaycan dilində qoşa (yanaşı) və dizə "qala" sözlərindəndir. Digər adı Qoşadərə idi [159].

QOŞAYATAQ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 125]. Xəlilkənd də adlanır (yenə orada).

QOŞAYATAQ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 135]. "Başqa adı Bəhənlər" (yenə orada).

QOŞAGƏL - İcəvan r-nunda göl adı. XIX əsrin 30-cu illərində göl ermənicə Qoşaliç adlandırılmışdır.

QOŞATƏPƏ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133]. XVII əsrin əvvəllərinə aid ermənicə mənbədə qeyd olunur ki, ikitəpəli dağdır [150, 223]. Azərbaycan dilindəki qoşa (yanaşı, iki) və təpə sözlərindən ibarətdir.

QRAMPA - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [132, 66]. 1590-cı ilə aid mənbədə Kərənpa [169, 81]. 1727-ci ilə aid mənbədə Kərəmla kimidir və onun Həmzəli kəndinə məxsus məzrənin (əkin yerinin) adı olduğu qeyd olunur [32, 258]. Məzrədə 5 azərbaycanlı evli kişi və 2 subay oğlan yaşayırdı (yenə orada). XIX əsrin əvvəllərindən əhalisi Azərbaycan türklərindən və ermənilərdən ibarət kənd kimi məlumdur. 1918-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1978-ci ildə kənd ermənicə Tsnazak adlandırılmışdır. Bax: Aşağı Qrampa və Yuxarı Qrampa. Anadoluda XIII-XIX əsrlərdə Amasiya, Tokat və Sivas bölgələrində yaşamış Ulu Yürük tayfa ittifaqının (İlbəyli, Çəpni, Qulaquzlu, Tatlu, Göycəli, Şərəffəddinlu, Ballu, Çopanlu, Ozlu, Qırıqlı, Əlibəyli və Gərampa) Gərampa qolunun [34, 186] adını əks etdirir.

QRAÇBAĞ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 144). Digər adı Təzəkənd. Əsli Qaraçıbağ. "Qaraçıların bağı" mənasındadır. XIX əsrdə Batum əyalətinin Artvin dairəsində Kraçtəpə dağ adı (133, 144) ilə mənaca eynidir.

QUQAR - Ermənistanda Pəmbək bölgəsində tarixi mahal adı. Erməni mənbələrində Quqark kimi V əsrdən çəkilir. (Moisey Xorenasi, II kitab, 8-ci fəsil). Bir mülahizəyə görə Quqark indiki Borçalı və Axalsix r-larının ərazisini əhatə edirdi (Qrek A.İ. Kratkiy oçerk istorii Kavkazskoqo pereşeyka. Vıp.I, Kiev, 1895, s.37). K.V.Treverə görə I əsr müəllifi Strabonun qeyd etdiyi Qoqarena (qədim erməni mənbələrində Quqark) Albaniya-İberiya sərhəddində yerləşirdi [154, c.193]. Bəzi müəlliflər quqarları Qafqaz dilli (154, 192), İ.D.Musxeliş-vili gürcüмənşəli hesab edirlər [127]. Hər iki fikir qondarmadır. Quqarlar er.əv.VII əsrdə sakların tərkibində gəlmiş türk mənşəli tayfa adıdır (bax: Qeybullayev Q.Ə. Azərbaycanlıların etnik tarixinə dair. Bakı, 1994).

QUQARÇAY - Pəmbək bölgəsində axan çayın adı. Uz. 10 km.

QUZANLU - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 91]. Digər adı Kürəkənli (yenə orada). "Əhalisi Yuva aşirətindəndir" (yenə orada). Qars əyalətinin Kaqızman dairəsində Kozan mahalının (133, 138) adını əks etdirir. Azərbaycan Quzanlı (Ağdam r-nu) kənd adı ilə mənşəcə eynidir.

QUZEYQOLU - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində Ortakilsə kəndinə məxsus məzrənin adı [23, 134].

QUZEYKƏND - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində Parkənd kəndinin başqa adı [2, 129].

QUZEY HƏRKƏS - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 121]. Adın "hərkəs" komponenti əslində Ərkəzdir. Əvvəlinə "h" səsi danışıqda əlavə olunmuşdur. Musa Kalankatunlunun "Alban tarixi" əsərinin VII əsrə aid hissəsində ermənicə yazılışda Arkaz kimidir. Mənası məlum deyil. Bax: Ərkəz.

QUZUDƏRƏ - İrəvan quberniyasının Novobayazid qəzasında çay adı. Əsli Küzdərə. Türk dillərində Küz "payız otlağı" və dərə sözəlrindən ibarətdir.

QUZUKƏND - Amasiya r-nunda kənd adı. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Toponimin "quzu" sözü XIX əsrdə Şimali Qafqazda Dağıstan əyalətinin Teymurxan Şura dairəsində Kozi-Kirşən, Qara Noqay dairəsində Koz-Kuyu, Stavropol quberniyasının Açi-Kulak dairəsində Koz-Təpə, Tiflis quberniyasının Tioneti qəzasında Kozundağ, Qars əyalətinin Oltin dairəsində Kozlar, Borçalı qəzasında Kozmanqışlaq və Kozmandaq, Qars əyalətinin Kaqızman dairəsində Kozman qışlağı, Qazax qəzasında Xozalan, Tiflis quberniyasının Axalxalak qəzasında Xozepin (kənd xarabalığı), Qars əyalətinin Qars dairəsində Xozapin kəndi və Xozapin-Göl [133] toponimlərində koz (xoz) sözləri ilə, bizcə, mənşəcə eyni olmaq etibarilə ya qədim türk dillərində küz "payız" (payızda qoyun-quzu otarılan yer, məsələn, Abşeronda Küzlək kəndinin adı), ya da oğuz (quz) etnonimindən ibarətdir. Azərbaycanda Dağlıq Qarabağda 1283-cü ilə aid mənbədə Xozinak [82] monastır adı və XIX əsrdə Şuşa qəzasında Quzumkənd [133, 146] adları da bu sıraya aiddir.

QUZUGÜDƏN - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 146].XIX əsrin ortalarından əhalisi qarışıq kənd idi. 1886-cı ilə aid məlumata görə kənddə Azərbaycan türkləri və ermənilər yaşayırdılar. 1918-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir [11, 164]. 1950-ci ildə kənd ermənicə Haykeşat adlandırılmışdır. Əsli Quzu-Kutan. Kənd qışlaq yerində quzuları saxlamaq üçün tikilmiş kutan əsasında yaranmışdır (kutan sözü barədə bax: Koşkutan).

QUZUGÜDƏN - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. XX əsrin əvvəllərindən sonra mənbələrdə adı çəkilmir.

QUZUGÜDƏNLİ - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [170, 20]. Digər adı Altıqışlaqlı. Mənbəyə görə kəndin camaatı Mürsəlli camaatının bir hissəsi idi (yenə orada).

QUZUÇULAR - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 85].

QUZUÇULU - 1590-cı ildə Rəvan əyalətinin Ərmus nahiyəsində kənd adı [169, 252].

QUYDAQ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 70]. Mənbədə Qüydağ kimidir (yenə orada). XIX əsrdə Naxçıvan qəzasında Quydağ və Şərur Dərələyəz qəzasında Quydağ dağ adları [133] ilə mənaca eynidir. Türk dillərində küy "mağara", "iri çala", "zəlzələ nəticəsində yaranmış yarıq" [126]

və Azərbaycan dilində dağ sözlərindən ibarətdir. Xakasiyada Kuusuqdağ, Tuvada Kuyluq-Xem çayı və Kuyluq-Şat dağı, Altayda Kuy-Taşdağı adları ilə [126] mənaca eynidir.

QUYLASAR SUFLA - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. Quylasar kəndinin adından və ərəbcə sufla "aşağı" sözündən ibarətdir. Bax: Quylasar.

QUYLASAR ULYA - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. Bax: Yuxarı Quylasar. Quylasar kəndinin adından və ərəbcə ulya "yuxarı" sözündəndir. Bax: Yuxarı Quylasar.

QUYULU - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı [159]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır [11, 164]. Mənbələrdə həm də Kuyli və Kuylu kimidir. Orta əsrlərdə Anadoluda yaşamış Yerük (Yeryük) türk tayfa birləşməsinin Qüyü (Küyü) tayfasının [35] adını əks etdirir.

QUYUBULAQ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 83]. Digər adı Keçili (yenə orada).

QUYULU - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 131].

QUYUCA - İrəvan xanlığının Sürməli mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra [159] kənd dağılmışdır. Anadoluda yaşamış Yüryük (Yürük) tayfasının Küyü qolunun adını əks etdirir (bax: Quyulu). "Kiçik Küyü (Qüyü) kəndi" mənasındadır. Azərbaycanda Quycü (Salyan r-nu) və Quycaq (Cəbrayıl r-nu) kənd adları ilə mənşəcə eynidir.

QULA - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 147]. XIX əsrin sonlarından sonra mənbələrdə kəndin adı çəkilmir. Toponimin üç izahı ola bilər.1)kəndin adı oradakı "Qüllə" adlandırılan qədim qala adındandır. 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində bir kəndin adı Qüllə kimidir [169, 14]. 2. XIX əsrdə Qars əyalətinin Ərdəhan dairəsində Qula (digər adı Soltaş) [133, 147] toponimi məlumdur. Azərbaycanda Qulabənd (Göyçay r-nu), Qulu-Daş (Yardımlı r-nu), Qulaqalası (Qazax r-nu, Əskipara kəndinin 4-5 km. liyində) adları ilə eynidir.

QULABDİ - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [170, 99]. 1590-cı ildən məlumdur. Mənbədə kəndin Abaran kəndindən yarandığı qeyd olunur. Qul (qulam, sarayda hökmdarın qulluğunda duran saray mühafizəçisi) və Abdi şəxs adındandır. Orta əsrlərdə Türkiyədə belə qullara yaşayış məntəqəsi, ailələr bağışlanırdı. 1588-ci ilə aid mənbədə Gəncə bölgəsində yaşayaş Hacılı tayfasının bir qolu Qul Mahmudlu adlanırdı [67, 208].

QULAQSIZ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. İlk dəfə 1728-ci ildən məlumdur [170, 165]. 1828-1832-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Əsli Qulaq-Saz. Türk dillərində kulak - "dərə", "çökəklik", "çuxur" [126, 310-311] (E. Koyçubayev Qazaxstan toponimiyasın-da kulak sözünü rusca "otkos" kimi vermişdir - 108, 149) və saz "qamışlıq", "sazlıq" sözlərindən ibarətdir. XIX əsrdə Şimali Qafqazda Stavropol quberniyasında Açi-Kulak dairəsinin adı, Qars əyalətində Qurd-Qulaq, Dərələyəz qəzasında Qulaqlıca, İrəvan qəzasında Körpi-Qulaq [133, 177] və s. toponimlərlə mənaca eynidir. Orta əsrlərdə İranda Həmədan yaxınlığında "Alma Qulağı" [24, 45], Qazaxıstanda Kos-Kulak [108, 149] toponimləri də bu sıradandır.

QULAQSIZ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. XX əsrin əvvəllərində kənd dağılmışdır.

QULAGİR - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 68]. Qul (qulam) və monqolca qer "alaçıq", "ev", "yurd" sözlərindəndir.

QULALI - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133., 147]. 1831-ci ildə kənddə Türkiyədən gəlmə ermənilər də yerləşdikdən sonra əhali qarışıq yaşamışdır. Sonralar azərbaycanlılar tədricən sıxışdırılıb çıxarılmışdır. 1940-cı ildə kənd erməncə Kamirqyuk adlandırılmışdır. XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində Kulalı, Qazax qəzasında Kulalı, Tiflis quberniyasının Axalsix qəzasında Kulalis, həmin quberniyanın Axalkalak qəzasında Kulalis [133, 147] kənd adları ilə mənşəcə eynidir. Qulalı kənd adlarının mənşəyi barədə iki fikir söyləmək olar: 1. Qul (qulam, saray xidmətçisi) və Əli (Alı) şəxs adlarından ibarətdir; 2. Qülləli (qüllə olan yer) sözündəndir.

QULALI - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Şəmşədin r-nunda) qışlaq adı [133, 147]. Yerli tələffüz forması Güləli. 1938-ci ildə kənd erməncə Haykadzor adlandırılmışdır.

QULALI - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 132].

QULAMƏLİ BOZAVƏND – İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 147). XIX əsrin ortalarında kənddə ermənilər məskunlaşmış və azərbaycanlılar sıxışdırılıb çıxarılmışdır. 1886-cı ildə kəndin əhalisi ermənilərdən ibarətdir. Orta əsrlərdə mövcud olmuş türk dilliBozavənd tayfasının adındandır.

QULAMƏLİ QIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [23, 70].

QULDƏRVİŞ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 148]. 1590-cı ilə [169, 226] və 1728-ci ilə [170, 7] aid türkcə mənbələrdə kəndin adı Kul-Dərviş kimidir. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1935-ci ildə kənd erməncə Voskeats adlandırılmışdır. Qulu adlı dərvişin adındandır.

QULKƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 68]. Mənbədə məntəqənin Mastarana (bax) kəndindən yarandığı qeyd olunur (yenə orada). "Qula ("qulama", "saray mühafizəçisi"nə) mənsub kənd" mənasında-dır.

QULLAR - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 121]. Qədim türk mənşəli Kul tayfasının adındandır.

QULP - İrəvan xanlığının Sürməli mahalında kənd adı [159]. 1728-ci ildən məlumdur [23, 63]. Erkən orta əsrlərə aid erməni mənbələrində Kolb (erməncə Koqb, çünki qədim erməni dilində "l" səsi yox idi), XIX əsrə aid rusca ədəbiyyatda Kulp kimidir. Kulp dağının adı ilə adlanmışdır. XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində Qulp (Kulp) kənd adı (133, 148) ilə mənşəcə eynidir.

QULP - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı [133, 148]. Oronimin mənası barədə iki fikir irəli sürülə bilər. 1)Ad peçeneqlərin və qıpçaqların Kuloba tafasının adını əks etdirir (bu barədə bax: 79]; 2) Ad yunanca qulbə "sığınacaq", müvəqqəti yaşayış yeri", yaxud türk dillərində külbə "gözətçi məntəqəsi" [143, II, I, 979] sözündəndir.

QULU - İrəvan quberniyasının Sürməli qəzasında qışlaq adı [133]. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin İqdır nahiyəsində Kuli kimidir [170, 19]. XIX əsrin sonlarında kənd dağılmışdır. Qulu şəxs adındandır. Azərbaycanda Quludaş dağının (Yardımlı r-nu) adı ilə mənaca eynidir.

QULUAĞALI - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 147]. Digər adı Böyük Məzrə. 1919-cu ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

QULUBƏYLİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 147]. XIX əsrin sonlarından sonra mənbələrdə kəndin adı çəkilmir. Qulubəyli 1918-ci ildə ermənilər tərəfindən dağıdılmışdır. Kəndin əhalisi Türkiyənin şərqinə (İqdır, Qars) qaçmışdır.

QULUBİNƏ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında qışlaq adı (133, 147). Qulu şəxs adından və binə sözündən ibarətdir.

QULUKƏND - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [23, 69].

QULUXAN QIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 123].

QULUCAN - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. 1728-ci ildən məlumdur [170, 21]. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd ləğv edilmiş və ərazisi Kalinin adına sovxoza verilmişdir [20, 248]. Qul (qulam, saray mühafizəçisi) sözündən və Uçan şəxs adındandır.

QULUCAN - Artik r-nunda kənd adı. 1878-ci ildə kəndin əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Spandaryan adlandırılmışdır.

QULUCAN - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı [159]. 1950-ci ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir.

QULUCANLI - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 147]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

QULLU - İrəvan quberniyasının Sürməli qəzasında qışlaq adı (133, 147).

QULCA - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [23, 49].

QULCA ƏLİ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 9]. Mənbədə məntəqənin Ayaslı Kəbir kəndindən yarandığı qeyd olunmuşdur (yenə orada).

QUMBULAQ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. (133, 148). Azərbaycan dilində qum (bulağın qumlu yerdə çıxması) ya da farsca qum "alçaq yer" sözündəndir. Toponimlərdə kom, kum, qum sözünün dəqiq mənasını ayırd etmək çətindir. Azərbaycanda Baba Qum (Şamaxı r-nunda dağ adı), Xumarta (Zəngilan r-nunda dağ adı), Peyğəmbər - Qum (Mil düzündə təpə adı), XIX əsrdə Cavad qəzasında Qulaq-Kom və Gorus-Qum (təpə adları) və s. toponimlərdəki qum (kum) sözü ilə mənaca eynidir.

QUMLUQIŞLAQ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 123].

QUNDAQ - 1590-cı ildə Rəvan əyalətinin Zebil nahiyəsində yaylaq adı [169, 334]. Azərbaycan xalqının etnogenezi ilə bağlı çox qiymətli toponimlərdəndir. Yaylaq dağın adı ilə adlanmışdır. Dağın adı Hundağ etnotoponimini əks etdirir.

QUNDAQSAZ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı (133, 140). 1878-ci ildə dağılmışdır (6, 166).

QURABAQALA SUFLA - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [133]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. "Quraba" və ərəbcə sufla "aşağı" sözündən ibarətdir. Fars dilində qurab "günbəzli türbə" və qala sözlərindən ibarətdir.

QURBAQALA ULYA - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [133]. 1818-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. 1728-ci ilə aid mənbədə Qurbağalı Ulya kimidir [170, 82]. Ərəbcə ulya "yuxarı" sözündən və "Qurabaqala" adından ibarətdir.

QURBAĞALI - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133,149]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. XIX əsrdə Tiflis quberniyasının Axalsix qəzasında Kurbağa-oğlu (kənd adı), Şimali Qafqazda Ter əyalətinin Nalçik dairəsində Kurba-Uşku (dağ adı), Azərbaycanda Cavanşir qəzasında Kurbaçay (çay adı) toponimləri (yenə orada) ilə mənaca eynidir. Monqolca kurba "üç" və Ağalı (nəsil adı) sözlərindən ibarətdir.

QURBANKƏSİLƏN - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı (133, 149).

QURBANQULU - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1728-c ilə aid mənbəyə görə digər adı Torpaqqala [170, 21]. Ehtimal ki, Qurbanqulu şəxs (feodal) adındandır.

QURBANLI - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. 1919-cu ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır.

QURQAN - İrəvan xanlığının Sürməli mahalında kənd adı. 1828-1832-ci illərdə əhalisi qovulmuş və kənd dağılmışdır [159]. Bu kəndin adının mənası haqqında üç mülahizə irəli sürmək olar. 1.XIII əsrdə monqolların tərkibində gəlmiş türk mənşəli Qurqan tayfasının (Raşid ad-Din. Sbornik letopisey. Tom I, kn.I, M-L., 1952, s.77) adını əks etdirir. 2. Türk dillərində qurqan - düzən yerdə 1000 alaçıqdan ibarət dairəvi formalı dayanacaq, düşərgə sözündəndir. 3. Türk dillərində tayfa başçısının qəbri üstündə ucaldılan konusvarı təpə-kurqan sözündəndir. Qeyd edilməlidir ki, Azərbaycan və Ermənistan ərazilərində qədim türk tayfalarına məxsus olan bəzi kurqanlar xalq içərisində XIX əsrə qədər müqəddəs sayılırdı (məs: Laçın r-nunda Qurqanbaba piri və s.).

QURQUR NAVAL - İrəvan quberniyasının Eçmiadzin qəzasında göl adı [133, 69]. XIX əsrdə Şimali Qafqazda Ter əyalətinin Xasavyurd dairəsində Qurqur-Kutan, Dazıkan əyalətinin Qaranoqay dairəsində Kur-Kuri-Xur, Qızılyar dairəsində Kurqurkutan, Azərbaycanda Zakatala dairəsində Kurqur qobu [133] toponimləri ilə mənaca eynidir. Mənası məlum deyil.

QURDALI - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində qışlaq adı [169, 217].

QURDBULAQ - Qızıl-Qoç (indi Ermənistanın Qükasyan r-nu) r-nunda kənd adı. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir (6, 166). 1946-cı ildə kənd ermənicə Krasar adlandırılmışdır. Bu toponimdə "qurd" sözünün mənasını müəyyən etmək çətindir. Onun Azərbaycan

dilində qurd (canavar), yaxud qurd (böcək) sözlərindən ibarət olması ehtimal olunur. Bəlkə də farsca kord "su yığılan çökək yer" sözündəndir.

QURDBULAQ - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı [159]. 1948-1951-ci illərdə əhalisi Azərbaycana qovulmuşdur. Qurd (canavar) və bulaq sözlərindən ibarətdir.

QURDQALA - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) kənd adı [133, 149]. XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir. Qafqazda çoxlu coğrafi adlarda qurd, kürd, kort formalarında əksini tapmış bu söz həm də türk dillərində kort sözünün təhrif forması ola bilər. XIX əsrdə Qars əyalətinin Oltin dairəsində Kortdağ, Tiflis quberniyasının Axalsix qəzasında Qort-Uban (kənd adı), Şimali Qafqazda Ter əyalətinin Nəzran dairəsində Açin-Kort (kənd adı), Stavropol quberniyasının Qroznı dairəsində Mizer-Kort (kənd adı), Ter əyalətinin Vladiqafqaz dairəsində Erten-Kort (dağ adı), Azərbaycanda Qazax qəzasında Bicori-Kort (dağ adı), Cavanşir qəzasında Kort-Təpə (dağ adı) Yelizavetpol qəzasında Kyortdağ (dağ adı), Şamaxı qəzasında Quritu (dağ adı), Qars əyalətinin Ərdəhan dairəsində Kurdqala [133] və s. toponimlərdə "kort" sözü vardır.

QURDQALA - Taşir r-nunda kənd adı. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Bax: Qurdqala.

QURDQALAQ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı [133]. 1918-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur [20, 165].

QURDQULAQ - İrəvan xanlığı Dərələyəz mahalında kənd adı [159]. XX əsrin əvvəllərinə aid mənbədə Kürd Kulaq kimidir (133, 154).1946-cı ildə kənd ermənicə Belorabert adlandırılmışdır. 1950-ci ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir. Azərbaycan dilində qurd (canavar) və türk dillərində kulak "dərə", "çuxur", "çökək" (bax: Qulaqsız) sözlərindən ibarətdir. XIX əsrdə Kars əyalətində Kürd-kulax dağ (133, 149) adı ilə mənaca eynidir.

QURD ƏMİR - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [23, 60]. Mənbədə qeyd olunur ki, kənddə adam yaşamır, şiə olduqlarına görə köçüb getmişlər [32, 311].

QURDLUBULAQ - İrəvan quberniyasının Aleksandropol qəzasında kiçik kənd adı (133, 150). XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir. Kənd "Qurdlubulaq"ın adındandır.

QURDLUBULAQ - İrəvan quberniyası Novobayazid qəzasında Toxluca kəndinə məxsus qışlaqlardan birinin adı [136, 33].

QURDLUCA - 1590-cı ildə Rəvan əyalətinin Abnik nahiyəsində kənd adı. Digər adı Əmir Mahmud [168, 254].

QURDTƏPƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağı adı [133]. Azərbaycan dilində qurd (canavar) və təpə sözlərindən ibarətdir.

QURDUQULU - İrəvan xanlığının Sərdərabad mahalında kənd adı [159]. Mənbədə Kurdukuli kimidir (133, 149). XIX əsrin 30-cu illərində Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ildə kəndin əhalisi erməni idi. 1935-ci ildə kənd ermənicə Armavir adlandırılmışdır. Qurduqulu dağının adındandır. Bax: Qurduqulu dağı.

QURDUQULU - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı [133, 149]. Azərbaycan dilindəki qurd (canavar) və uku "mağara" [79, 477] sözlərindən ibarətdir. "Canavar mağarası olan dağ" mənasındadır.

QURDÇULU - 1728-ci ildə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində qışlaq adı [23, 117]. Naxçıvanda Kəngərlərin Qurdçu tayfasının adını əks etdirir.

QURSALI - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 150]. 1918-ci ildə kəndin əhalisi qovulmuş, lakin iki-üç ildən sonra bir hissəsi yenidən orada məskunlaşmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Kəndin əsl adı "Gorus eli", yəni "Gorus tayfası"dır. Qədim türk mənşəli Gorus tayfasının adını əks etdirir. Bax: Gorus,  Xors, Xoros.

QURSALI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. 1590-cı ilə aid mənbədə kəndin adı Xorsalı kimidir [169, 62]. Qədim türk mənşəli Gorus tayfasının adını əks etdirir. Bax: Gorus.

QURTLAR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) kənd adı [133]. 1968-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Azərbaycanda Bərdə və Ağdam rayonlarında Qurdlar kənd adları ilə mənşəcə eynidir [bax: 77]. Kəngərlərin Qurtlar tayfasının adını əks etdirir. Bax: Kəngərli.

QURDTƏPƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı (133, 150).

QURUAĞAC - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı [159]. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Sürməli nahiyəsində Qurduağac kəndinin adı çəkilir [170, 17]. Xalq içərisində tələffüz forması Qarağacdır [bax: Qarağac]. Əsli "Qura ağac", yəni "ağacdan tikilmiş qura". Türk dillərində kora "qışlaqda gecələr heyvan saxlamaq üçün tikinti" [143, II, 1, 551] mənasındadır. Azərbaycanda XIX əsrdə daşdan tikilmiş qura "daşqura" adlanırdı. Bax: Kürə- Qoçaq.

QURUARAZ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1950-ci ildə Erasxatun adlandırılmışdır. "Araz çayının quru yatağı" mənasındadır.

QURUBOĞAZ - İrəvan xanlığının Abaran mahalında kənd adı [159]. 1590-cı ildən məlumdur [169, 241]. 1728-ci ilə aid mənbədə də adı çəkilir [170, 149]. 1878-ci ildə kəndin Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1978-ci ildə kənd ermənicə Ortaçya adlandırılmışdır. Azərbaycan dilində qura "qışlaqda gecələr heyvan salmaq "tövlə", "dam" və boğaz (bax: Boğaz-Kəsən və Kürə -Qoçaq) sözlərindən ibarətdir. Quruboğaz oradakı dağın adıdır.

QURUBOĞAZ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 136]. Oradakı Quruboğaz dağının adındandır.

QURUDƏRƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı. Dağ və dərə adlarında "quru" sözü həm də türk dillərində kora (azərbaycanca qura) "qışlaqda gecələr mal-qaranı salmaq üçün tövlə" sözünün danışıqda dəyişilmiş forması da ola bilər. Məsələn, Azərbaycanda Qurudaq (Şamxor r-nu, hünd. 1469 m) oronimində quru sözü, şübhəsiz, qura sözündən ibarətdir.

QURUDƏRƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133].

QURUDƏRƏ - İrəvan Eçmiadzin qəzasında göl adı [133, 150].

QURUDƏRƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında çay adı [133, 150].

QURUDƏRƏ TƏPƏBAŞ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 150].

QURUMSULU - Noyemberyan r-nunda kənd adı. 1935-ci ildə kənd Dostluq, 1978-ci ildə Ermənicə Voskevan adlandırılmışdır. XX əsrin əvvəllərində Qazax qəzasının Qurumsu kəndindən (133, 151) gəlmiş ailələrin məskunlaşması nəticəsində yaranmışdır.

QURUSELAB - İrəvan quberniyası İrəvan qəzasında çay adı [133, 150].

QURUFANTAN - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. 1918-ci ilə qədər əhalisi azərbaycanlılar və ruslar idi. 1918-ci ildə ermənilər azərbaycanlıları qovaraq yerlərinin tutmuşlar. 1935-ci ildə Fantan adlandırılmışdır.

QURUÇAY - Noyemberyan r-nunda kənd adı. 1920-ci ildə kənddə ermənilər də məskunlaşmışlar. 1988-ci ildə azərbaycanlı əhalisi qovulmuşdur. Ermənicə Pçtavan adlandırılmışdır.

QUTANQAR - Alaverdi r-nunda Lecan dağından şərqdə dağ adı (60, 75). Türk dillərində qutan, kutan (Bax: Keşqutan) və qar “alınmaz qaya” (108, 107) sözlərindən ibarətdir.

QUTQUT - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 31]. Müsəlmanların yaşadığı Çatqıran kəndi tərəfdə yerləşən Qutqut kəndi (yenə orada).

QUTKOM - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı. 1949-cu ildə əhalisi Azərbaycana köçürülmüş və sonra kənd ermənicə Qexanut adlandırılmışdır. Yerli tələffüz forması Qut-Qum. XVII əsrə aid ermənicə mənbədə İrəvan əyalətinin Qırxbulaq mahalında Qut kəndi [150, 362], Qaqarkuni mahalında isə Kot kəndi [150, 360] qeyd olunmuşdur. Türk dillərində qut (kut) "möhkəmləndirilmiş yer" (bax: Burun-Qot) və Kom (bax: Aqut Kom) sözlərindən ibarətdir. Azərbaycanın Kəlbəcər r-nunda (Tərtərçayın sol sahilində) ermənicə yazılışda Xotavəng (əsli Xutavəng) monastırının (VIII-XI əsrlər) adında əksini tapmışdır.

QUTLUĞAN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 84]. "Kəndin başqa adı Qutluğandır" (yenə orada).

QUTLUDÖVR - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 42].

QUTNİQIŞLAQ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 153]. Mənbədə Kutniqışlaq kimidir (yenə orada). 1946-cı ildə kənd ermənicə Hovtaşen adlandırılmışdır. 1948-ci ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür. Qutniqışlaq dağının adındandır.

QUTNİQIŞLAQ - İrəvan quberniyasının Aleksandropol qəzasında (indi Artik r-nunda) dağ adı [133, 153]. Yüksəkliyi 1748 m. Ehtimal ki, əsli Qutluqışlaqdır. Şahsevənlərin İranda Kutlu tayfasının adı ilə bağlıdır.

QUCAQ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 146]. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır. 1728-ci ilə aid mənbədə Sürməli nahiyəsində Kucaklı Sufla və Kucaklı Ulya kəndləri

qeyd olunmuşdur [170, 19]. XIX əsrə aid rusdilli ədəbiyyatda da kəndin adı Kucak kimidir( 133, 146). Azərbaycanda Quycaq (Cəbrayıl r-nu), Cənubi Azərbaycanda Quycaq kənd adları ilə mənşəcə eynidir. Bax: Quyuca.

QUŞİ (QUŞÇU) - İrəvan xanlığının Sürməli mahalında kənd adı [159]. 1878-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Qədim türk mənşəli Kuşi (Kuşçu) tayfasının adını əks etdirir (bax: Quşçu). XIX əsrdə Qafqazda 38 Kuşi və Quşi, Quşçu, Quşilər toponimi vardı [133, 152]. Quşi (Quşçu) tayfası III-IV əsrlərdə Cənubi Qafqaza gəlmişdir. İlk dəfə "VII əsr erməni coğrafiyası" adlı mənbədə (VII əsr) Xuşi kimi qeyd olunmuşdur. Mənşəcə Orta Asiyada Kuşan çarlığını yaratmış (I-III əsrlər) türklərdə Quşçu, farslarda Kuşan tayfası Orta Asiya, İran [bax: 145] və Qafqazda külli miqdarda toponimlərdə iz qoymuşdur [87].

QUŞİ - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. 1828-1832-ci illərdə kənddə ermənilər də məskunlaşmışlar. 1918-ci ildə azərbaycanlılar qovulmuşlar. 1946-cı ildə kənd ermənicə Kecit adlandırılmışdır. Yerli əhali içərisində kəndə Bilən də deyilmişdir. Qədim türk mənşəli Kuşi tayfasının adındandır.

QUŞİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 152).

QUŞİDƏRƏSİ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 152]. XIX əsrin sonlarından sonra adı çəkilmir. Quşi tayfasının adındandır [bax: 87].

QUŞİOĞLU MƏZRƏSİ - 1590-cı ildə Rəvan əyalətinin Abaran nahiyəsində kənd adı [169, 237].

QUŞÇU - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı [133, 152]. 1950-ci ildə Davidbəy qəsəbəsi ilə birləşdirilmişdir. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Qədim türk mənşəli quşçu tayfasının adındandır [bax: 87].

QUŞÇU - 1590-cı ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 207].

QUŞÇU - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [23, 62]. "Ağcaqala tərəfdədir" (yenə orada).

QUŞÇU MƏZRƏSİ - 1590-cı ildə Rəvan əyalətinin Abaran nahiyəsində məzrə adı [169, 233].

QUŞCAQAYA - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Krasnoselsk r-nunda) qışlaq adı [133]. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd ləğv edilmişdir. "Quş yuvaları olan qaya" mənasındadır.

QÜTBİ QIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 125], Beyti-Murad (Muradxan kəndi) də adlanır (yenə orada).